MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİ

# TARİX YAZAN QƏHRƏMANLAR

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 121449

ŞƏRQ-QƏRB

**Tarix yazan qəhrəmanlar**
Bakı, “Şərq-Qərb”, 2021, 200 səh.

ISBN 978-9952-548-17-4

İdeya müəllifi və baş məsləhətçi: **Mədət Quliyev**
müdafiə sənayesi naziri,
Azərbaycanın Milli Qəhrəmanı

Məsləhətçi: **Zaur Əliyev**
Müdafiə Sənayesi Nazirliyinin
aparat rəhbəri

Kitabda Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli sərkərdəliyi, Ordumuzun rəşadəti, xalqımızın “Dəmir yumruq” ətrafında sıx birliyi nəticəsində şanlı Qələbə ilə başa çatan 44 günlük Vətən müharibəsində Müdafiə Sənayesi Nazirliyinin misilsiz qəhrəmanlıq nümunələri göstərərək şəhidlik zirvəsinə ucalan, adlarını tarixə əbədi həkk edən əməkdaşları haqqında məlumatlar verilir.

Nəşrdə 1990-cı illərin əvvəllərində düşmən tərəfindən torpaqlarımızın qəsb olunmasına qarşı mübarizədə, Azərbaycanın ərazi bütövlüyü uğrunda Qarabağ müharibəsində şəhid olan igid və cəsur əməkdaşların adları qeyd edilir, Müdafiə Sənayesi Nazirliyinin Vətən müharibəsindəki fəaliyyətinə nəzər salınır, bu qurumun şəhidlərin xatirəsinin əbədiləşdirilməsi istiqamətində gördüyü işlərdən bəhs edilir.

ŞƏRQ-QƏRB

www.eastwest.az
www.fb.com/eastwest.az
info@eastwest.az

© Azərbaycan Respublikası
Müdafiə Sənayesi Nazirliyi, 2021

# QARABAĞ AZƏRBAYCANDIR!



*Azərbaycanın Silahlı Qüvvələri müasir hərbi texnika ilə təchiz edilmiş, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordudur.*



**Heydər ƏLİYEV**

Azərbaycan xalqının Ümummilli lideri



*Azərbaycanda Müdafiə Sənayesi Nazirliyinin xətti ilə hərbi təyinatlı məhsulların buraxılması prosesi uğurla gedir və biz bu sahədə də böyük nailiyyətlərə çata bilmişik.*

**İlham ƏLİYEV**

Azərbaycan Respublikasının Prezidenti



# MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİ




Virtual keçid











Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev
Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev
Bakı şəhərində keçirilən "ADEX" Beynəlxalq Müdafiə Sərgisində





Azərbaycan Respublikasının hərbi qüdrətinin artırılmasına imkan verən mühüm strateji sahə – müdafiə sənayesinin yaradılması ölkə həyatında mühüm hadisə idi.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Silahlı Qüvvələrin texniki tələbatının milli istehsal yolu ilə ödənilməsi ən vacib vəzifələrdən biri kimi qarşıda dururdu. Ümummilli Lider Heydər Əliyev tərəfindən 2003-cü ildə "Azərbaycan Respublikası müdafiə sənayesi müəssisələrinin 2003–2005-ci illərdə inkişafına dair Dövlət Proqramı" təsdiq edildikdən sonra müdafiə sənayesinin inkişafında yeni mərhələ başlamışdır.

Ulu Öndərin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində ordu quruculuğu sahəsində mühüm nailiyyətlər əldə olunmuşdu. Ölkə Prezidentinin 16 dekabr 2005-ci il tarixli 1181 N°-li Sərəncamı ilə Azərbaycan Respublikası Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsinin bazasında Müdafiə Sənayesi Nazirliyi yaradılmışdır.

Dövlət başçısının bu uzaqgörən və müdrik qərarı nəticəsində müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin, o cümlədən Milli Ordunun və digər güc strukturlarının atıcı silahlara, döyüş sursatına və müxtəlif növ müdafiə təyinatlı məmulatlara olan tələbatının əsas hissəsinin ödənilməsi təmin edilmişdir.

Müdafiə Sənayesi Nazirliyi yaradılarkən onun strukturuna 18 müəssisə olmaqla 6 istehsalat birliyi, 3 idarə, Elmi-Tədqiqat İnstitutu və Milli Aerokosmik Agentliyi daxil edilmişdir.

Görülmüş tədbirlər nəticəsində dünyanın inkişaf etmiş aparıcı şirkətlərindən alınmış ən müasir texnologiya və avadanlıqlarla təchiz olunan 50-dən çox yeni istehsal sahəsi yaradılmışdır. Bu istehsal sahələrində çağdaş tələblərə cavab verən və insan amilini minimuma endirən rəqəmsal, proqram təminatlı mürəkkəb texnoloji xətt və avadanlıq dəstləri, müxtəlif təyinatlı dəzgah, cihaz, alət və tərtibatlar alınaraq quraşdırılmışdır.

Müdafiə Sənayesi Nazirliyi tərəfindən 2007-ci ildən 2020-ci ilədək olan müddət ərzində ümumilikdə 2 milyard 780 milyon manatlıq məhsul istehsal edilmişdir. 2007-ci illə müqayisədə 2020-ci ildə ümumi məhsul istehsalının həcmi 9,3 dəfə, müdafiə təyinatlı məmulatların həcmi isə 12,8 dəfə artmışdır. Hazırda istehsalı mənimsənilmiş müdafiə təyinatlı məmulatların çeşid sayı 1000 addan çoxdur.

Bununla yanaşı, nazirliyinin müəssisələrində aparılan elmi-tədqiqat və təcrübi-konstruktor işləri nəticəsində 400-dən artıq müdafiə təyinatlı məmulatların hazırlanması işləri başa çatdırılmış və seriyalı istehsalı təmin edilmişdir.



7,62 × 51 mm-lik "Yalquzaq" snayper tüfəngi





40 mm-lik "TƏQ-7V2" qumbaraatan (müxtəlif növ qumbaraların istifadəsi ilə)



60 mm-lik ikili təyinatlı minaatan (təlim və döyüş minalarının istifadəsi ilə)

Ötən illər ərzində istehsalı mənimsənilən, o cümlədən qısa müddətdə hərbi arsenal üzrə geniş arealda şöhrət qazanan əsas məmulatlardan "Mübariz", "İstiqlal", "Yalquzaq" və s. snayper tüfənglərini, AK-74M, AZ 7,62 və NATO standartlarına uyğun 5,56 mm-lik avtomatları, müxtəlif növ tapançaları, minaatanları, qumbaraatanları və onların atəş yığımlarını, optik cihazları, 30 mm-lik avtomatik topu (AT-30), tank və piyada əleyhinə minaları, ayrı-ayrı kalibrli aviasiya bombalarını, "Matador" və "Marauder" tipli zirehli maşınları, təkmilləşdirilmiş BTR-70 və BRDM-2 zirehli nəqliyyat vasitələrini, "Gürzə" və "Tufan" kəşfiyyat-patrul maşınlarını, "Orbiter-2M, 2B, 3B" və "Orbiter-4", "Aerostar-BP" və "Zərbə" tipli "İti qovan" pilotsuz uçuş aparatlarını, həmçinin digər növ silah, döyüş sursatlarını və s. göstərmək olar.

Azərbaycanda istehsal olunan müdafiə təyinatlı məhsulların xarici bazarlara çıxarılmasına xüsusi önəm verən Müdafiə Sənayesi Nazirliyi bu məqsədilə 50 beynəlxalq sərgidə iştirak etmiş və məhsullarını nümayiş etdirmişdir.

Müdafiə Sənayesi Nazirliyi 2021-ci ildə Türkiyənin İstanbul şəhərində "İDEF-2021", Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində "İDEX-2021", Belarusun Minsk şəhərində "MİLEX-2021", Serbiyanın Belqrad şəhərində "Partner-2021", eləcə də Moskva və digər şəhərlərdə keçirilmiş beynəlxalq müdafiə, silah və hərbi texnika sərgilərində yüksək səviyyədə təmsil olunmuşdur. Həmin sərgilərdə nazirliyin müəssisələrində istehsal olunan müdafiə təyinatlı – snayper tüfəngləri, avtomatlar, hücum pulemyotları, qumbaraatanlar,



9 mm-lik tapançalardan biri – "Zəfər-P"





7,62 mm-lik "HP" hücum pulemyotu



30 mm-lik avtomatik dəzgahlı qumbaraatan "AQS-30"

F. Köçərli adına Respublika Uşaq KİTABXANASI № 121449

minaatanlar, pilotsuz uçuş aparatları, müxtəlif çaplı döyüş sursatı və s. olmaqla 133 adda məmulat nümayiş etdirilmişdir.

Müdafiə Sənayesi Nazirliyi xarici ölkələrdə keçirilən sərgilərdə iştirak etməklə yanaşı, 2014, 2016 və 2018-ci illərdə Bakı şəhərində keçirilən "ADEX" Beynəlxalq müdafiə sərgilərinin təşkilatçısı olmuşdur. Növbəti "ADEX-2022" Beynəlxalq müdafiə, silah və hərbi texnika sərgisi də Bakı şəhərində baş tutacaqdır.

Davamlı olaraq ixrac potensialının genişləndirilməsi və idxalın yerli istehsalla əvəzlənməsi ilə bağlı Müdafiə Sənayesi Nazirliyində məqsədyönlü tədbirlər görülür. Bu gün nazirliyin müəssisələrində istehsal edilən məhsullardan döyüş sursatlarının, müasir atıcı və artilleriya silahlarının, zirehli texnikaların və s. ixracı həyata keçirilir.

Ötən illərdə olduğu kimi, müəssisələrin ritmik iş fəaliyyətlərini təmin etmək məqsədilə əsas diqqət ixrac potensialının genişləndirilməsinə yönəldilmişdir. Pandemiya ilə bağlı müəyyən çətinliklərin olmasına baxmayaraq, 2019-cu illə müqayisədə 2020-ci ildə ixrac edilmiş məhsulların həcmi kooperasiya nəzərə alınmaqla 37 faiz artaraq 199,4 milyon manat təşkil etmişdir.




**İstanbul şəhərində keçirilən "İDEF-2021"**
**Beynəlxalq Müdafiə Sərgisində Azərbaycanın milli pavilyonu**








**İstanbul şəhərində keçirilən "İDEF-2021"**
**Beynəlxalq Müdafiə Sərgisində Azərbaycanın milli pavilyonu**

Qeyd etmək lazımdır ki, 44 günlük Vətən müharibəsində Müdafiə Sənayesi Nazirliyinin müəssisələri də gücləndirilmiş iş rejimində işləmiş və qarşıya qoyulmuş tapşırıqları layiqincə yerinə yetirmişdir.




**Əbu-Dabi şəhərində keçirilən "İDEX-2021" Beynəlxalq Müdafiə Sərgisində Azərbaycanın milli pavilyonu**

Ali Baş Komandan-ordu-xalq birliyi nəticəsində Vətən müharibəsində parlaq qələbə qazanan Azərbaycan işğalçılara öz istehsalı olan hərbi texnika və avadanlıqların gücünü də məharətlə göstərmiş, azğın düşmən Azərbaycan zabitinin və əsgərinin yenilməzliyi ilə yanaşı, ölkəmizin silah sənayesinin qüdrətini də yaxından hiss etmişdi.

Dövlətimizin başçısının göstərişi ilə nazirlik tərəfindən səmərəli təşkil olunmuş və görülmüş çevik tədbirlərlə uzunmüddətli hərbi əməliyyatlar üçün nəzərdə tutulmuş güclü ehtiyat hərbi silah və sursat bazası yaradılmışdır. Bundan əlavə, təmir və bərpa işlərinin vaxtında, səmərəli və operativ şəkildə icrasını təmin etmək üçün Müdafiə Sənayesi Nazirliyinin rəhbərliyinin tapşırığı əsasında döyüş zonalarına yaxın yerlərdə müvafiq təmir bazaları təşkil edilmiş, onların cəbhəyanı ərazilərdə fasiləsiz fəaliyyəti təmin olunmuşdur.

Heç təsadüfi deyil ki, Vətən müharibəsi zamanı şanlı ordumuzun istifadə etdiyi silah, döyüş sursatı, hərbi texnika və digər növ müdafiə təyinatlı məmulatların xeyli hissəsi yerli istehsal hesabına təmin olunmuşdur. Belə ki müharibə dövründə nazirliyin müəssisələrində istehsal olunan məmulatlardan müxtəlif təyinatlı pilotsuz uçuş aparatlarını, atıcı silahları, qumbaraatanları, artilleriya silahlarını, ayrı-ayrı kalibrli silahlar üçün döyüş sursatlarını, əl qumbaralarını, fərqli çeşidli minaları və pirotexniki vasitələri, çox sayda mühəndis texnikasını və s. göstərmək olar.







**"TƏQ-7V2" qumbaraatan üçün optik nişangah**



**40–46 mm-lik revolver tipli qumbaraatan**

Dövlətimizin başçısının müdafiə sənayesi sahəsinə göstərdiyi xüsusi diqqət və qayğı nəticəsində ötən müddət ərzində Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində müasir növ silahlar, döyüş sursatı, hərbi texnika, mühəndis-texniki vasitələr və digər müdafiə təyinatlı məmulatlar istehsal edilərək Silahlı Qüvvələrə təhvil verilmişdir.

2020-ci il noyabr ayının 8-də Şəhidlər xiyabanında Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev xalqa müraciətində demişdir: "Mənim təşəbbüsümlə Azərbaycanda müdafiə sənayesi yaradıldı. Biz ordumuzun tələbatını böyük dərəcədə daxili istehsal hesabına təmin edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir, o cümlədən ən müasir məhsullar...".

Bütün bu tədbirlərin, düşünülmüş, planlaşdırılmış addımların sayəsində dövlətimizin başçısı cənab İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan Silahlı Qüvvələri dünyanın ən hazırlıqlı 50 ordusu sırasına daxil olmuşdur.

Azərbaycan Respublikasının müdafiə qabiliyyətinin və hərbi qüdrətinin durmadan artırılması, Silahlı Qüvvələrimizin yüksək texnoloji keyfiyyətlərə cavab verən müasir silah və döyüş texnikası ilə təmin olunması, maddi-texniki təminatının daha da gücləndirilməsi üzrə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən qarşıya qoyulmuş vəzifələrin yüksək səviyyədə həyata keçirilməsi məqsədilə Müdafiə Sənayesi Nazirliyinin kollektivi hər zamankı kimi əzmlə və fədakarlıqla çalışmaqdadır.




**Modernləşdirilmiş "BTR-70" çoxtəyinatlı zirehli döyüş maşını**








**"Zərbə" tipli "İti qovan" pilotsuz uçuş aparatı**




**"Orbiter-4" pilotsuz uçuş aparatı**


120 mm-lik minaatan




7,62 × 54 mm-lik patronlar

# QARABAĞ MÜHARİBƏSİ



Tarix boyu "böyük Ermənistan" xülyasında olan ermənilər bu məkrli planlarını həyata keçirmək üçün zaman-zaman Azərbaycan torpaqlarına qarşı ərazi iddiaları irəli sürmüşlər. 1988-ci ildə bu proses daha kəskin xarakter almış, 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra düşmənin ölkəmizə hərbi təcavüzünün miqyası daha da genişlənmişdir.

1992-ci il fevralın 26-da Ermənistanın terrorçu-silahlı birləşmələri ən ağır cinayətlərindən daha birini – Azərbaycanın Xocalı şəhərinin dinc sakinlərinə qarşı soyqırımı törətmişlər.

Birləşmiş Millətlər Təşkilatı 1992-ci il martın 2-də Azərbaycan Respublikasını üzvlüyə qəbul etmiş və bununla da ölkəmizin suverenliyi, müstəqilliyi və Qarabağ da daxil olmaqla, ərazi bütövlüyü rəsmi qaydada dünya birliyi tərəfindən tanınmışdır. Lakin öz çirkin əməllərindən və mənfur planlarından əl çəkməyən Ermənistan öz havadarlarının dəstəyi ilə 1992-ci il may ayının 8-də strateji cəhətdən əhəmiyyətli Şuşa şəhərini, on gün sonra isə Laçın rayonunu işğal etmişdi.

1993-cü ildə Azərbaycandakı böhrandan istifadə edən Ermənistanın terrorçu-silahlı birləşmələrinin irəliləməsinin səbəbi ona havadarlıq edənlərin gücünə arxalanması, eləcə də respublikamızda nizami ordu quruculuğunun çox ləng aparılması, ölkənin pis silahlanmış könüllülər və az sayda təcrübəli zabitlər tərəfindən müdafiə edilməsi idi. Ovaxtkı rəhbərliyin səriştəsizliyi, xəyanət, hökm sürən hərc-mərclik, vətəndaş müharibəsi təhlükəsi, ordunun başsız qalması, yaradılmaqda olan silahlı qüvvələr arasındakı mərkəzləşdirilmiş əlaqənin zəifliyi nəticəsində düşmən tərəfindən Azərbaycanın Qarabağ bölgəsi və ətraf yeddi rayonun ərazisi bir-birinin ardınca işğal edilmiş, əhalisinin bir hissəsi əsir alınmış, vəhşicəsinə qətlə yetirilmiş, öz doğma torpaqlarından qaçqın və didərgin düşmüşdü. 1993-cü il iyulun 23-də Ağdam şəhəri, avqustun 23-də Cəbrayıl və Füzuli, avqustun 31-də Qubadlı, oktyabrın 30-da isə Zəngilan rayonları işğal olunmuşdu. Azərbaycan Respublikası məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı.

Müdrik Azərbaycan xalqı taleyinin həll olunduğu həmin ağır sınaq günlərində öz qurtuluşu və nicatı üçün düzgün tarixi qərar verərək təkid və israrla dünya şöhrətli siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə gəlməsini tələb etmişdi.

Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi və təşkilatçılıq bacarığı, qətiyyətli və ardıcıl siyasəti sayəsində respublikada vətəndaş müharibəsinin, qardaş qırğınının qarşısı alınmış, qısa müddət ərzində ictimai-siyasi sabitlik bərqərar olmuş, iqtisadi dirçəlişin əsası qoyulmuş, ordu quruculuğuna yeni məzmun verilmiş, müasir və nizami ordunun yaradılmasına başlanılmışdı.

Dahi rəhbər yaranmış vəziyyətin tezliklə aradan qaldırılması üçün 2 noyabr 1993-cü il tarixli müraciətində qeyd edirdi ki, Azərbaycanın gələcək taleyi, onun mövcud olub-olmayacağı xalqın öz əlindədir. İşğal edilmiş Azərbaycan torpaqlarını da azərbaycanlılardan başqa,





kimsə azad etməyəcəkdir: "Hər bir vətəndaş, hər bir azərbaycanlı hiss etməlidir ki, indi vətəni qorumaq üçün hərə öz payını verməlidir, hərə öz yerini tapmalıdır. İndi hər kəs müsəlləh əsgər olmalıdır. Bundan artıq vəzifə yoxdur".

Dərhal sonra vətənpərvər könüllülər ölkənin müdafiəsi üçün birləşmişdilər. Ümummilli Liderin Ali Baş Komandan kimi rəhbərliyi və səyləri sayəsində ordumuz mühüm nailiyyətlər əldə etməyə başlamış, düşmənin yeni ərazilər işğal etməsinin qarşısı alınmışdı. Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatları nəticəsində Füzuli rayonunun 22 yaşayış məntəqəsi və böyük strateji əhəmiyyətə malik olan Horadiz qəsəbəsi, Cəbrayıl və Kəlbəcər rayonlarının bir neçə kəndi düşməndən azad edilmişdi.

Ordumuzun qətiyyətli müqaviməti ilə qarşılaşan düşmən 1994-cü il mayın 12-də atəşkəs istəmiş və bu barədə razılıq əldə olunmuşdu. Lakin bu vaxta qədər Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının faktiki olaraq 20 faiz ərazisi – Xankəndi şəhəri, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları, həmçinin Tərtər rayonunun 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun isə 1 kəndi işğal olunmuşdu.

Ermənistanın qəsbkarlıq və terrorçuluq siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurdundan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, 20 mindən çox hərbçimiz və mülki vətəndaşımız öldürülmüş, 50 min nəfərdən çoxu isə əlil olmuşdu.

Qarabağ müharibəsi başlayandan ermənilər işğal etdikləri ərazilərdə azərbaycanlılara qarşı qətliamlar törətmiş, xalqımızın minilliklər boyu bu torpaqlarda qurub-yaratdığı mədəni irsi talan etmiş, tarixi-dini abidələri dağıtmış və məhv etmişlər. Bütün bunlar beynəlxalq hüquqla – genosid, urbisid və ekosid cinayətləridir. Dünyada baş vermiş müharibələrdə dağıntılar, maddi-mənəvi abidələrin məhv edilməsi, təbiətə ziyan vurulması hallarına rast gəlinmiş, lakin ən böyük itkilər insan ölümü ilə bağlı olmuşdur. Qarabağ müharibəsində xalqımızın mərd oğul və qızları Vətən uğrunda canlarını fəda edərək şəhidlik zirvəsinə ucalmışlar.

Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin hazırda tabeliyində olan müxtəlif qurumların çox sayda işçisi də silaha sarılaraq Birinci Qarabağ müharibəsində canları və qanları bahasına doğma Vətənin müdafiəsində fədakarlıq, cəsarət və rəşadət nümunələri göstərmişlər. Onlardan 29 nəfəri qəhrəmancasına həlak olaraq şəhidlik zirvəsinə yüksəlmişlər.

Vətən igidləri ilə tanınar. Müqəddəs amal uğrunda vuruşub tarix yazan, düşmənin qarşısında sinəsini sipər edib ölkəsinə göz dikmələrinə izin verməyən məğrur igidləri ilə!

Tariximizə öz adlarını əbədi həkk edən cəsur və qorxmaz Vətən övladlarını hər birimiz tanımalı və onların örnək həyatını gələcək nəsillərə çatdırmalıyıq.

# MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİNİN BİRİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ ŞƏHİDLİK ZİRVƏSİNƏ UCALMIŞ ƏMƏKDAŞLARI

Abbasov Rasim Fəxrəddin oğlu
Ağabalayev Mikayıl Hümbət oğlu
Ağayev Mircəlal Sabir oğlu
Ağayev Rüstəm Ramazan oğlu
Aşumov Emil Məmmədrza oğlu
Baxşıyev Əhməd Ataxan oğlu
Cəfərov Əli Hikmət oğlu
Ələkbərov Rasim Şəmistan oğlu
Ələkbərov Fərman Qulu oğlu
Əsədov Mübariz Əliyar oğlu
Əsədov Rafət Məmməd oğlu
Əyyubov Kamil Baba oğlu
Həsənov Azər Cəmil oğlu
Hüseynov Əhməd Vəli oğlu
Xudiyev Füzuli Cəmil oğlu
İmanov Rasim Hənifə oğlu
Quliyev Əmirəhməd Ağadayı oğlu
Mahmudov Vəli Nuruş oğlu
Məmmədov Barat Məhəmməd oğlu
Məmmədov Bayram Həsən oğlu
Məmmədov Heydər Bülhan oğlu
Məmmədov Kamil Kamal oğlu
Mirzəyev Abdulla Eyvazəli oğlu
Nəbiyev Almaz Bayram oğlu
Nəcəfov Alim Vahəddin oğlu
Novruzov Natiq Fəxrəddin oğlu
Ocaqverdiyev Sərxan Surxay oğlu
Rəhimov Əvəz Hüseynqulu oğlu
Tahirov Vaqif Sabir oğlu



# MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİNİN BİRİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ İŞTİRAK ETMİŞ VƏ HAZIRDA NAZİRLİKDƏ ÇALIŞAN ƏMƏKDAŞLARI

Abbasov Elmar Dünyadur oğlu
Abbasov Kamil İlyas oğlu
Abbasov Sabir Əli oğlu
Abdullayev Dövlət Qəni oğlu
Abdullayev Xəlil Nadir oğlu
Abdullayev Rafət Yədulla oğlu
Abdulov Orxan Şıxı oğlu
Ağayev Elnur Baxşəli oğlu
Allahverdiyev Natiq Yaşar oğlu
Aslanov Camaləddin Firudin oğlu
Aydınov Tofik Sədrəddin oğlu
Babayev Bəxtiyar İkram oğlu
Balabəyov Faiq Murtaza oğlu
Baxışov İlqar Ələsgər oğlu
Baxışov Mehman Abbas oğlu
Bayramov Aqil Çingiz oğlu
Bayramov Ceyhun Əlif oğlu
Bayram Firudin İsax oğlu
Beybutov Rəşid Zaman oğlu
Binnətov Sübhan Yolçu oğlu
Cəlilov Sadiq Cəlil oğlu
Çodarov Rəhim Həsən oğlu
Davudov Əvəz Aydın oğlu
Eminov Elfan Qasım oğlu
Əbilov Nazim Ağacan oğlu
Əbilov Qabil Fərzulla oğlu
Əhmədov Nazim Cəmil oğlu
Əhmədov Nurəddin Təsən oğlu
Əkbərov Şahin Əliağa oğlu
Əliyev Asif Muxtar oğlu
Əliyev Ayaz Hüseyn oğlu
Əliyev Çingiz Sabir oğlu
Əliyev Həsən Abdullətif oğlu
Əliyev Kamil Hüseyn oğlu
Əliyev Nadir Əli oğlu
Əliyev Murazəli Fərrux oğlu
Əliyev Fəxrəddin Salam oğlu
Əliyev Oruc Qurban oğlu
Əliyev Vahid Səfər oğlu
Əliyev Zaur Aydın oğlu
Əmirov Məhəmməd Amil oğlu
Əmirov Namiq Rahib oğlu





Əmrahov Valeh Sərbaz oğlu
Əsədov Elxan Ümüd oğlu
Əsədov Feyruz Zəfər oğlu
Əzizov Zəfər Qarakişi oğlu
Fəttahov Firuz Mirzəağa oğlu
Hacıyev Rauf Ramiz oğlu
Hadıyev Salam Ədyar oğlu
Haqverdiyev Fədail Murad oğlu
Heybətov Hümbət Saleh oğlu
Həmidov Sehran Qədiməli oğlu
Həsənov Elçin Məhiyəddin oğlu
Həsənov Firdovsi Səfər oğlu
Həsənov Güloğlan Fərrux oğlu
Həsənov Yaşar Rəhim oğlu
Hümmətov Elsevər İslam oğlu
Hüseynov Əli Hüseyn Zaur oğlu
Hüseynov İnqilab Eldar oğlu
Hüseynov Rasim Musa oğlu
Hüseynov Rövşən Fehruz oğlu
Xəlilov Xaləddin Qanboy oğlu
Xəlilov Qulu Füzuli oğlu
Xudayarov Arzu Məmməd oğlu
İbrahimov Elsevər Gözəl oğlu
İbrahimov Fuad Feyruz oğlu
İbrahimov İnqlab Əfqan oğlu
İbrahimov İqbal İlyas oğlu
İmranov Yaşar Qaraca oğlu
İsayev Elçin Ağamirzə oğlu
İsayev Xaqani Şahbəddin oğlu
İsmayılov Adil Balaş oğlu
İsmayılov Cəfər Əbdülvahab oğlu
İsmayılov Ərəstun Aydın oğlu
İsmayılov Əşrəf Əkbər oğlu
İsmayılov Mehman Əlisurət oğlu
İsmayılov Zahid Rüstəm oğlu
Kazımov Zeynal Əbülfəz oğlu
Qafarov Saleh Səlim oğlu
Qasımov Gəray Qaçay oğlu
Qədirov Sadiq Ələskər oğlu
Qədirov Salman Üzeyir oğlu
Quliyev Əhliyyət Fərrux oğlu
Quliyev Mədət Qəzənfər oğlu
Quliyev Səhrəddin İsfəndiyar oğlu
Qurbanov Canpolad Mikayıl oğlu
Qurbanov Zakir Şamil oğlu
Mahmudov Mətləb Vəli oğlu
Mahmudov Polad Ənnağı oğlu
Manaflı Müseyib Rişad oğlu
Mehdiyev Ağabala Həşim oğlu
Mehtiyev Emin Ələkbər oğlu
Məmmədov Elçin Səfərəli oğlu
Məmmədov Əbülfət Göyüş oğlu
Məmmədov Əli Qulam oğlu
Məmmədov Əli Əliqulu oğlu
Məmmədov Fəxrəddin Arif oğlu
Məmmədov Qüdrət Məmməd oğlu
Məmmədov Oqtay Rza oğlu
Məmmədov Ramiz Cəmil oğlu
Məmmədov Ramiz Fəsi oğlu
Məmmədov Rizvan Əli oğlu
Məmmədov Rüfət Əhməd oğlu
Məmmədov Vahid Nəriman oğlu
Məmmədzadə Camal İltifat oğlu
Mirəliyev Famil İslam oğlu
Mirzəyev İlham Hüseynağa oğlu
Muradov Eyvaz Ələstan oğlu

Muradov Kərəm Qarakişi oğlu
Muradov Şahlar Şahmurad oğlu
Musayev Vaqif Yasin oğlu
Musayev Valeh Xəlil oğlu
Mustafayev Sabit Mütəllim oğlu
Novruzov Salman Camal oğlu
Ocaqquliyev Elşad Əli oğlu
Primov Rasim Abbasəli oğlu
Rəhimov Əlifağa Nəbi oğlu
Rəsulov Rövşən Alyoşa oğlu
Sadatov Müzəffər Əlibala oğlu
Salayev Əli Ziyatxan oğlu
Salmanov Salman Sarvan oğlu
Samullayev Nurulla Bayram oğlu
Səfərov Babək Şakir oğlu
Səfərov Saməddin Sabir oğlu
Sərdərlı Cahid Yaqub oğlu
Səlimov Ceyhun Möhübbət oğlu
Sultanov Rövşən Vəlibəy oğlu
Süleymanov Xaləddin İbrahim oğlu
Süleymanov Səbuhi Əhməd oğlu
Şəmiyev Vahid Bayram oğlu
Şərifov Sucəddin Baxşı oğlu
Tahirov Aqil Bəşir oğlu
Vəliyev Namiq Paşa oğlu
Vəliyev Samir Tahir oğlu
Yahyayev Arif Xeyrulla oğlu
Zeynalov Rəfail Zeynal oğlu
Zəkəryəyev Həsən İskəndər oğlu



# BÖYÜK ZƏFƏRƏ GEDƏN YOL

1994-cü ildə Qarabağ müharibəsində atəşkəs imzalansa da, ermənilər cinayətkar əməllərini davam etdirir, cəbhə xəttində tez-tez gərginlik yaradır, təxribatlar törədirdilər. Azərbaycan xalqı torpaqlarının itirilməsi ilə heç vaxt barışmamışdı. Dövlətin iqtisadi-hərbi gücün artırılması istiqamətində gerçəkləşdirdiyi uğurlu strategiya ilə yanaşı, həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində canını Vətənə fəda etməyə hazır yeni nəsil, vətənpərvər gənclər yetişmişdi.

2016-cı il aprelin 1-də Ermənistan silahlı qüvvələri təxribatçı əməllərini davam etdirərək atəşkəsi mütəmadi pozmaqla təmas xətti boyunca Azərbaycanın hərbi mövqelərini və mülki yaşayış məntəqələrini atəşə tutmuşdu. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuz tərəfindən düşmənin bu təxribatlarının da qarşısı peşəkarlıqla alınmışdı. Aprel döyüşləri Azərbaycan Ordusunun qələbəsi ilə başa çatmış, nəticədə Tərtər rayonunun Talış kəndi ətrafındakı strateji yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı kəndi, Goranboy rayonunun Gülüstan kəndi, həmçinin Tərtər rayonunun Madagiz kəndi istiqamətində bir sıra əlverişli mövqelər, ümumilikdə iki min hektardan artıq mühüm hərbi əhəmiyyət kəsb edən ərazi düşməndən azad olunmuşdu.

2018-ci ilin may ayında ermənilərin növbəti təxribatlarına cavab olaraq, Azərbaycan Müdafiə Nazirliyinin Əlahiddə Ümumqoşun Ordusu əks həmlə edərək Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun 26 il işğal altında olan Günnüt kəndini və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəklikləri işğaldan azad etmişdi. Azərbaycan əsgəri və zabiti Ali Baş Komandanın rəhbərliyi altında növbəti dəfə "Günnüt əməliyyatı" ilə düşmənə öz gücünü göstərmişdi.

Xalqın səbir kasasını dolduran son hadisələr isə ölkəmizi daha mühüm addımlar atmağa sövq etmişdi. 2019-cu ildə Ermənistan baş nazirinin "Dağlıq Qarabağ Ermənistandır və nöqtə" kimi sərsəm bəyanatlar verməsi, daha sonra bu ölkənin ozamankı müdafiə nazirinin Nyu-Yorkda səfərdə olarkən "yeni ərazilər üçün yeni müharibələr" strategiyasını elan etməsi, həmçinin işğal olunmuş ərazilərimizdə qanunsuz məskunlaşdırma siyasətinin həyata keçirilməsi və buradakı qondarma rejimin "mühüm inzibati idarələri"ni qəsb edilmiş Şuşa şəhərinə köçürmək niyyəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin danışıqlar prosesi əsasında nizamlanması imkanlarını heçə endirmişdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2019-cu il oktyabrın 3-də nüfuzlu "Valday" Beynəlxalq Diskussiya Klubunda çıxışı zamanı Qarabağın tarixi və əzəli Azərbaycan torpağı olduğunu bildirərək "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı ilə dövlətimizin ərazi bütövlüyünü təmin etməkdə qətiyyətli mövqeyini bir daha bütün dünyaya nümayiş etdirmişdi.

Ermənistan silahlı qüvvələrinin bölmələri 2020-ci ilin iyul ayında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində əlverişli mövqeləri ələ keçirmək məqsədilə artilleriya atəşindən istifadə edərək hücuma cəhd göstərsə də, istədiklərinə nail ola bilməmişdi. Tovuz döyüşlərində Azərbaycan Ordusunun hərbi qulluqçuları qəhrəmanlıq və rəşadət nümunələri göstərərək, erməni işğalçılarının təxribatlarının qarşısını qətiyyətlə almışdılar. Lakin bu döyüşlər zamanı vətənin mərd, vətənsevər oğulları – general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev və ordumuzun daha bir neçə cəsur zabit və əsgəri şəhidlik zirvəsinə ucalmışdı.





2020-ci il sentyabrın 27-də Ermənistanın silahlı birləşmələri yenidən bütün təmas xətti boyunca Azərbaycan Ordusunun mövqelərini və cəbhə xətti yaxınlığındakı mülki yaşayış obyektlərini artilleriya və digər ağır silahlardan atəşə tutdu. Nəticədə, hərbçilərimiz və mülki şəxslər, o cümlədən iki uşaq həlak olmuşdu. Düşmənin hərbi təxribatlarını dəf etmək və hərbi təcavüzünə son qoymaq məqsədilə Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu bütün cəbhə boyu "Dəmir yumruq" əks-hücum əməliyyatına başlamışdı.

Çağdaş tarixə qızıl hərflərlə əbədi həkk olan 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Ordusu dünya hərb sənətinin ən ümdə üstünlüklərini və beşinci nəsil müharibə üsullarını məharətlə və yüksək peşəkarlıqla tətbiq edərək Böyük Zəfər qazanmışdı. Bir neçə ilə işğal olunan torpaqlarımızı azad edərkən Ordumuz bir addım geri çəkilmədən, hər gün davamlı hücumlar edərək düşməni qovmağa nail olmuşdu. Əvvəlcə bir sıra strateji mövqelər, şəhərlər, kəndlər və mühüm əhəmiyyətli logistik infrastrukturlar, oktyabrın 22-də isə dövlət sərhədinin 132 kilometrlik cənub hissəsi tamamilə işğaldan azad edilmişdi.

BMT Təhlükəsizlik Şurasının Ermənistanın qəsb etdiyi Azərbaycan ərazilərini azad etməsini tələb edən, lakin 30 ilə yaxın bir müddətdə kağız üzərində qalan dörd qətnaməsinin icrasını Azərbaycan özü gerçəkləşdirmişdi. Beynəlxalq hüquqa əsaslanaraq aparılan hərbi əməliyyatları daha effektiv edən, əsgər və zabitlərimizin verdikləri qan mücadiləsi ilə paralel, Azərbaycanın haqlı mövqeyini gücləndirən diplomatiya və informasiya mübarizəsində Prezident İlham Əliyevin liderlik xarizması, qətiyyəti və siyasi iradəyə malik müdrik dövlət başçısı kimi xalqın sonsuz rəğbətini qazanmış xarakterik cəhətləri özünü bir daha parlaq nümayiş etdirmişdi. Azərbaycan həqiqətlərini, xalqının haqq səsini dünya ictimaiyyətinə çatdıran dövlətimizin başçısı hər dəfə müxtəlif ölkələrin nüfuzlu kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrdə erməni təcavüzü və fəsadlarını, yalanlarını, saxtakarlıqlarını tam çılpaqlığı ilə ifşa etmiş, faktlarla üzə çıxarmış, bu istiqamətdə də ölkəmizi durmadan qalibiyyət zirvəsinə çatdırmışdı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan tarixində əbədi qalacaq bir Zəfərin müəllifidir. Ali Baş Komandanın yüksək sərkərdəlik məharəti, qətiyyəti, Müzəffər Azərbaycan Ordusunun şücaəti, xalqın Ali Baş Komandana olan sonsuz inamı və onun ətrafında sıx birləşməsi nəticəsində böyük şanlı Qələbə qazanıldı, Azərbaycanın timsalında dünyada haqqın və ədalətin bərpasının yeni təcəssümü bərqərar oldu.

Torpaqlarımızın düşmən tapdağından qurtarılmasında yüksək peşəkarlıq nümayiş etdirən əsgər və zabitlərimizlə yanaşı, ordumuzun müasir silah-sursat və hərbi texnika ilə təchiz olunmasının da müstəsna rolu olmuşdu. Azərbaycan Ordusu aviasiya, artilleriya, minaatan, hətta birbaşa atəş və ya idarə olunan raketlərlə Ermənistan ordusuna sarsıdıcı zərbələr endirmiş, xüsusən Pilotsuz Uçuş Aparatlarının (PUA) köməyi ilə hava hücumundan müdafiə sistemlərini sıradan çıxarmış, beləliklə, düşməni darmadağın etmiş və diz çökdürmüşdü. Ali Baş Komandanın fəhmi və qətiyyətli sərkərdəliyi, zabit və əsgərlərimizin yenilməz döyüş ruhu, fədakarlığı və qəhrəmanlığı, ordumuzun peşəkarlıqla həyata keçirdiyi hərbi-texniki döyüş taktikası nəticəsində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və 8 noyabrda Qarabağın tacı – Şuşa şəhəri işğaldan azad edilmişdi.

Azərbaycanın zabit və əsgərinin müharibədə göstərdiyi şücaətin və fədakarlığın ən bariz və parlaq nümunəsi Şuşa əməliyyatıdır. Şuşanın azad edilməsinin həm hərbi-strateji, həm də mənəvi



Lələtəpə yüksəkliyi

əhəmiyyəti böyük idi. Ulu öndər Heydər Əliyev daim Şuşa ilə bağlı arzularını dilə gətirirdi: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya, gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür. Hər bir azərbaycanlı üçün bir iftixar nöqtəsidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir". Ali Baş Komandan cənab İlham Əliyev Ulu Öndərin bu istəyini, muradını, bütün azərbaycanlıların vazkeçilməz amalını reallaşdırdı və bunu iftixarla hər kəsə bəyan etdi: "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şəhidlərin, Ulu Öndərin ruhu şaddır...".

Bütün dünya Azərbaycan Ordusunun Qarabağın döyünən ürəyi Şuşaya PUA-lardan, tanklardan, artilleriyadan istifadə etmədən necə daxil olduğundan danışır. Qəhrəman əsgər və zabitlərimiz yüngül silahlarla sıx meşələrdən, dərin dərələrdən, dağlardan keçərək, sıldırım qayalara dırmaşaraq düşməni üzbəüz döyüşdə məhv etmişdi.

44 gün davam edən Vətən müharibəsində dilindən, dinindən, milliyyətindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşları azğın düşmənə qarşı "Dəmir yumruq" ətrafında birləşmişdilər. Azərbaycan əsgəri misli görünməmiş iradə, şücaət, fədakarlıq və əzmkarlıq nümunələri göstərərək tarix yazmış, dastana dönmüşdür. Bütün bunlar Azərbaycan xalqını qaliblər sırasına yüksəltmiş, dünyada söz sahibinə çevirmişdi. Ölkəmizə qarşı münasibətin dəyişməsinə, hər yerdə xalqımıza açıq-aşkar rəğbət və hörmət hissinin daha da artmasına səbəb olmuşdu.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tariximizin ən möhtəşəm səhifələrindən birini yazmışdır. Xalqımızın yaddaşına qızıl hərflərlə yazılan bu Qələbə işğalçılığı dövlət siyasətinə çevirən Ermənistanın təslim olması ilə nəticələnmişdi. 2020-ci il noyabrın 10-da "Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatı" qəbul edilmişdi. Ermənistan öz tarixindən heç vaxt silinməyəcək və daim bu ölkənin revanşist qüvvələrinə bir dərs olacaq kapitulyasiya aktını imzalamışdı. Dövlətimizin başçısının müdrikliyi, hərbi-siyasi və diplomatik məharəti nəticəsində Qarabağın mürəkkəb coğrafi relyefə malik əraziləri – Ağdam, Kəlbəcər və Laçın rayonları Ermənistan tərəfindən döyüşsüz təhvil verilmişdi. Bununla da Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulmuşdu, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdi.

Vətən müharibəsində Azərbaycan nəyə qadir olduğunu bütün cahana göstərdi, tarixi ədaləti bərpa etdi. Azərbaycan Ordusu Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında şanlı





salnamə yaratdı. Torpaqlarımız işğaldan azad olunduqdan sonra dövlətimizin başçısının göstərişi ilə ermənilər tərəfindən xarabalığa çevrilmiş ərazilərdə genişmiqyaslı bərpa, quruculuq və abadlıq işlərinə start verilmişdi, bu istiqamətdə mühüm qərarlar qəbul edilmişdi. Ölkə Prezidentinin müvafiq fərmanı ilə Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonlarından ibarət Qarabağ iqtisadi rayonu, həmçinin Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonlarının daxil olduğu Şərqi Zəngəzur iqtisadi rayonu yaradılmışdı.

Səfərləri zamanı ictimaiyyət nümayəndələri ilə görüşlərində bir çox məsələlərə, xüsusilə bu ərazilərdə erməni vandallarının törətdikləri vəhşilik və dağıntılara toxunan dövlətimizin başçısı cənab İlham Əliyev: "Bütün şəhərlərimizi bərpa edəcəyik, daha da gözəl şəhərlər olacaqdır. Şəhərlərimizdə qalan tarixi abidələri bərpa edəcəyik və bir daha gücümüzü göstərəcəyik", – demişdi. Erməni işğalçıları tərəfindən dağıdılmış şəhər və kəndlərimizin ən müasir texnologiyalara əsaslanan "Ağıllı kənd", "Ağıllı şəhər" konsepsiyaları əsasında bərpa olunacağını bəyan etmişdi.

Zəfər yolu, eləcə də digər istiqamətlərdə müxtəlif avtomobil və dəmir yolları, nəqliyyat-kommunikasiya şəbəkələri, mühüm infrastruktur obyektləri, həmçinin xüsusi əhəmiyyət kəsb edən Qarabağın hava qapısı – Füzuli Hava Limanı istifadəyə verilmişdi.

Xalqımız əmindir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mütəmadi olaraq işğaldan azad edilmiş ərazilərə səfərləri və gördükləri işlər sayəsində Qarabağ dünyanın ən inkişaf etmiş bölgələrindən birinə çevriləcəkdir.

Vətən müharibəsi zamanı Azərbaycan Ordusu şəhidlər vermişdir. Bu vətənin azadlığını, bütövlüyünü, xalqın şərəfini hər şeydən uca tutan qəhrəmanlarımız bir an belə düşünmədən canlarını fəda etmişlər. Torpaqlarımızın azadlığı uğrunda gedən savaşlar göstərdi ki, Azərbaycan, doğrudan da, qəhrəmanlar diyarı, igidlər və cəsurlar məskənidir. Müharibədə iştirak edən hər bir əsgər, hər bir zabit Vətənini təmənnasız sevmək və uğrunda gözqırpmadan həyatını qurban verərək, əsl qəhrəmanlıq nümunəsinə çevrilmişlər. Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə torpaqlarımızın işğaldan azad edilməsində, ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığı və təhlükəsizliyinin təmin olunmasında xüsusi xidmətləri olan hər bir vətən övladı fəxri adlara layiq görülmüş, yüksək dövlət təltifləri ilə mükafatlandırılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən Azərbaycan uğrunda canlarını fəda etmiş Vətən övladlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə böyük dövlət proqramları həyata keçirilir, şəhidlərin ailələrinə, bütün müharibə iştirakçılarına və yaxınlarına hərtərəfli diqqət və qayğı göstərilir.

Vətən müharibəsində Azərbaycanın qazandığı şanlı Qələbədə Müdafiə Sənayesi Nazirliyinin əməkdaşları da qəhrəmanlıq, igidlik və fədakarlıq nümunələri nümayiş etdirmişlər. Nazirliyin 72 əməkdaşı cəbhənin müxtəlif istiqamətlərində gedən ağır döyüşlərdə rəşadətlə iştirak etmiş və tarixi Zəfərimizə öz canları və qanları ilə layiqli töhfələrini vermişlər. Onlardan Ağa Əmi Heybətov, Nurlan Zeynalov və Nicat Hüseynov torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalmış, 7 əməkdaş isə yaralanaraq qazi olmuşdu.

Vətəni, bu torpağı minilliklərlə canı və qanı bahasına qoruyub bizlərə əmanət edən ərən dədə-babalarımızın, qəhrəman şəhidlərimizin ruhu indi şaddır. Ana yurdu yağı düşməndən azad edən cəsur igidlərimiz də sevinclidirlər. Bizlər və gələcək nəsillər onların bu fədakarlıqlarını heç vaxt unutmamalı və unutdurmamalıyıq!

# BİZİM İŞİMİZ HAQQ İŞİDİR! BİZ ZƏFƏR ÇALACAĞIQ!



Virtual keçid

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEVİN XALQA MÜRACİƏTİ

27.09.2021

– Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutmuşdur.

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür.

Son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter almışdır. İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində yenə də artilleriya atəşi nəticəsində hərbçilərimiz və bir mülki şəxs həlak olmuşdur. Heç kəsə sirr deyil ki, ilk atəşi, o cümlədən artilleriya atəşini Ermənistan açıbdır və ilk həlak olanlar da məhz Azərbaycan hərbçiləri olmuşdur. Azərbaycan düşmənə layiqli cavabını verdi və düşmən bir santimetr irəliyə gedə bilmədi. Düşmən dayandırıldı, ölkəmizin ərazi bütövlüyü qorundu. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı. Mən bu barədə demişəm, bir daha demək istəyirəm, əgər bizim istəyimiz olsaydı, hərbi döyüşləri Ermənistan ərazisinə keçirə bilərdik. Ancaq bizim Ermənistan ərazisində hərbi hədəflərimiz yoxdur və belə olan halda bir neçə gündən sonra atəş dayandırılmışdır.

Ermənistan bu təxribatı törətməklə hansı məqsədi güdürdü? İlk növbədə, Azərbaycan torpaqlarının işğalı onların planındadır və onlar bunu gizlətmirlər. Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olub. Məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar, faktiki olaraq, dayanıbdır. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir.

İyul ayında Azərbaycan düşmənə layiqli cavabını verdi, öz ərazi bütövlüyünü qorudu və bir daha göstərdi ki, Azərbaycanla hədə-qorxu dili ilə danışan bundan peşman olacaqdır. Əfsuslar ki, bu onlar üçün dərs olmadı. Halbuki mən iyul təxribatından sonra demişdim ki, Ermənistanın bu acı məğlubiyyəti onlar üçün dərs olmalıdır.

Avqust ayında Ermənistan növbəti hərbi təxribata əl atdı. Bu dəfə Azərbaycana diversiya qrupu göndərilmişdir. Diversiya qrupunun başçısı Azərbaycan hərbçiləri tərəfindən saxlanılmışdır və hazırda ifadələr verir. Bu ifadələrdə açıq-aydın göstərilir ki, bu planlaşdırıl-

mış təxribatçı diversiya qrupu Azərbaycana terror aktları törətmək üçün gəlmişdir. Mülki əhaliyə və hərbçilərimizə qarşı növbəti hərbi təxribat bu gün Ermənistan tərəfindən törədildi və qeyd etdiyim kimi, bu dəfə də onlar öz cəzasını alıblar və alacaqlar.

Ermənistanın təxribatları eyni zamanda Ermənistan rəhbərliyi tərəfindən verilən bəyanatlarda da öz əksini tapır. Ermənistanın Baş naziri bir il bundan əvvəl işğal edilmiş torpaqlarda – Xankəndidə demişdir ki: "Qarabağ Ermənistandır və nöqtə". Birincisi bu, yalandır, Qarabağ Azərbaycandır və mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə bildirmişəm. Qarabağ Azərbaycandır və nida işarəsi. İkincisi, bu təxribat xarakterli bəyanat faktiki olaraq, danışıqlar prosesinə vurulan böyük zərbə idi. Əgər Ermənistanın Baş naziri deyirsə ki, "Qarabağ Ermənistandır", onda hansı danışıqlardan söhbət gedə bilər?! Bununla paralel olaraq, Ermənistanın rəhbərliyi artıq iki il ərzində dəfələrlə bəyan edir ki, Azərbaycan Ermənistanla yox, qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Bu da danışıqlar prosesinə vurulan böyük zərbədir. İlk növbədə, Azərbaycan heç vaxt oyuncaq xunta rejimi ilə hər hansı bir danışıqlar aparmayacaq. İkincisi, danışıqlar formatını dəyişdirmək cəhdləri bir daha onu göstərir ki, Ermənistanın əsas məqsədi danışıqları pozmaq və status-kvonu saxlamaqdır. Halbuki ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbul edilməzdir və bu o deməkdir ki, işğala son qoyulmalıdır.

Ermənistanın bizə qarşı təxribatları bu faktlarla bitmir. Bu yaxınlarda bizim qədim Azərbaycanın qədim şəhəri olan Şuşada qondarma kriminal xunta rejiminin başçısının "andiçmə" mərasimi keçirilmişdir. Bu, təxribat deyilmi? Bu bizə qarşı təhqirdir. Onlar hesab edirdilər ki, biz bu təhqirlə barışacağıq, razılaşacağıq. Onlar bizi şüurlu şəkildə təxribatlara çəkirlər və bunun acı nəticələrini görəcəklər.

Bu yaxınlarda qondarma "Dağlıq Qarabağ respublikası" parlamentinin qədim Azərbaycan şəhəri – Şuşaya köçürülməsi haqqında qərar qəbul edildi. Bu, növbəti təxribatdır. Bu yaxınlarda Ermənistanın Baş naziri bəyan etmişdir ki, on minlərlə insanı birləşdirən "könüllü" hərbi birləşmələr yaradılacaqdır. Bu nə üçün lazımdır? Bunlar kimə qarşı vuruşacaqlar? Bu, Azərbaycana qarşı bu gün törədilən təxribatın hazırlıq mərhələsi idi. Mən artıq bir neçə dəfə demişdim, o cümlədən bu yaxınlarda BMT kürsüsündən demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır və dayandırılacaqdır.

Ermənistan işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma siyasəti aparır. Bu yaxınlarda Livan ermənilərindən ibarət bir neçə ailə Dağlıq Qarabağa, o cümlədən Azərbaycanın qədim şəhəri olan Şuşaya yerləşdirildi. Bu, hərbi cinayətdir. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir. Bu cinayətə görə, Ermənistan cavab verəcəkdir. Bu bizə qarşı növbəti təxribatdır. İşğal edilmiş torpaqlarda məskunlaşma aparmaq cinayət hesab olunur və bu siyasət Ermənistan tərəfindən uzun illər ərzində aparılır. İş burasındadır ki, Ermənistanda mövcud olan ağır iqtisadi, siyasi və sosial vəziyyətə görə, ölkə əhalisi azalır. Ermənistanda demoqrafik böhran yaşanır və onlarda insan resursları yoxdur ki, işğal edilmiş torpaqlarda öz adamlarını yerləşdirsinlər. Ona görə xaricdə yaşayan ermənilərə ümid edirlər.





Hazırda bu siyasət davam etdirilir. Bununla paralel olaraq, bizdə olan dəqiq məlumata görə, bizim işğal edilmiş bəzi ərazilərimizdə Ermənistan qanunsuz məskunlaşma aparıbdır. Bizim rayonlarımızın, kəndlərimizin adları dəyişdirilir. Azərbaycanlıların tarixi irsi silinir. Bizim tarixi abidələrimiz dağıdılır. Azərbaycan məscidləri dağıdılır, təhqir edilir. Bizim məscidlərimizdə Ermənistan inək, donuz saxlayır. Bu bütün müsəlman aləminə ən böyük təhqirdir. Bizim əcdadlarımızın qəbirləri traktorla dağıdılır. Bunu edən faşistlərdir, vandallardır, vəhşilərdir.

Eyni zamanda işğal edilmiş torpaqlarda bu yaxınlarda keçirilmiş hərbi təlimlər bizim üçün Ermənistanın növbəti təxribatı sayılmalıdır. Çünki bu təlimlərin bir məqsədi var: Azərbaycana hücum etmək, mülki əhalini atəşə tutmaq və yeni torpaqları işğal etmək! Sadaladığım bütün faktlar bir daha onu göstərir ki, bu gün regionda təhlükə mənbəyi Ermənistandır və onun çirkin siyasətidir.

Azərbaycan heç bir təxribata əl atmamışdır. Azərbaycan, sadəcə olaraq, öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır. Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın Baş naziri deyəndə, "Qarabağ Ermənistandır", bu, yalandır. Mən deyəndə ki, "Qarabağ Azərbaycandır", bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Otuz ilə yaxındır ki, bu qətnamələr kağız üzərində qalır. Otuz ilə yaxındır ki, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıbdır. BMT-dən başqa bütün digər aparıcı beynəlxalq təşkilatlar bizim haqlı mövqeyimizi müdafiə edir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır ki, bu gün Azərbaycan bu təsisata sədrlik edir. Onlar münaqişə ilə bağlı ədalətli qətnamə qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı ədalətli qətnamələr qəbul etmişdir. ATƏT-in qərarları, Avropa Parlamentinin qətnamələri bizim mövqeyimizi dəstəkləyir. Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!




CNN










QƏHRƏMANLARI OLAN VƏTƏNİN BAYRAĞI ENMƏZ!

*Qələbəni biz şəhidlərimizin qanı hesabına qazanmışıq. Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, yaşayacaq. Allah sizə səbir versin. Siz analar, atalar xalqımız üçün, dövləti-miz üçün gözəl insanlar yetişdirmisiniz. O insanların ömrü uzun olmadı, amma onlar əbədiyyətə qovuşdu və onlar öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırdı.*

**İlham ƏLİYEV**
*Azərbaycan Respublikasının Prezidenti*



*Biz Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacağıq. Onlar bizim qəlbimizdə daim yaşayacaq.*

**Mehriban ƏLİYEVA**
*Azərbaycan Respublikasının*
*Birinci vitse-prezidenti*



27 sentyabr – Anım Günü
Bakı, 2021





# NİCAT ZİYAFƏT OĞLU HÜSEYNOV

## ŞƏHİD QANI AXMAYAN TORPAQDAN VƏTƏN OLMAZ!

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatlarına başlamışdı. Ordumuz düşmənə layiqli yerini göstərmiş, dövlətimizin gücünü, qüdrətini bütün dünyaya nümayiş etdirmişdi. Noyabrın 10-da əldə etdiyimiz şanlı Qələbə həm də tarixi ədalətin bərpası olmuşdu.

Ötən illər ərzində vətənin bütövlüyü uğrunda mübarizəyə hər an hazır olan gənc nəsil yetişmişdi. Millətindən, dilindən, dinindən asılı olmayaraq hər an Ali Baş Komandanın əmrini gözləyən bu gənclər hər şeyi gözə alıb bir anda döyüşə atılmışlar: bir amal – dövlətimizin bütövlüyü, xalqımızın şərəfi, ləyaqəti, illərlə həsrətində olduğumuz torpaqların intiqamı uğrunda...

Şəhid qanı axmayan torpaqdan Vətən olmaz deyiblər. 30 ilə yaxın düşmən tapdağında olan torpaqlarımıza, tarixi abidələrimizə, xarıbülbülümüzə qovuşmaq minlərlə qəhrəmanımızın yarım qalan ömrü, itirilən sağlamlığı hesabına mümkün olmuşdu. Şəhidlik vətənpərvərliyin ən ali məqamıdır. Bu ucalığa yüksələnlərin ömür yolu qısa, eyni zamanda şərəfli və örnək sayılır. Öz qısa, lakin ibrətamiz həyat yolu ilə hər kəsə nümunə olan qəhrəmanlarımızdan biri də Nicat Hüseynovdur.



Nicat anası və yaxınları ilə

Virtual keçid



**Nicat dostu ilə**

Nicat Hüseynov 1997-ci il iyun ayının 4-də Şirvan şəhərində doğulmuşdur. 2003-cü ildə Azərbaycanın Milli Qəhrəmanı Nofəl Quliyev adına Şirvan şəhər 9 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olmuş, 2014-cü ildə Bəhruz Aslanov adına tam orta məktəbin 11-ci sinfini bitirmişdir. Orta məktəb illərində hər kəsin – sinif yoldaşlarının və müəllimlərin hörmətini, etibarını qazanan Nicat hər zaman öz tərbiyəsi, xeyirxahlığı ilə seçilmişdi.







**Nicat əsgər yoldaşları ilə**

Nicat 2015-ci ilin iyul ayında Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılmışdır. Ağdamda yerləşən "N" saylı hərbi hissədə hərbi xidmət borcunu ləyaqətlə yerinə yetirmiş və bu müddətdə snayper kursunu da uğurla bitirmişdi. O, könüllü olaraq Aprel döyüşlərində iştirak etmək üçün arxa cəbhədən ön cəbhəyə seçilmiş 10 əsgərdən biri olmuşdu.







Azərbaycan Silahlı Qüvvələrinin polkovnik-leytenantı, 2016-cı ildə Aprel döyüşləri zamanı şəhid olmuş "Murov qartalı" Raquf Orucovu özünə ideal seçən Nicat bir gün onun qisasını alacağını demişdi və sözünün üstündə durdu da. Lakin o özü də bilmədən bir çoxlarına örnək olmuş, nümunəvi döyüşçü kimi gənclərin idealına çevrilmişdi. Döyüşlər zamanı yüngül xəsarət alıb yaralansa da, bu onu heç zaman qorxutmamış, hərbidən soyutmamışdı.

Hərbi xidməti başa vurduqdan sonra Nicat Hüseynov Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi "Cihaz İstehsalat Birliyi" MMC-də və "Şirvan Araz zavodu" MMC-də "N" saylı komandanın böyük atıcısı vəzifəsində çalışmışdı. Kollektivdə də özünü nümunəvi işçi kimi göstərmiş, mehribanlığı, səmimiliyi və zarafatcıllığı ilə ətrafına çoxlu dostlar yığa bilmişdi.

Ölkə Prezidentinin "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" 28 sentyabr 2020-ci il tarixli Sərəncamına əsasən Nicat da digər qorxmaz gənclər kimi sentyabrın 29-da cəbhəyə yollanmışdı.

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşmək və şəhidlərin qisasını almaq ən böyük arzusu idi onun. Mərdliyi, cəsarəti, döyüş tapşırıqlarını dəqiqliklə yerinə yetirmək xüsusiyyəti qısa müddətdə komandanlığın diqqətini çəkmiş və Nicatın bölük komandiri seçilməsinə səbəb olmuşdu.





Nicat bacıları ilə



Nicatın şəhidliyə gedən ömür yolu əsgər haqqında əsl ballada, vətənpərvər gəncin öz dövlətinə və xalqına dərindən bağlılığının bariz nümunəsidir.

Atası Ziyafət Hüseynov Nicatın ölümündən bir neçə ay əvvəl dünyasını dəyişmişdi. Anası Zümrüd xanım, bacıları Turanə və Çinarə Nicatın ölümü ilə barışa bilmir, onunla bağlı xatirələrini danışmaqdan doymurlar. Anası deyir ki, Nicat iki dəfə ali məktəbə qəbul olmaq üçün sənəd versə də, imtahan günü ailədə yas mərasimi olduğu üçün imtahanda iştirak edə bilməyib. "Mən onu ali təhsilli, yüksək kürsülərdə görməyi arzulayırdım. Sən demə, ona daha yüksək məqam qismət imiş...

Bacıları ailəli idi. Hər il 8 martda, ad günlərində gül dəstəsi, hədiyyə alıb anasını, bacılarını sevindirərdi. Hətta cəbhəyə getməzdən əvvəl atasının məzar daşının, evin küçə qapısının düzəldilməsi üçün ustaların haqqını vermişdi. Demişdi, mən gələnə qədər hazır olsun. İndi hər şey hazırdı, bir Nicat yoxdu", – deyir anası...

Zümrüd xanım hələ balacalığından Nicatı gözündən kənara qoymaz, hətta böyük oğlan olanda belə uşaq kimi qayğısına qalardı. Bəzən Nicat zarafatla: "Ay ana, bəsdi, məni ana uşağı edəcəksən", – deyərmiş. Amma heç vaxtı anasının sözündən çıxmaz, əsla xətrinə dəyməz, onu nigaran qoymazdı.

Təvazökar, böyük ürək sahibi olan Nicat bir çoxlarının yaddaşında silinməz iz qoya bilmişdir. Anası xatırlayır ki, hər səhər işə gedərkən yolda işləyən süpürgəçi qadınları da unutmaz, yeməyə nələrsə alıb onlara verərmiş.

Zümrüd xanım oğlu ilə bağlı xatirələri danışır, bu xatirələrlə təsəlli tapır. Deyir ki, Nicat bir dənə idi. Onu bütün pisliklərdən, təhlükələrdən Vətən üçün qorumuşdum. Həmişə onunla nəfəs almışam: "Nicat iki bacının bir qardaşı idi. 10 ildən sonra dünyaya gəlmişdi. Çox əziz, əl içində saxlanmış bir uşaq idi... Nicat hələ uşaq olanda hər oyuncağa meyil etməz, yalnız tapança, qılınc, avtomat aldırarmış". Anası ona müxtəlif oyuncaq silahlar aldıqlarını xatırlayır və illər ötdükcə Nicatın hərbiyə olan marağını hiss edirmiş.

"Cəsur, sözün əsl mənasında, qorxmaz idi. Müharibə başlayanda dedi ki, biz uşaqlarla könüllü yazılmışıq müharibəyə. Nicatın atası 4 ay idi, rəhmətə getmişdi. Ona dedim ki, atan







təzə rəhmətə gedib, axı mən tək qalacam evdə?!" Anası onu nə qədər fikrindən döndərməyə çalışsa da, Nicat hər şeyin yaxşı olacağını bildirmiş, ürəkdolusu "Ana, Vətən elə sənsən!" deyərək dostları ilə bərabər cəbhəyə yazılmışdı.

Anasını çox sevirdi Nicat, amma onun üçün Vətən sevgisi hər şeydən üstün oldu. Zümrüd xanım yaxşı xatırlayır: "Sentyabrın 28-də Nicat xəstəxanaya getmişdi, yaralı əsgərlərə qan verməyə. Qayıdandan sonra dedi ki, sabah saat 5-də bizi də aparırlar. Dedim, Nicat,









Qəhrəman dayımızla





atanın qəbrini düzəltdir, sonra get. Bəlkə, komissarlıqdan xaniş edək, səni aparmasın. Dedi: "Yox, mən getməliyəm". Səhər yatmışdı, özüm gedib yuxudan oyandırdım ki, birdən fərari deyərlər. Onu yola saldım. Oktyabrın 6-na qədər hər gün danışırdıq. 6-sı günü də danışdıq telefonla. Mən danışa bilmədim, ağladım. Bacısı ilə telefonla danışdı. Güllələr yağırdı. Güllə səsləri eşidilirdi. Bacısı dedi ki, qaqaş, qorxmursan orda? Gülüb dedi ki, bacı, qorxan oğlan bura gəlməz... Demişdi ki, əgər məndən 2 gün xəbər çıxmasa, bilin ki, haqqın dərgahına qovuşmuşam..."

Nicatı tanıyanlar hamısı onu xasiyyətcə xeyirxah, gülərüz, zarafatcıl bir insan kimi xatırlayırlar. Əsgər yoldaşları da Nicat haqqında xoş sözlər deyir, onun qısa müddətdə bizə silahdaşlığı, birliyi öyrətdiyini qeyd edirlər. "Nicat bir şüşə su tapırdı, onu da əsgər yoldaşları ilə bölürdü ki, hamı içsin". O, əsgərlərinin dincəlməsinə şərait yaradar, özü səhərə qədər yatmayıb onların keşiyini çəkərmiş. Nicatın döyüş yolu qısa olsa da, çox şərəfli olmuşdu.

Bacısı Çinarə Vəliyeva deyir ki, Nicat əsgər yoldaşları ilə birgə döyüşlərin ilk günlərinin və ən ağır mərhələsinin iştirakçıları olub. O, müharibədən söhbət düşəndə həmişə deyirdi ki, yadınızdadı Andranikin törətdikləri, gör indi onların başına nə oyun açacam. "Getməmişdən qabaq gəlmişdi bizə. Dedim ki, Nicat, mən səni yaxşı tanıyıram, özünü oda atacaqsan, bir an belə düşünmədən güllələrin qabağına atılacaqsan. Mən səni tanımıram?! O isə, sadəcə, gülümsündü..."

Nicat döyüşlərin ilk qanlı-qadalı günlərində ən çətin döyüş tapşırıqlarını yerinə yetirir, cəsarətlə vuruşurdu. O, düşmənin 27 il ərzində qurduğu istehkamların yarıb keçilməsində iştirak etmişdi.

Döyüş yoldaşı Təhməz Əlizadə Nicatla oktyabrın 5-də tanış olduğunu deyir. "O qədər ağır döyüşlər gedirdi ki, başımızı belə qaldırmağa imkanımız yox idi. Güllə yağış kimi yağırdı. Düşmənlə çox yaxın mövqedə idik. Nicat, doğrudan da, fərqli biri idi. Daim irəliyə can atırdı. Hər dəfə irəli gedəcək döyüşçülərin adı çəkiləndə komandirindən xahiş edirdi ki, mən də gedim. Şəhid olacağını bilə-bilə, ölümün gözünə dik baxaraq irəli atılırdı. Qorxu hissi ona tamam yad idi".

Nicat Hüseynov Füzuli rayonunun Qaraxanbəyli kəndi uğrunda hərbi əməliyyatlarda xüsusi qəhrəmanlıq göstərərək ağır döyüş şəraitində 15 yaralı əsgəri neytral zonadan təkbaşına çıxarmışdı. Nicatın ürəyinə dünya yerləşirmiş. 16-cı əsgəri xilas etməyə gedəndə komandir deyib: "Hüseynov, getmə, güllə yağış kimi yağır". Deyib, mənim əsgər yoldaşımın biri orda qalıb, onu da gətirməliyəm. 23 yaşlı Nicat Hüseynov 16-cı döyüş yoldaşını xilas edərkən 2020-ci il oktyabrın 7-də qəhrəmancasına şəhid olmuşdu. Onun nəşi şəhid olduğu ərazidən 3 gün sonra təxliyə edilmiş və doğulduğu Şirvan şəhərinə yola salınmışdı. El-obanın fəxri, qəhrəman Vətən oğlu Nicat Hüseynov 2020-ci il oktyabrın 11-də Şirvan şəhər Şəhidlər xiyabanında uğrunda can verdiyi torpağa əmanət edilmişdi.








Müzəffər ordumuzun əsgər və zabitlərinin döyüşlərdə göstərdiyi igidliklər dövlətimiz, ölkə rəhbəri tərəfindən hər zaman yüksək qiymətləndirilmişdir. Vətənimizin ərazi bütövlüyünün bərpa olunması, doğma yurdumuzun, torpaqlarımızın düşmən tapdağından azad edilməsi uğrunda ölümün gözünə dik baxan Nicat Ziyafət oğlu Hüseynov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdi.

***Nicatın xilas etdiyi döyüş yoldaşları: "Sən bizim xilaskarımızsan, sənə görə sağ-salamatıq və ömür boyu sənə borcluyuq", – deyirlər.***

***Təkcə döyüş yoldaşlarının deyil, bütün Azərbaycan xalqının xilaskarı, qüruru, and yeri olan şəhidlərimiz, biz hamımız sizə borcluyuq. Azadlıq, müstəqillik, qəhrəmanlıq simvoluna çevrilən şəhidlərimiz qəlbimizdə əbədi yaşayacaq. Ruhunuz şad, məkanınız cənnət olsun!***

***Allah rəhmət eləsin!***



# AĞA ƏMİ ELÇİN OĞLU HEYBƏTOV

## VƏTƏN MƏNƏ OĞUL DESƏ, NƏ DƏRDİM,
## MAMIR OLUB QAYASINDA BİTƏRDİM!

Ağa Əmi Heybətov 1993-cü il iyunun 6-da Buzovna qəsəbəsində anadan olmuşdur. 2011-ci ildə Buzovna qəsəbəsində Əfqan Əliyev adına 125 nömrəli tam orta məktəbi bitirmişdir.

Babasının adını daşıyan Ağa Əmi evin kiçiyi idi. Uşaqlığından hər kəsin sevimlisi olmağı bacarmışdı. O təkcə atasının deyil, həm də əmilərinin oğlu sayılırdı. Böyüklərə hörməti, kiçiklərə şəfqəti ilə seçilən Ağa Əmi həmişə yaşlı babasının qayğısına qalar, ona kömək lazım olanda dərhal öz işlərini təxirə salardı. Tanıdı-tanımadı, yoldan keçən hər kəsə yardım əlini uzadar, heç kimi naümid qoymazdı.

Məktəbdə də nümunəvi, bacarıqlı olması ilə həmişə diqqəti özünə çəkə bilmiş, müəllimlərinin sevimlisinə çevrilmişdi. Əla qiymətlərlə oxuduğuna görə 2004-cü ildə "Tərifnamə" ilə təltif olunmuş, 2004-cü ildə 4-cü sinfi əlaçı olaraq bitirdiyi üçün sertifikat, 2006-cı ildə isə futbol yarışında komanda üzrə ikinci yeri tutduğuna görə "Fəxri fərman"a layiq görülmüşdür.



**Ağa Əmi valideynləri ilə**

Virtual keçid

Ağa Əmi məktəb tədbirlərində də həmişə fəallıq göstərirmiş. Hər fənnə xüsusi yanaşan bu bacarıqlı oğlan daha çox məntiqi ilə fərqlənməyi bacarırdı. Təhsil aldığı müddətdə biliyi ilə yoldaşlarından seçildiyi üçün şəkli "Şərəf lövhəsi"ndə yer almışdı.

Şəhidimizin sinif yoldaşı Fəridə Şükürova deyir ki, ətrafdakılara səmimi münasibəti, xoş rəftarı, çalışqanlığı, ünsiyyətcil olması Ağa Əminin hamı tərəfindən sevilməsinə səbəb olmuşdu. "O, qızlara qardaş, oğlanlara əsl dost münasibəti göstərərdi. Məktəbdə keçirilən tədbirlərdə, teatrlarda, muzeylərdə gəzinti zamanı, imtahandan sonra uşaqlarla yığışdığımız məkanlarda – demək olar ki, hər yerdə öz sadəliyi, səmimiyyəti ilə günümüzə xüsusi rəng qatar, hamını şənləndirərdi. Sən demə, fərqinə varmadan xoşbəxt günlərimizi yaşayırdıq. Qara, qaynar gözlərində sönməz həyat eşqi vardı. Kim bilərdi, onu bu qədər tez itirəcəyik. Onun ölümü ilə barışmaq çox çətindir. Heç bir təsəlli onu əvəz edə bilməz".

Vətənpərvər, dostluqda sadiq olan Ağa Əmi yaxın yoldaşları Vüsal Salamov və İbrahim Əliyevlə hələ uşaqlıqdan bir yerdə böyümüşdü. Vüsal Salamov ilə orta məktəbi də bir



Ağa Əmi atası və əmisi ilə





sinifdə oxumuş, hətta cəbhəyə də birlikdə getmişdilər. Bu üç qəhrəmanın dostluğu dastana çevrilmişdi. Qırılmaz, möhkəm bağlar Vətən müharibəsində şəhidlik zirvəsində də onları birləşdirmişdi.

Ağa Əmi məktəb illərində dərslərini yaxşı oxumaqla kifayətlənməz, daim axtarışda olardı. O, Buzovna qəsəbəsindəki məscidin mədrəsəsində "Qurani-Kərim"in tədris kursunu da bitirmiş və şəhadətnamə almışdır.

Ağa Əmi musiqiyə həvəsi olduğu üçün 2002-ci ildə 4 nömrəli Uşaq İncəsənət Məktəbində təhsil almağa başlamışdır. O, 2007-ci ildə bu məktəbin qarmon sinfini müvəffəqiyyətlə başa vurmuşdur.

Ağa Əmi idmanın müxtəlif növləri ilə də məşğul olmuş, "Qarabağ" və "Qalatasaray" futbol klublarına azarkeşlik etmişdir.

Bu sadə gəncdə əsl Azərbaycan kişisinə məxsus xüsusiyyətlər cəmləşmişdi: qeyrətli, sirr saxlayan, mərd, cəsur.



DİPLOM

125 №li orta məktəbin rəhbərliyi

HEYBƏTOV AĞAƏMİ

ELÇİN o.

4-cü sinfi bitirdiyinə görə

Diplomla təltif edir.

2000-2004



FƏXRİ FƏRMAN

May 2006



ŞƏHADƏTNAMƏ

E № 004038

Verilir Heybətov

Ağa Əmi Elçin oğluna

ondan ötrü ki, o, 2002 ildə 4 №-li

uşaq incəsənət

məktəbinə daxil olmuş və 2007 ildə 4 №-li

uşaq incəsənət

məktəbinin tam kursunu qarmon

ixtisası üzrə bitirmişdir.

Məktəbin direktoru /Y. Quliyev/

Tədris hissə üzrə direktor müavini: /S. Eminova/

M.Y. 25 iyun 2007 il

MƏNİMSƏMƏ QİYMƏTLƏRİ

İxtisas 5 (beş)
Muğam 5 (beş)
Solfecio 4 (dörd)
Azərbaycan musiqi ədəbiyyatı 4 (dörd)
Musiqi ədəbiyyatı (ümumi kurs) 4 (dörd)
Azərbaycan xalq musiqi yaradıcılığı 5 (beş)
Xor 5 (beş)
Orkestr 5 (beş)
Rəsm —
Rəngkarlıq —
Kompozisiya —
Dəzgah-tətbiqi sənət —
Heykəltəraşlıq —
Plastik anatomiya —
Xalq səhnə rəqsi —
Klassik rəqs —
Tarixi-məişət və müasir bal rəqsi —
Musiqi savadı və musiqi dinləmə —



Qarmon müəllimi ilə




Ağa Əmi sevimli babası ilə





Ailə üzvləri ilə



Ağa Əmi məzun olarkən

Qardaşından ağızdolusu danışan Həliməxanım onun milli mətbəxin ləzzətli xörəklərini sevdiyini bildirir: "Ən çox anamın bişirdiyi yarpaq dolmasını xoşlayardı. Ürəyi istəyən bir şey olmayanda özü özünə yemək bişirərdi. Hətta hərbi xidmətdə əsgərlərə də dadlı yeməklər bişirərdi".

Hazırda oxuduğu məktəbdə şəhidimizin xatirəsini əbədiləşdirmək, onu daim yad etmək üçün siniflərin birində xatirə guşəsi yaradılmışdır.

Ağa Əmi orta məktəbi bitirdiyi 2011-ci ildə çox arzuladığı Azərbaycan Dövlət İqtisad Universitetinin Turizm və otelçilik fakültəsinə qəbul olunmuşdu. O özünün davranışı, əxlaqı, tərbiyəsi, nizam-intizamlı olması ilə universitetdə də hamının hörmətini, rəğbətini qazanmışdı. Tələbə yoldaşları Xanbala Cənnətov və Kamran Kərimli bu şən, gülərüz, mehriban oğlanı belə xatırlayırlar: "10 ildir ki, bizim həyatımızda Ağa var. Bəli, Ağa Əmiyə "Ağa" deyə müraciət edərdik. Onun haqqında danışmağa sözlər belə acizdir. Gülən üzü, şən zarafatları ilə hamının ürəyinə yol tapmışdı. Onun yanında sıxılmaq qeyri-mümkün idi. Gülməyə və güldürməyə nəsə söz tapa bilirdi. Çox məntiqli və istedadlı gənc idi. Biz üç nəfər yaxın dost idik. Hər dəfə Ağa bizi evinə çağırardı və anasının bişirdiyi dadlı qutablara qonaq olardıq. Tələbəlik illərindən sonra da münasibətimiz daha da möhkəm oldu, əlaqəmiz heç kəsil-


BAKALAVR DİPLOMU ALİ TƏHSİL HAQQINDA

DÖVLƏT SƏNƏDİDİR

A № 070409

REKTOR prof. Muradov Ə.C.

DÖVLƏT ATTESTASİYA KOMİSSİYASININ SƏDRİ

M.Y.

Bakı şəhəri 10.11.2015

QEYDİYYAT NÖMRƏSİ 2583.


AZƏRBAYCAN RESPUBLİKASI

BAKALAVR DİPLOMU

Dövlət İqtisad Universiteti

DÖVLƏT ATTESTASİYA KOMİSSİYASININ

"30" may

Heybətov

Turizm və otelçilik

BAKALAVR ALİ PEŞƏ-İXTİSAS DƏRƏCƏSİ VERİLMİŞDİR.





mədi, bir-birimizdən ayrı düşmədik. Birlikdə istənilən mövzuda saatlarla müzakirələr apara bilərdik. Onunla birlikdə keçən tələbəlik illərimiz, sonrasında baş tutan bütün görüşlərimiz ancaq xoş xatirə kimi yaddaşımızdan heç vaxt silinməyəcək.

Yay aylarında mütləq Ağanın qonağı olurduq. Onun bağında saatlarla bir yerdə vaxt keçirər, samovar çayımızı içər, domino oynayardıq. Hər şeydən xəbərsiz, həyatın bizə nələr hazırladığından xəbərsiz idik. Çox təmiz, saf bir ürəyə sahib olan Ağa hamıya can yandırar, əlindən gələni edərdi ki, kiməsə xeyri dəysin. Yaşının az olmasına baxmayaraq, qazandığı ən böyük uğuru hörmətli olması idi. Ağanı bir sözlə ifadə edin desələr, yalnız bunu demək olardı – "Əsl dost".

Təhsil aldığı dönəmdə təkcə universitet daxilində deyil, təcrübə keçdiyi yerlərdə də bacarığı ilə diqqəti özünə çəkməyi bacarmışdır. O, istehsalat təcrübəsi vaxtı göstərdiyi diqqət və məsuliyyətə görə sertifikatla təltif olunmuşdu.

Universiteti bitirdikdən sonra təhsilini Türkiyədə davam etdirmək istəyirdi Ağa Əmi. Amma "öncə Vətən", – deyib hərbi xidmətə yollanmışdı. O, 2015–2016-cı illərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olmuşdu. Vətənpərvərliyi ilə seçilən şəhidimiz 2016-cı il Aprel döyüşlərində də könüllü vətənə xidmət etmiş, valideynlərini narahat etməmək üçün bunu onlardan gizlətmişdi. Yalnız 4 ildən sonra ailə üzvləri bundan xəbərdar olmuşlar.

Ağa Əmi əsgər kimi atıcı vəzifəsində Goranboy rayonunun Ballı qaya istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Komandiri və əsgər yoldaşları arasında da böyük hörmət qazanmışdı. Yoldaşları deyir ki, biz ona "Əmi" deyə müraciət edirdik. Birimizə nəsə olanda Ağa Əmi özünü oda-közə vurardı. Elə hiss edirdik ki, sanki atamız, qardaşımız yanımızdadır. O, 2016-cı il iyul ayının 2-də həqiqi hərbi xidmətini layiqincə başa vuraraq geri dönmüşdü.

Hərbi xidmətdən qayıtdıqdan sonra 2018–2019-cu illər ərzində müxtəlif şirkətlərdə satış təmsilçisi işləmişdir.

2019-cu ildən etibarən isə Müdafiə Sənayesi Nazirliyi "Şərq İstehsalat Birliyi" MMC-nin "İqlim Elmi-İstehsalat Müəssisəsi"ndə Proqramla idarəetmə operatoru vəzifəsində çalışmışdı.


QAFQAZ RESORT HOTEL

05.08.2013

SERTİFİKAT

Heybətov Ağa Əmi Elçin oğlu 25.06.2013-cü il tarixindən 05.08.2013-cü il tarixinədək Qəbələ Qafqaz Resort Hotelin müxtəlif şöbələrində praktikada olmuşdur. İşlərində göstərdiyi diqqət və məsuliyyətə görə təşəkkür edir, gələcək işlərində uğurlar arzulayırıq.

Ali Çaylak
İcraçı menecer

Qafqaz Resort Hotel-Qəbələ
Tel: 02420-5-42-00 Fax: 02420-5-42-09
Qəbələ şəhər İ.B.Qutqaşınlı küçəsi 173

İş yoldaşları qeyd edir ki, qısa zaman ərzində bu gənc oğlan təlim-tərbiyəsi ilə kollektivdə hörmət qazanmışdır. Hər zaman əlini ürəyinin üstünə qoyar, bizimlə salamlaşar, çöhrəsindən gülüş əskik olmazdı. Vüsalə Əliyeva onun necə mərhəmətli olduğunu belə xatırlayır: "Məzuniyyətdən yenicə qayıtmışdım. Nahar fasiləsi idi və mən fasiləyə çıxmamışdım. Bu gənc oğlan nahar fasiləsindən qayıdıb mənə üz tutaraq: "Vüsalə, sənin üçün yemək saxlamışam", – dedi. Öz yeməyindən mənə ayırmışdı. O gündən bəri bu diqqətcil oğlana olan hörmətim daha da artmışdı".

Vüqar Süleymanov isə Ağa Əmini bu sözlərlə yada salır: "Ağa ilə bütün günü bir yerdə vaxt keçirirdik. O, futbol oynamağı çox sevərdi. Mənə Vüqar yox, "qardaş" deyə müraciət edərdi. Gələcək planlarımızı bir yerdə qurardıq. Ağa haqqında çox danışmaq olar. Mehriban, nikbin olması bizlərə ruh yüksəkliyi verirdi. Hələ uğurlu karyerasının başlanğıcında olan bu gəncin yoxluğu bütün kollektivi çox sarsıtdı. Hətta yeni vəzifəyə təyin olunması belə onun uğurlarına uğur qatacaqdı, lakin özünün bundan xəbəri yox idi. Onun əziz xatirəsi hər gün çalışdığı yerdə asılmış rəsmi qarşısında dayanıb salam verən iş yoldaşlarının ürəyində əbədi qalacaqdır".

Vətən torpağının düşmən tapdağı altında olması hər bir vətənpərvər azərbaycanlı kimi, Ağa Əmini də daim narahat etmiş, bu ərazilər azad olunmayana qədər rahatlıq tapmamışdı.

Atası Elçin Heybətov kövrələrək xatirələrini bölüşür: "2020-ci ilin iyul hadisələrindən sonra o, yenidən könüllü olaraq cəbhəyə yazılmışdı. Azərbaycan ordusunun generalı Polad Həşimovun şəhid olması xəbərini eşidən andan bir yerdə qərar tutmur, hərbi xidmətə çağırılacağını səbirsizliklə gözləyirdi. Müharibə başladıqdan sonra 2020-ci il sentyabrın 29-da hərbi xidmətə yola salınmışdır. O hər zaman ön cəbhəyə getməyə can atır, arxada qalmağı heç cürə özünə sığışdırmırdı. Adı siyahıda çəkilməyəndə özünü saxlaya bilmir, "nə vaxt məni göndərəcəksiz", – deyə əsəbiləşirmiş".

Ağa Əmi İkinci Dünya müharibəsində həlak olmuş Bəşir və Səfər Heybətovlar nəslinin nümayəndəsi idi. Vaxtilə atasının əmilərinin alman faşistlərinə qarşı apardığı mübarizəni indi o, erməni faşistlərinə qarşı apardı. Ailəsi deyir ki, bizimlə cəbhədən əlaqə saxlayarkən əhvalımızı qaldırar, heç nədən şikayət etməz, "hər şey yaxşıdır, narahat olmaq lazım deyil", – deyərdi. Hətta Ağa Əmiyə işi ilə əlaqəli geri çağırış olunsa da, qəbul etməmişdir.

O, Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə cəsurluğu ilə komandirləri və döyüş yoldaşları arasında böyük hörmət qazanmışdır.









Ağa Əmi əsgər yoldaşı ilə





Əsgər yoldaşı Asəf Məmmədli Ağa Əmi haqqında danışarkən bunları deyir:

"Mən də Ağa Əmi kimi sentyabrın 29-da döyüşlərə qatılmışam, tanışlığımız oktyabr ayının 2–3-nə təsadüf edirdi. Qısa vaxt ərzində yaxşı münasibət qura bildik. Birlikdə vuruşduq, müharibənin dəhşətinə birlikdə şahid olduq. Bu gənc oğlan heç nədən qorxmurdu. Böyük ruh yüksəkliyi nümayiş etdirirdi. Hətta döyüşmək üçün çalışardı ki, hamıdan önə atılsın. Döyüş yoldaşlarına fəxrlə deyərdi ki, o əlinizdə tutduğunuz silahı biz istehsal edirik. Yorğun anlarımızda üzümüzü güldürər, əhvalımızı qaldırar, zarafatlarından geri qalmazdı. Mən bir dost, qardaş qazanmışdım, amma onu tez itirdim. Təbii, mərd insan idi. Qoymazdı, birimizə bir şey olsun. Deyirdi, narahat olmayın, bitəcək bu müharibə, qayıdacağıq. Hətta mərc gəlmişdik ki, oktyabrın 18-nə kimi evimizdə olsaq, dönər qonaqlığı verəcəyik ona, yox, əgər 18-dən gec










Ağa Əmi əsgər yoldaşları ilə



Ağa Əmi dostları ilə

olsa, o bizə qonaqlıq verəcək. Ağa Əmi, əslində, dediyinə əməl etdi, o artıq əbədi evinə qovuşmuşdu".

Döyüş yoldaşı Mehrab İsgəndərli də Ağa Əmini çox qayğıkeş, mehriban biri kimi xatırlayır: "Bir gün səhər yeməyinə gedəndə mən gedə bilmədim. Bir də gördüm ki, Ağa çörək, yağ, cem gətirib mənə ki, ac qalmayım.

Oktyabr ayının 5-i gecə saatları idi. Ağa çəkməsini təmizləyirdi. Ona gecənin bu vaxtı nə işlə məşğul olduğunu soruşanda: "Qaqam, mənim ürəyimə damıb ki, qısa zaman ərzində

evə qayıdacam", – dedi. Ona hələ döyüşlərin davam etdiyini, evə qayıtmağa ümid etməməsini dedim".

Həmişə ətrafdakılara yüksək əhvali-ruhiyyə bəxş edən Ağa Əmi, əslində, ölümü gözə alıb atılmışdı döyüş meydanına. O, dostuna dönə-dönə tapşırmışdı ki, əgər şəhid olsa, köksündə gəzdirdiyi Azərbaycan bayrağını və hərbi geyimini ailəsinə çatdırsın.



Ağa Əmi əsgər yoldaşları ilə





Ağa Əmi Heybətov 2020-ci il oktyabrın 16-da Vətənimizin ərazi bütövlüyü uğrunda Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 2020-ci il oktyabrın 25-də Buzovna qəsəbəsində yerləşən Şəhidlər xiyabanında dəfn edilmişdir.

Torpaq uğrunda vuruşaraq şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın xidmətləri dövlətimiz tərəfindən həmişə yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamlarına əsasən göstərdiyi şücaətə görə Heybətov Ağa Əmi Elçin oğlu aşağıdakı medallarla təltif edilmişdir:




***Şəhidimizin 3 yaşlı bacısı qızı Mələk deyir ki, mənim dayım Qarabağı aldı və verdi mənə. Bəli, bu gün Qarabağ torpaqlarında Mələk və digər körpələrimiz dayılarının, əmilərinin, atalarının sayəsində rahatlıqla gəzə biləcəklər.***

***Ruhunuz şad olsun, əziz şəhidlərimiz!***



# NURLAN RƏFAİL OĞLU ZEYNALOV

## BAYRAQLARI BAYRAQ EDƏN ÜSTÜNDƏKİ QANDIR, TORPAQ, UĞRUNDA ÖLƏN VARSA, VƏTƏNDİR!

Nurlan Zeynalov 1989-cu il noyabrın 25-də Sabirabad rayonunda anadan olmuşdur. Orta təhsilini 1996–2007-ci illərdə Sabirabad şəhər M.Ə.Sabir adına 1 saylı tam orta məktəbində almışdır. Zeynalovlar nəsli savadlı, ziyalı olması ilə seçilirdi. Orta məktəbi əla qiymətlərlə oxuyan Nurlana hələ yeddinci sinifdə oxuyanda müəllimi Şirvan Ağayev: "Nazirlik icazə versəydi, səni müəllim kimi işə götürərdim", – deyirdi. Bütün fənlərə maraq göstərən Nurlan olimpiadalarda uğurlar qazanar, gözəl nəticələr göstərərdi. Çox vaxt biletinə Mikayıl Müşfiqin "Yenə o bağ olaydı" şeiri düşərmiş. İndi dostları və yaxınları onu bu şeirlə yad edir, "kaş yenə də Nurlanla keçirdiyimiz günlər olaydı", – deyirlər.

Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Memarlıq və İnşaat Universitetinə daxil olmuşdur. Universitet həyatında da həmişə fərqlənən Nurlan müəllimlərin sevimli tələbəsi, tələbələrin məsləhətçisi idi. Həmişə çıxılmaz vəziyyətlərdə yoldaşlarının dadına çatar, problemi sakit şəkildə, dava salmadan yoluna qoyarmış. Buna görə tələbələr ona "dədə" deyə müraciət edərlərmiş. 2011-ci ildə universiteti bitirdikdən sonra oktyabr ayında həqiqi hərbi xidmətə çağırılmışdı.

Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə, Quru Qoşunlarında xidmət etməyə başladıqdan az sonra Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzinə 4 ay müddətində xüsusi təlimlərdə iştirak etmək üçün göndərilmişdi. Bu təlimləri uğurla başa vuran Nurlan Zeynalova leytenant rütbəsi verilmiş və o, yenidən xidmət etdiyi hərbi hissəyə geri dönmüşdü.



Nurlan Qarabağ müharibəsi iştirakçısı olan atası ilə





Nurlan əsgər yoldaşları ilə

Burada iki il müddətində Vətənə qüsursuz xidmət edən leytenant 2013-cü ildə Ordu sıralarından tərxis olunaraq yaşadığı Sabirabad rayonuna qayıtmışdı. Lakin hərbi sahəyə olan istəyi onu rahat buraxmamışdı. Çünki onun bir istəyi var idi – hərbçi olub Vətənin keşiyində durmaq. Hərbi geyiminə işarə edərək: "Bu formadan səmərəli istifadə etmədim, bir silah atmadımsa, "irəli" əmri vermədimsə, nəyimə lazımdır", – deyərdi.







2014–2017-ci illərdə regional "ASAN xidmət" mərkəzində Notariat kontorunda aparıcı mütəxəssis kimi işə başlayan gənc elə iş yerində də gələcək həyat yoldaşı Kübra xanımla tanış olaraq ailə qurmuşdu. 2017-ci ilin may ayından 2019-cu ilədək isə özəl şirkətlərin birində Kadrlar şöbəsinin rəisi vəzifəsində çalışaraq özünü bacarıqlı işçi kimi təsdiqləmiş və yalnız müsbət keyfiyyətləri ilə diqqət çəkmişdi.

2019-cu ilin iyun ayında Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyinin Ekologiya İnstitutunda Kadrlar şöbəsinin rəisi kimi işə başlamışdı. Gənc olmasına baxmayaraq, çalışqanlığı, kadr seçimi ilə həmişə fərqlənmişdi. O deyirdi ki, vaxt gələcək, mənim də adım bu idarədə əbədi qalacaq. Doğrudan da, Nurlan Rəfail oğlu Zeynalov işlədiyi yerdə ömürlük iz qoyub getdi.

Birinci Qarabağ müharibəsi iştirakçısı olan atası ona keçdiyi döyüş yolundan danışar, torpaqların itirilməsinə görə çox üzülərdi. Belə zamanlarda Nurlan atasına bildirərdi ki, üzülmə, vaxt gələr, sizin ala bilmədiyiniz torpaqları biz alarıq.

Ali Baş Komandan cənab İlham Əliyevin çağırışlarını diqqətlə izləyən Nurlan Zeynalov həmişə cəbhəyə böyük yanğı ilə can atırdı. Erməni faşizminin uzun illər xalqımıza verdiyi əzablar onun intiqam hissini gündən-günə alovlandırır, yağı düşməndən qisas almaq istəyini bir az da artırırdı. Nurlan sanki o torpaqlarda doğulub, o yerlərdə böyümüş kimi həsrətini çəkirdi oraların. Vüsala son qoymaq vaxtı çatmışdı.

Vətən və torpaq sevgisi hər bir azərbaycanlını Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşdirmişdi. Erməni təxribatlarına və təcavüzünə layiqli cavab verən, Zəfər uğrunda döyüşərək torpaqlarımızı işğaldan azad edən minlərlə igidin sırasında Nurlan da var idi.

Ermənilərin sərhədyanı zonalarda törətdikləri təxribatlar hər vətənpərvər azərbaycanlı kimi, onu da narahat etmişdi. Nurlan Zeynalov çağırışa ilk qoşulanlardan biri olmuşdu. O, Vətən torpaqlarının düşməndən azad olunması uğrunda canını fəda etmək kimi şərəfli yolu könüllü seçmişdi. Qəhrəmanımızın tez-tez təkrar etdiyi "Torpaq, uğrunda ölən varsa, Vətəndir" cümləsi, əslində, onun həyat devizi idi.

Sentyabrın 27-i onun həyat yolunun qəhrəmanlıq mərhələsinin başlanğıcı olmuşdu. Qismən səfərbərlik elan olunandan sonra səbirsizliklə orduya çağırılacağını gözləmiş, "Məni niyə çağırmadılar", – deyə gileylənmişdi. Nurlan 2020-ci il sentyabrın 28-də Hərbi Komissarlığa müraciət etmiş, sentyabrın 29-da isə Gəncə şəhəri "N" saylı hərbi hissəyə göndərilmişdi.

Burada o, əsgərlərin bölgüsü aparılan zaman inadla "Həmlə" taborunda xidmət etmək istədiyini bildirmişdi. Komandiri bu ağıllı, tədbirli gəncdən arxa cəbhədə yararlanmağı düşünsə də, o, təkidlə öndə olmağa can atmış, "Mən öndə olmalıyam, qalanlar da arxamca gələr", – demişdi. İstəyi nəzərə alınaraq Xüsusi Təyinatlı Qoşunların əsgər və zabitlərindən ibarət olan taborun tərkibində döyüşlərə qatılmışdı. 2020-ci il oktyabrın 5-də həmlə taboruna taqım komandiri təyin edilərək döyüşə yollanmışdı. Füzuli, Zəngilan, Qubadlı, Şuşa istiqamətlərində gedən döyüşlərdə iştirak etmişdi. Xocavənd istiqamətində baş verən şiddətli döyüş zamanı xüsusi əhəmiyyətli strateji mövqenin qorunmasında fədakarlıq göstərmişdi. Ayağından yaralansa da, əsla geri dönmək istəmədiyini bildirmiş: "İynə vurub yaramı sarıyın, ancaq irəli getməliyəm", – demişdi.









Taqım komandiri kimi ağır və çətin döyüş planlarının yerinə yetirilməsində iştirak edən qəhrəmanımız düşmənin xeyli sayda canlı qüvvəsini məhv etmiş, neçə yaralı əsgərə ilk tibbi yardım göstərib döyüş meydanından təxliyə olunmasına köməklik göstərmişdir. Əldə olunan hər qələbə, geri qaytarılan hər kənd, hər rayon bizim cəsur hərbçilərimizin canı, qanı bahasına başa gəlirmiş. Ən çətin məqamlarda ən doğru qərarları qəbul edə bilən bir komandir idi Nurlan Zeynalov!.. Nə qədər ki sağ idi, tabeliyində olan bir əsgərin belə ölməsinə imkan verməmişdi. Təkcə 2020-ci il noyabrın 9-da Xocavənd uğrunda gedən döyüşlərdə 71 kənd, 8 yüksəklik düşməndən geri alınmışdı. Amma bu döyüş Nurlan üçün sonuncu döyüş olmuş, o, snayperdən açılan atəş nəticəsində şəhidlik məqamına ucalmışdır.

Anası Məleykə xanım Nurlanın hələ kiçik yaşlarından yaşıdlarından seçildiyini bildirir: uzaqgörənliyi, ağıllı olması, bir də oyuncaqları ilə. Aldırdığı bütün oyuncaqlar avtomatdan, tapançadan ibarət idi. Hərbi sahəyə olan marağı uşaq olandan özünü büruzə verirdi. Göndərilən hər işə marş oxuya-oxuya gedirdi. Ağlı kəsəndən Mübariz İbrahimova həsəd apa-





rırdı. Onu yaddaşlarda, ürəklərdə əbədi qalacaq bir qəhrəman kimi təqdir edirdi. "Üç yaşından Nurlanın fərqli uşaq olduğunu hiss etmişdim, ağıllı baxışları vardı, yetkin düşüncəyə sahib idi, adamı incitməzdi, o zaman da indiki kimi qayğıkeş və istiqanlı idi... Nurlan məsləhət yerimiz, güvəndiyimiz insan idi, onunla dağı dağ üstə qoya bilərdin..."

Ona həmişə həssaslıqla yanaşan anasına "anaların anası" deyə xitab edərmiş. "Anamın bişirdiyi yeməklərdən yoxdu", – deyərmiş. Anası da onunla nəfəs alardı. Məleykə ananı üzməmək üçün müharibədə olduğunu gizlətmişdi ondan. Valideynlərini çox sevən Nurlanın bir arzusu vardı – Allah ona valideyn itkisini göstərməsin. Arzusuna da çatdı. Hətta döyüş yoldaşlarına vəsiyyət etmiş – şəhid olsa, onun valideynlərinə baş çəkməklərini istəmişdi.

Qızı Nurayı çox sevərdi. Amma Vətən sevgisi hər şeyə üstün gəldi. Sona qədər əqidəsindən dönmədi.

Atası Rəfail də oğlunun elmə həvəsindən, hərbiyə vurğunluğundan danışır: "Uşaqlıqdan elmə böyük həvəsi vardı, harda itirsən, kitabların arasında tapardın. İşıqlarımız olmayanda sobanın işığında dərslərini oxuyardı. Bir də hərbçi peşəsinin vurğunu idi... Vətən onun amalı idi, amalı yolunda da getdi. Vətən sağ olsun!.."



**Nurlan və ailəsi**



Nurlan həyat yoldaşı və qızı Nuray ilə



Nurlan və Nuray







Nurlan ailəsi ilə



Həyat yoldaşı Kübra xanım Nurlanla keçirdiyi günlərin xatirələri ilə yaşayır: "Nurlan çox qızın xəyal etdiyi oğlanlardan idi. Evləndikdən sonra Nurlan daha qayğıkeş, daha diqqətli olmuşdu, onunla həyatım bir sevgi nağılına bənzəyirdi. Sanki röyada idim, oyanmağa qorxurdum... Onunla birgə yaşadığım illərin oduna bir ömür isinə bilərəm... O, xoşbəxt edəndə xoşbəxt olan insan idi! Həmişə bütün problemləri özü yoluna qoyardı, lakin son zamanlar məni çətinliklərə alışdırırdı. Sanki bilirdi onsuz qalacağımı.

"Cənab leytenant" mahnısını çox sevirdi və yəqin ki, bundan sonra həmin mahnı Nurlanı yada salacaq xatirələrdən birinə çevriləcək".

Dünyalar qədər sevirdi qızı Nurayı. Həm ata, həm ana olmuşdu ona. Qızı da hər gün soruşur, hər gün atasını arzulayır. Bəzən də yuxusuna gəlir və onu qucaqlayır.

Nuray hələ indi dil açır, amma çox şeyi hiss edir, məsələn, anasının, nənəsinin göz yaşlarına göz yaşı ilə cavab verir. Ağlama, Nuray, ağlama!.. Azərbaycanın minlərlə igid oğlu sənin kimi körpə balaların bircə təbəssümü üçün can verdi! Sən bu torpağın şərəfini öz şərəfi bilən zabitin övladısan! Sən azad Qarabağ torpaqlarında fəxrlə gəzəcəksən və başını daim uca tutacaqsan!

Hər bir şəhid bizim üçün müqəddəsdir, Vətənin bir parçası, nişanəsidir. Onlar xalqımızın qəlbində daim yaşayacaq, gələcək nəsillər onlardan örnək götürəcəklər. Vətən uğrunda vuruşan oğullarımızla fəxr edir, onların əziz xatirəsini daim uca tutur, ruhları qarşısında baş əyirik!





Nurlan cəbhə yoldaşları ilə







Nurlan döyüş yoldaşları ilə Böyük Zəfərə doğru şərəfli yolda

Şəhidlərimizin əvəzsiz xidmətləri dövlətimiz tərəfindən həmişə dəyərləndirilmiş, ailələrinə, qazilərə, müharibə iştirakçılarına hər zaman qayğı, diqqət göstərilmişdir. Nurlan Zeynalovun da Vətən üçün, xalq üçün etdikləri diqqətdən kənarda qalmamış, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirilmişdir.

Nurlan Zeynalov aşağıdakı orden və medallarla təltif edilmişdir:




*Atasının bir nigarançılığı var: "Görəsən, oğlum qələbə qazandığımızı bildimi? Kaş ki bilərdi". Əminik ki, öz uzaqgörənliyi, qələbəyə inamı ilə seçilən Nurlan Qələbə qazanacağımızı çoxdan bilirdi.*

*Son dəfə noyabr ayının 7-də ailəsi ilə əlaqə saxlayaraq müharibənin tezliklə bitəcəyini və qələbə ilə evə qayıdacağını xəbər verərək sevincini paylaşmışdı...*





## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəsmi instagram səhifəsindəki şəhidlərlə bağlı paylaşımlarından



**firstvicepresidentazerbaijan** Bütün Azərbaycan xalqını və bizim qələbələrimizə sevinən hər kəsi səmimi-qəlbdən təbrik edirəm! Vətən yolunda canından keçmiş qəhrəman şəhidlərimizə Allah rəhmət eləsin! Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! #QarabağAzərbaycandır!




Virtual keçid

*Qəhrəman Azərbaycan əsgəri öz gücünü bütün dünyaya göstərdi... İndi dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində bizim döyüş taktikamız öyrənilir. Bu, bir yenilikdir, XXI əsrin müharibəsidir. Həm peşəkarlıq, həm iradə, milli ruh, qəhrəmanlıq hesabına torpaqlarımızı işğalçılardan azad etmişik.*

**İlham ƏLİYEV**



# VƏTƏN MÜHARİBƏSİNDƏ İŞTİRAK ETMİŞ ƏMƏKDAŞLARIMIZ



VƏTƏN MÜHARİBƏSİ QƏHRƏMANI

**AĞAYEV QƏZƏNFƏR MAHMUD OĞLU**

1996-cı il oktyabrın 13-də Cəlilabad rayonunun Təklə kəndində anadan olmuşdur.

Qəzənfər Ağayev 2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirmiş, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində həqiqi hərbi xidmətə başlamışdır.

Vətən müharibəsində iştirakına, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə, işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsinin icrasında igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2020-ci il tarixli Sərəncamı ilə baş leytenant Ağayev Qəzənfər Mahmud oğluna Vətən Müharibəsi Qəhrəmanı fəxri adı verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin digər sərəncamları ilə "Suqovuşanın azad olunmasına görə", "Ağdamın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir. Qəzənfər Ağayev Ordudan tərxis olunduqdan sonra Müdafiə Sənayesi Nazirliyində məsul vəzifədə işləyir.





**ABBASOV MİRƏLİ ELÇİN OĞLU**



1998-ci il iyulun 30-da Bakı şəhərində anadan olmuşdur. 2016-cı ildə Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsində 322 nömrəli tam orta məktəbi bitirmişdir.

2016–2018-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

**ABASOV RƏHİM TƏVƏKKÜL OĞLU**



1997-ci il sentyabrın 18-də Salyan rayonu Dayıkənd kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2014–2018-ci illərdə Azərbaycan Texniki Universitetində ali təhsil almışdır.

2018–2019-cu illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.



**ABDULLAYEV CAVİD BİNYƏT OĞLU**

1973-cü il yanvarın 28-də Şəki rayonunun Bideyiz kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1995-ci ildə Azərbaycan Texniki Universitetində ali təhsil almışdır.

1997-ci ildən Müdafiə Nazirliyinin müxtəlif hərbi hissələrində həqiqi hərbi xidmət etmişdir. 2015–2017-ci illərdə "N" saylı hərbi hissənin artilleriya xidmətinin rəisi olmuşdur.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Polkovnik-leytenant Cavid Abdullayev Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



**BABAYEV RÜFƏT RAFİL OĞLU**

1994-cü il sentyabrın 4-də Şirvan şəhərində anadan olmuşdur. 2014-cü ildə Mingəçevir Turizm Kollecini bitirmişdir.

2012–2013-cü illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.





**BABAYEV SƏİD ƏLİ OĞLU**




1999-cu il iyunun 9-da Bakı şəhərində anadan olmuşdur. 2016-cı ildə Bakı şəhər, Nərimanov rayonu 57 nömrəli tam orta məktəbi bitirmişdir.

2017–2019-cu illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

**BABAYEV ZAHİR MAHİR OĞLU**



1994-cü il yanvarın 20-də Rusiyanın Yakutsk şəhərində anadan olmuşdur. 2011-ci ildə Yakutsk şəhərindəki tam orta məktəbi bitirmişdir.

2012–2013-cü illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



**BAXIŞOV RUFAN FUAD OĞLU**

1993-cü il noyabrın 16-da Kürdəmir rayonunun Dəyirmanlı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2011–2015-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetində ali təhsil almışdır.

2015–2016-cı illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Zəngilanın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



**BALAYEV XƏYYAM ƏNVƏR OĞLU**

1997-ci il martın 25-də Lənkəran rayonunun Haftoni qəsəbəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2015–2019-cu illərdə Lənkəran Dövlət Universitetində ali təhsil almışdır.

2019–2020-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.





**BAYRAMLI ORXAN VÜQAR OĞLU**



2001-ci il yanvarın 17-də Şirvan şəhərində anadan olmuşdur. 2018-ci ildə Şirvan şəhər 18 nömrəli tam orta məktəbi bitirmişdir.

2019–2020-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.

**CABBAROV ŞİKAR NATİQ OĞLU**



2001-ci il iyunun 2-də Göygöl rayonunda anadan olmuşdur. 2018-ci ildə Gəncə şəhər 37 nömrəli tam orta məktəbi bitirmişdir.

2019-cu ilin iyul ayında Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə başlamışdır.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.



## CABBAROV TARİYEL TƏVƏKKÜL OĞLU

1978-ci il fevralın 4-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1995–1999-cu illərdə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda ali təhsil almışdır.

2000–2002-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində həqiqi hərbi xidmət etmişdir.

Baş leytenant Tariyel Cabbarov 2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.



## CALALZADƏ SAHİL KAMRAN OĞLU

1994-cü il sentyabrın 29-da Qax rayonunun Almalı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2012–2016-cı illərdə Azərbaycan Texniki Universitetində ali təhsil almışdır.

2017–2018-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.





## CAVADLI MURAD İSMAYIL OĞLU




1995-ci il mayın 7-də Şirvan şəhərində anadan olmuşdur. 2015-ci ildə Sabirabad Dövlət Sosial-İqtisadi Kollecini bitirmişdir.

2013–2015-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

## CƏFƏROV ELSEVƏR RƏSUL OĞLU




1988-ci il avqustun 8-də Şirvan şəhərində anadan olmuşdur. 2010-cu ildə Bakı Sənaye Pedaqoji Texnikumunu bitirmişdir.

2005–2007-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. 2020-ci il oktyabr ayında Füzuli rayonunun azad olunması uğrunda gedən döyüşdə yaralanmışdır. Müalicə olunduqdan sonra yenidən xidmət etdiyi hərbi hissəyə qayıtmışdır. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



## DADAŞOV KAMRAN NAZİM OĞLU

1995-ci il fevralın 21-də Bakı şəhərində anadan olmuşdur. 2012-ci ildə Bakı şəhəri, Yasamal rayonu Həzi Aslanov adına 175 nömrəli orta məktəbi bitirmişdir.

2014–2016-cı illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



## ƏHMƏDLİ ELNUR FƏRMAN OĞLU

1994-cü il dekabrın 21-də Qazax rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2012–2016-cı illərdə Azərbaycan Texniki Universitetində ali təhsil almışdır.

2016–2017-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.





## ƏHMƏDOV FƏRİD ASƏM OĞLU



1995-ci il noyabrın 7-də Bərdə şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2014–2018-ci illərdə Mingəçevir Dövlət Universitetində ali təhsil almışdır.

2018–2019-cu illərdə zabit kurslarını bitirmişdir.

2019–2020-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Leytenant Fərid Əhmədov 2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.

## ƏHMƏDOV TURAL NADİR OĞLU



1998-ci il fevralın 15-də Bakı şəhərində anadan olmuşdur. 2016-cı ildə Bakı şəhəri, Suraxanı rayonu, Əmircan qəsəbəsi Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunov adına 154 nömrəli tam orta məktəbi bitirmişdir.

2016–2018-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.




### ƏLƏKBƏRZADƏ NAĞI MƏRDAN OĞLU

1994-cü il iyunun 16-da Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Dəmirçi kəndində anadan olmuşdur. 2011-ci ildə Dəmirçi kənd 2 nömrəli orta məktəbini bitirmişdir.

2012–2014-cü illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.



### ƏLİYEV HİKMƏT ZAHİD OĞLU

1987-ci il oktyabrın 18-də Şirvan şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2005–2009-cu illərdə Azərbaycan Dövlət Neft Akademiyasında ali təhsil almışdır.

2009–2010-cu illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.





### ƏLİYEV TURXAN ŞAHMALI OĞLU




1995-ci il sentyabrın 8-də Qazax rayonunun Daş Salahlı kəndində anadan olmuşdur. 2019-cu ildə Bakı Humanitar Kollecini bitirmişdir.

2013–2015-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.

### ƏLİZADƏ CAVİD CƏFƏRAĞA OĞLU




1995-ci il yanvarın 25-də Şirvan şəhərində anadan olmuşdur. 2014-cü ildə Şirvan Peşə Liseyini bitirmişdir.

2013-cü ildə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə başlamışdır. 2014-cü ilin aprel-oktyabr aylarında Azərbaycan Respublikasının Əfqanıstan İslam Respublikasında xidmət edən sülhməramlılarının tərkibində hərbi xidmətini davam etdirmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.



## ƏLİZADƏ SAMİR RÖVŞƏN OĞLU

1993-cü il fevralın 8-də Şirvan şəhərində anadan olmuşdur. Məktəbi bitirdikdən sonra 2010–2014-cü illərdə Azərbaycan Texnologiya Universitetində ali təhsil almışdır.

2014–2015-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. 2020-ci ilin oktyabr ayında Füzuli rayonunun azad olunması uğrunda gedən döyüşdə yaralanmışdır. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Zəngilanın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



## ƏLİZADƏ TƏHMƏZ ZABİT OĞLU

1993-cü il sentyabrın 1-də Salyan rayonunun II Varlı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2010–2014-cü illərdə Azərbaycan Müəllimlər İnstitutunda ali təhsil almışdır.

Baş leytenant Təhməz Əlizadə 2014–2016-cı illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində hərbi xidmətə başlamışdır.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilmişdir.





## ƏMİKİŞİYEV ƏSMAN AYDIN OĞLU



1996-cı il iyunun 29-da Quba şəhərində anadan olmuşdur. 2013-cü ildə Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsində 322 nömrəli tam orta məktəbi bitirmişdir.

2014–2016-cı illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.

## ƏMİRASLANOV ÖMƏR YAŞAR OĞLU



1997-ci il mayın 6-da Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2014–2018-ci illərdə Azərbaycan Texniki Universitetində ali təhsil almışdır.

2018–2019-cu illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində çavuş rütbəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. 2020-ci il oktyabr ayında Xocavənd rayonunun azad olunması uğrunda döyüşdə yaralanmışdır. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.



### ƏMİROV RUSLAN UĞUR OĞLU

1997-ci il noyarbın 25-də Qobustan rayonunun Cəmcəmli kəndində anadan olmuşdur. 2015-ci ildə Rauf Babaşov adına Cəmcəmli kənd tam orta məktəbini bitirmişdir.

2016–2017-ci illərdə Müdafiə Nazirliyinin Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.




### ƏSGƏRLİ İLQAR VİDADİ OĞLU

1995-ci il oktyabrın 27-də Salyan rayonunun Qaraçala qəsəbəsində anadan olmuşdur. 2011-ci ildə Şirvan Peşə liseyini bitirmişdir.

2014–2015-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.





### ƏSGƏROV CAVİD CAVAN OĞLU



1992-ci il yanvarın 28-də Salyan rayonunun Seydan kəndində anadan olmuşdur. 2009-cu il mayın 30-da Salyan rayonu Əlimərdan Əliyev adına Piratman kənd orta məktəbini bitirmişdir.

2010–2011-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

### ƏSGƏROV SEYİDHÜSEYN SEYİDMƏMMƏD OĞLU



1989-cu il sentyabrın 1-də Sabirabad rayonunun Südəcühür kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2007–2011-ci illərdə Azərbaycan Müəllimlər İnstitutunda ali təhsil almışdır.

2011–2012-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.




### ƏZİZOV XALİD ƏZİZ OĞLU

1992-ci il sentyabrın 7-də Sabirabad rayonunun Şəhriyar kəndində anadan olmuşdur. 2009-cu ildə Şəhriyar kənd orta məktəbini bitirmişdir.

2010–2012-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.



### ƏZİZZADƏ CƏLAL ƏMƏNULLA OĞLU

1991-ci il sentyabrın 1-də Şirvan şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2008–2012-ci illərdə Azərbaycan Texniki Universitetində ali təhsil almışdır.

2012–2013-cü illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.





### HACIZADƏ RAMİZ RAUF OĞLU



1994-cü il iyulun 15-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2011–2015-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında ali təhsil almışdır.

2015–2016-cı illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

### HAXVERDİYEV TURAN NAZİM OĞLU



1994-cü il aprelin 7-də İsmayıllı rayonunun Qalagah kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2013–2017-ci illərdə Azərbaycan Texniki Universitetində ali təhsil almışdır.

2017–2018-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.



**HAQVERDİYEV CƏSARƏT QİYAS OĞLU**

1986-cı il iyulun 29-da Tərtər rayonunun Cəmilli kəndində anadan olmuşdur. 2003-cü ildə Cəmilli kənd tam orta məktəbini bitirmişdir.

2004–2006-cı illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Cəsarət Haqverdiyev 2016-cı ilin aprel döyüşlərində, 2020-ci ilin sentyabr ayından isə Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.



**HEYDƏRLİ HEYDƏR İBİŞ OĞLU**

1999-cu il martın 19-da Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2016–2020-ci illərdə Azərbaycan Dövlət Aqrar Universitetində ali təhsil almışdır.

2020-ci ilin iyul ayında Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə başlamışdır.

Hərbi xidmətdə olarkən 2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.





**HƏSƏNOV SABİR VÜQAR OĞLU**

1999-cu il martın 21-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2016–2020-ci illərdə Azərbaycan Texniki Universitetində ali təhsil almışdır.

2020-ci ilin iyul ayında Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə başlamışdır.

Hərbi xidmətdə olarkən 2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.



**HÜSEYNZADƏ PƏRVİN MƏHƏMMƏD OĞLU**

1992-ci il fevralın 21-də Qazax rayonunun Kosalar kəndində anadan olmuşdur. 2009-cu ildə Kosalar kənd orta məktəbini bitirmişdir.

2010–2012-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.





**XUDAYNƏZƏROV SAMİR ANNANUR OĞLU**

1993-cü il noyabrın 25-də Şirvan şəhərində anadan olmuşdur. 2011-ci ildə Şirvan şəhər Tahir Bağırov adına 11 saylı tam orta məktəbi bitirmişdir.

2011–2013-cü illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Laçının azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.




**İMRANOV RƏŞADƏT YAŞAR OĞLU**

1996-cı il dekabrın 15-də Gəncə şəhərində anadan olmuşdur. 2013-cü ildə Gəncə şəhər 41 nömrəli tam orta məktəbi bitirmişdir.

2015–2017-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.





**İSAYEV HƏSƏN RAUF OĞLU**




1996-cı il noyabrın 27-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2013–2017-ci illərdə Azərbaycan Texniki Universitetində ali təhsil almışdır.

2017–2018-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

**İSAYEV MUSTAFA BƏXTİYAR OĞLU**



1996-cı il noyabrın 17-də Xaçmaz rayonunun Çinartala kəndində anadan olmuşdur. 2013-cü ildə Çinartala kənd orta məktəbini bitirmişdir.

2014–2016-cı illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.




**QARAYEV İQBAL NƏRİMAN OĞLU**

1999-cu il oktyabrın 10-da Rusiya Federasiyasının Volqoqrad şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2016–2020-ci illərdə Sumqayıt Dövlət Universitetində ali təhsil almışdır.

2020-ci il iyulun 4-də Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində hərbi xidmətə başlamışdır.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.



**QASIMOV ELÇİN RAFİQ OĞLU**

1996-cı il iyulun 20-də Bakı şəhərində anadan olmuşdur. 2017-ci ildə 6 nömrəli Bakı Peşə liseyini bitirmişdir.

2014–2016-cı illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində kiçik çavuş rütbəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilmişdir.





**QƏRİBLİ ELNUR MAHİR OĞLU**

1997-ci il iyulun 15-də Abşeron rayonu Mehdiabad qəsəbəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2016–2020-ci illərdə Azərbaycan Texniki Universitetində ali təhsil almışdır.

2020–2021-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir. Hərbi xidmətdə olarkən Vətən müharibəsində iştirak etmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.




**QULİYEV ASLAN İSLAM OĞLU**

1996-cı il mayın 10-da Bərdə rayonunun Saatlı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2012–2016-cı illərdə Azərbaycan Texniki Universitetində ali təhsil almışdır.

2016–2017-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilmişdir.





## QULİYEV PƏRVİN MƏHARƏT OĞLU

1992-ci il sentyabrın 7-də Tovuz rayonunun Əlimərdanlı kəndində anadan olmuşdur. 2003-cü ildə Bakı şəhəri İlyas Əfəndiyev adına Elitar Gimnaziyanı bitirmişdir. Belarus Dövlət İqtisad Universitetində bakalavr və magistr pillələri üzrə ali təhsil almışdır.

2016–2017-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



## QURBANLI VÜSAL NAİL OĞLU

2001-ci il martın 8-də Tərtər rayonunun Nicat qəsəbəsində anadan olmuşdur. 2008–2017-ci illərdə Ağdam rayonunun 147 nömrəli 9 illik, 2018–2019-cu illərdə Kəlbəcər rayonunun 95 nömrəli tam orta məktəbini bitirmişdir.

2019-cu ilin may ayında Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə başlamışdır.

Hərbi xidmətdə olarkən 2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Hərbi xidmətlərə görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.





## QURBANOV ELÇİN ELŞƏN OĞLU



1995-ci il martın 22-də Gəncə şəhərində anadan olmuşdur. 2016-cı ildə Gəncə Musiqi Kollecini bitirmişdir.

2016–2018-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.

## MƏMİYEV ZAUR MALİK OĞLU



1995-ci il iyulun 17-də Şirvan şəhərində anadan olmuşdur.

2013-cü ildə Şirvan Peşə liseyini bitirmişdir.

2013–2015-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.



**MƏMMƏDOV TALEH İBRAHİM OĞLU**

1994-cü il avqustun 13-də Şəmkir rayonunun Çinarlı qəsəbəsində anadan olmuşdur. 2011-ci ildə Gəncə şəhər 6 nömrəli tam orta məktəbi bitirmişdir.

2014–2016-cı illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci il sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.



**MƏSİMLİ RACI BƏYBALA OĞLU**

1995-ci il oktyabrın 10-da Ucar rayonunun Bərgüşad kəndində anadan olmuşdur.

2017-ci ildə Azərbaycan Maliyyə-İqtisad Kollecini bitirmişdir.

2014–2015-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.





**MURADOV ELVİN ELMAR OĞLU**



1994-cü il iyunun 1-də Bakı şəhəri, Xəzər rayonunun Buzovna qəsəbəsində anadan olmuşdur. Buzovna qəsəbəsində 125 nömrəli tam orta məktəbi bitirmişdir.

2012–2014-cü illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

**MUSTAFA KƏNAN BAYRAM OĞLU**



1996-cı il iyulun 26-da Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Texniki Universitetində 2017-ci ildə bakalavr, 2019-cu ildə isə magistr pilləsi üzrə ali təhsilini başa vurmuşdur.

2019–2020-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.



**NƏSİBLİ ELFAQ NATİQ OĞLU**

1994-cü il iyulun 20-də Qazax rayonunun Dəmirçilər kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2011–2015-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyasında ali təhsil almışdır.

2016–2017-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.



**NİFTƏLİYEV SƏRDAR MUSA OĞLU**

1989-cu il iyulun 4-də Bakı şəhərində anadan olmuşdur.

2007-ci ildə 5 nömrəli Bakı Peşə məktəbini bitirmişdir.

2007–2009-cu illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.





**NOVRUZOV VALEH VAZEH OĞLU**

1996-cı il dekabrın 11-də Bakı şəhəri, Xəzər rayonunun Buzovna qəsəbəsində anadan olmuşdur.

2016-cı ildə Bakı Humanitar Kollecini bitirmişdir. 2016–2018-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.



**NURİYEV NAMİQ NİZAMİ OĞLU**

1997-ci il iyulun 12-də Balakən şəhərində anadan olmuşdur. 2014-cü ildə orta məktəbi bitirdikdən sonra 2015–2019-cu illərdə Bakı Dövlət Universitetində ali təhsil almışdır.

2019–2021-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Hərbi xidmətdə olarkən 2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.





**NURİYEV RAMİL YUSİFƏLİ OĞLU**

1977-ci il iyulun 26-da Şirvan şəhərində anadan olmuşdur. 1994-cü ildə Şirvan şəhər 10 nömrəli tam orta məktəbi bitirmişdir.

1995–1997-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir. 1997–2001-ci illərdə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində ali hərbi təhsil almışdır. 2001–2002-ci illərdə zabit ixtisasartırma kurslarını bitirmişdir. 2002–2016-cı illərdə müxtəlif hərbi hissələrdə həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Mayor Ramil Nuriyev Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



**PİRİYEV MÜSEYİB XANLAR OĞLU**

1993-cü il iyulun 26-da Şirvan şəhərində anadan olmuşdur. 2010-cu ildə Sabirabad rayonunun Nizami kənd orta məktəbini bitirmişdir.

2011–2013-cü illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.





**PRİMZADƏ PAŞA RASİM OĞLU**



1997-ci il iyunun 5-də Bakı şəhərində anadan olmuşdur. 2016-cı ildə Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kollecini, 2019-cu ildə isə 5 nömrəli Bakı Peşə liseyini bitirmişdir.

2017–2019-cu illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

**RƏHİMLİ XANI BALAXAN OĞLU**



1994-cü il sentyabrın 15-də Ağsu rayonunun Rəhimli kəndində anadan olmuşdur. 2016-cı ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat kollecini bitirmişdir.

2012–2014-cü illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.



**RƏHİMLİ MURAD MÜZƏFFƏR OĞLU**

1996-cı il sentyabrın 21-də Bakı şəhərində anadan olmuşdur. 2014-cü ildə Bakı şəhəri, Sabunçu rayon 307 nömrəli tam orta məktəbi bitirmişdir.

2015–2016-cı illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Murad Rəhimli 2016-cı ilin Aprel döyüşlərində, 2020-ci ilin sentyabr ayından isə Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.



**RÜSTƏMLİ AFİQ TOFİQ OĞLU**

1993-cü il iyunun 9-da Bakı şəhərində anadan olmuşdur. 2009-cu ildə 283 saylı orta məktəbin 9-cu sinfini bitirmişdir.

2011–2013-cü illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Laçının azad olunmasına görə" medalı ilə təltif edilmişdir.





**RÜSTƏMOV NÜSRƏT ZEYNƏDDİN OĞLU**



1997-ci il iyulun 8-də Göyçay rayonunun Mallı-Şıxlı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2014–2018-ci ildə Azərbaycan Texniki Universitetində ali təhsil almışdır.

2018–2019-cu illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.

**RZAYEV ZİYA AYDIN OĞLU**



1995-ci il aprelin 10-da Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2012–2016-cı illərdə Bakı Dövlət Universitetində ali təhsil almışdır.

2016–2017-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



**SÜLEYMANOV ŞAMİL ŞAHİN OĞLU**

1991-ci il noyabrın 4-də Şirvan şəhərində anadan olmuşdur. 2008-ci ildə Şirvan şəhər 10 nömrəli tam orta məktəbini bitirmişdir.

2010–2011-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. 2020-ci il noyabrın 6-da Xocavənd rayonunun azad olunması uğrunda döyüşlərdə yaralanmışdır.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Cəsur döyüşçü" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



**ŞEYDAYEV CAVİDAN ŞAHKƏRƏM OĞLU**

1987-ci il martın 18-də Şirvan şəhərində anadan olmuşdur. 2004-cü ildə Şirvan şəhər 13 nömrəli tam orta məktəbi bitirmişdir.

2005–2007-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.





**TƏHMƏZOV FAİQ SABİR OĞLU**



1986-cı il avqustun 1-də Ermənistan Respublikasında anadan olmuşdur.

2004-cü ildə Bakı şəhəri, Binəqədi rayonunun 244 nömrəli tam orta məktəbini bitirmişdir.

2004–2006-cı illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.

**YUSİFOV ELÇİN FAİQ OĞLU**



1997-ci il iyulun 10-da Tovuz rayonunun Böyük Qışlaq kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Texniki Universitetində 2018-ci ildə bakalavr, 2020-ci ildə isə magistr pilləsi üzrə ali təhsilini başa vurmuşdur.

Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olarkən 2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir.



**ZƏRBİYEV MƏTLƏB MƏHƏBBƏT OĞLU**

1993-cü il sentyabrın 8-də Şirvan şəhərində anadan olmuşdur. 2014-cü ildə Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecini bitirmişdir.

2014–2016-cı illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin sentyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



**ABDULLAYEV RZA MURTUZ OĞLU**

1986-cı il iyunun 4-də Bakı şəhərində anadan olmuşdur. Buzovna qəsəbəsindəki 125 saylı tam orta məktəbi bitirmişdir.

2004–2006-cı illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin oktyabr ayından Vətən müharibəsində iştirak etmişdir.





**AĞACANOV CAVAD MÜBARİZ OĞLU**

1991-ci il martın 8-də Sabirabad rayonunun Qaragüney kəndində anadan olmuşdur. 2008-ci ildə Qaragüney kənd orta məktəbini bitirmişdir.

2009–2010-cu illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin oktyabr ayından Vətən müharibəsində iştirak etmişdir.



**ATAMOĞLANOV NƏSİR ƏSƏDULLA OĞLU**

1975-ci il iyunun 24-də Salyan rayonu Qarabağlı kəndində anadan olmuşdur. 1992-ci ildə Cəmşid Naxçıvanski adına İbtidai hərbi məktəbi bitirmişdir.

1992–1996-cı illərdə Bakı Ali Hərbi Birləşmiş Komandanlıq məktəbində hərbi təhsil almışdır.

2020-ci ilin oktyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Mayor Nəsir Atamoğlanov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.





**BƏDƏLLİ RAMİL BƏDƏL OĞLU**

1997-ci il iyunun 3-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2014–2018-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetində ali təhsil almışdır.

2018–2019-cu illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin oktyabr ayından Vətən müharibəsində iştirak etmişdir.



**DƏRGAHQULİYEV RÖYAL NİYAZ OĞLU**

1987-ci il oktyabrın 1-də Gürcüstan Respublikasında anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2006–2010-cu illərdə Bakı Asiya Universitetində ali təhsil almışdır.

2010–2012-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin oktyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.





**ƏBİLOV İLYAS QÜDRƏT OĞLU**



1977-ci il iyunun 2-də Şirvan şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1994–1998-ci illərdə Ali Hərbi Dənizçilik məktəbində hərbi təhsil almışdır.

1998–2006-cı illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində həqiqi hərbi xidmət etmişdir.

Kapitan İlyas Əbilov 2020-ci ilin oktyabr ayından Vətən müharibəsində iştirak etmişdir.

**ƏHMƏDOV FƏRİD VİDADİ OĞLU**



1996-cı il iyunun 3-də Belarus Respublikasının Mogilyov şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2013–2017-ci illərdə Azərbaycan Universitetində ali təhsil almışdır.

2017–2018-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin oktyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.



**ƏHMƏDOV KAMİL ABDULLA OĞLU**

1986-cı il martın 11-də Sumqayıt şəhərində anadan olmuşdur. 2004-cü ildə Sumqayıt şəhər 25 nömrəli tam orta məktəbi bitirmişdir.

2005–2007-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin oktyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.



**ƏLİYEV HƏSƏN GÜLBALA OĞLU**

1987-ci il oktyabrın 18-də Şirvan şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2005–2009-cu illərdə Sumqayıt Dövlət Universitetində ali təhsil almışdır.

2009–2010-cu illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin oktyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.







**ƏLİYEV RƏŞAD SALEH OĞLU**

1995-ci il fevralın 18-də Gəncə şəhərində anadan olmuşdur. 2014-cü ildə 2 nömrəli Gəncə Peşə liseyini bitirmişdir.

2013–2014-cü illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin oktyabr ayından Vətən müharibəsində iştirak etmişdir.



**ƏLİYEV RUSLAN ADİLXAN OĞLU**

1977-ci il martın 31-də Gürcüstanın Bolnisi rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1998-ci ildə Gəncə şəhərində Azərbaycan Dövlət Kənd Təsərrüfatı Akademiyasında ali təhsil almışdır.

1999–2000-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir. 2020-ci ilin oktyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Qubadlı rayonunun azad olunması uğrunda gedən döyüşdə yaralanmışdır. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə baş leytenant Ruslan Əliyev "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.




**HƏSƏNLİ TURXAN ŞAKİR OĞLU**

1991-ci il mayın 18-də Daşkəsən rayonunun Əmirvar kəndində anadan olmuşdur. 2009-cu ildə Əmirvar kənd orta məktəbini bitirmişdir.

2009–2011-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin oktyabr ayından Vətən müharibəsində iştirak etmişdir.



**HƏSƏNOV AĞASƏLİM ARİF OĞLU**

1997-ci il mayın 14-də Bakı şəhərində anadan olmuşdur. 2014-cü ildə Bakı şəhəri, Sabunçu rayonu, Ramana qəsəbəsi 316 nömrəli tam orta məktəbini bitirmişdir.

2015–2017-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin oktyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.



TARİX YAZAN QƏHRƏMANLAR

**HÜSEYNOV ORXAN ÇİNGİZ OĞLU**



1998-ci il oktyabrın 21-də Şirvan şəhərində anadan olmuşdur. 2016-cı ildə Şirvan şəhər 11 nömrəli tam orta məktəbi bitirmişdir.

2017–2018-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin oktyabr ayından Vətən müharibəsində iştirak etmişdir.

**İSMAYILOV TURAL TEYYUB OĞLU**




1991-ci il yanvarın 24-də Bakı şəhərində anadan olmuşdur. 2009-cu ildə Bakı şəhərinin Suraxanı rayonunda müvəqqəti yerləşmiş Kəlbəcər rayon 12 nömrəli tam orta məktəbi bitirmişdir. 2009–2011-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin oktyabr ayından Vətən müharibəsində iştirak etmişdir. 2020-ci ilin noyabr ayında Şuşa şəhərinin azad olunması uğrunda gedən döyüşdə çoxsaylı qəlpə yarası almışdır. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



## MURSALİYEV QADİR XATİR OĞLU

1994-cü il sentyabrın 1-də İsmayıllı rayonunun Topçu kəndində anadan olmuşdur.

2011-ci ildə Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzini bitirmişdir.

2012–2014-cü illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin oktyabr ayından Vətən müharibəsində iştirak etmişdir.



## MUSABALIYEV RƏŞAD MUXTAR OĞLU

1996-cı il dekabrın 29-da Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2010–2014-cü illərdə Milli Aviasiya Akademiyasında ali təhsil almışdır.

2015–2017-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin oktyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.





## MUSAYEV AĞAMURAD ZAHİD OĞLU



1996-cı il iyulun 20-də Bakı şəhərində anadan olmuşdur. 2012-ci ildə 2 nömrəli Bakı Peşə liseyini, 2016-cı ildə Bakı Pedaqoji Kollecini bitirmişdir.

2016–2018-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin oktyabr ayından Vətən müharibəsində iştirak etmişdir.

## NAĞIYEV CEYHUN TALEH OĞLU



1991-ci il aprelin 13-də Şirvan şəhərində anadan olmuşdur. 2008-ci ildə Şirvan şəhər 10 nömrəli tam orta məktəbi bitirmişdir.

2009–2011-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin oktyabr ayından Vətən müharibəsində iştirak etmişdir.



**SEYFULLAYEV YADULLA ƏSƏD OĞLU**

1981-ci il noyabrın 7-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1998–2002-ci illərdə Azərbaycan Ali Hərbi Məktəbində təhsil almışdır.

Müdafiə Nazirliyinin müxtəlif hərbi hissələrində həqiqi hərbi xidmət etmişdir.

Mayor Yadulla Seyfullayev 2020-ci ilin oktyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Hərbi xidmətlərə görə", "Füzuli azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



**ŞAHBAZOV SAMİR MƏHƏMMƏD OĞLU**

1986-cı il noyabrın 12-də Sabirabad rayonunun Nizami kəndində anadan olmuşdur. 2004-cü ildə Şirvan şəhər 20 nömrəli tam orta məktəbi bitirmişdir.

2004–2006-cı illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin oktyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.





**BAYRAMOV ARZU ASLAN OĞLU**



1997-ci il aprelin 27-də Samux rayonunun Qarayeri qəsəbəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2014–2018-ci illərdə Gəncə Dövlət Universitetində ali təhsil almışdır.

2019–2020-ci illərdə Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin noyabr ayından Vətən müharibəsində iştirak etmişdir.

**ƏHMƏDOV İSFƏNDİYAR FƏRMAN OĞLU**



1984-cü il noyabrın 21-də Sumqayıt şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Sumqayıt Dövlət Universitetində 2002–2006-cı illərdə ali təhsil almışdır.

2006–2008-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir. 2006-cı ildə zabit kurslarını bitirmişdir.

Baş leytenant İsfəndiyar Əhmədov 2020-ci il oktyabr ayından Vətən müharibəsində iştirak etmişdir.



**FƏTULLAYEV RAFİS YADULLA OĞLU**

1977-ci il yanvar ayının 21-də Sabirabad rayonunun Nizami kəndində anadan olmuşdur.

1995-ci ildə Cəmşid Naxçıvanski adına Bakı İbtidai Hərbi məktəbini bitirmişdir.

1995–1996-cı illərdə Bakı Ali Hərbi Birləşmiş Komandanlıq məktəbində ali hərbi təhsil almışdır.

Kapitan Rafis Fətullayev 2020-ci ilin noyabr ayından Vətən müharibəsində iştirak etmişdir.



**HƏSƏNOV XALİD NOVRUZ OĞLU**

1999-cu il aprelin 14-də Bakı şəhəri, Sabunçu rayonunun Maştağa qəsəbəsində anadan olmuşdur.

2016-cı ildə 12 nömrəli Bakı Peşə liseyini bitirmişdir.

2017–2018-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin noyabr ayından Vətən müharibəsində iştirak etmişdir.





**XƏLİLOV ASİMAN NƏSRƏDDİN OĞLU**

1995-ci il may ayının 31-də Bakı şəhərində anadan olmuşdur.

2012-ci ildə 5 nömrəli Bakı Peşə məktəbini bitirmişdir.

2013–2015-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin noyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.



**İSAQOV TURAL ƏLİƏKRƏM OĞLU**

1992-ci il fevralın 13-də Bakı şəhərində anadan olmuşdur. 2009-cu ildə Buzovna qəsəbəsindəki 322 nömrəli tam orta məktəbi bitirmişdir.

2010–2012-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində kiçik çavuş rütbəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin noyabr ayından Vətən müharibəsində iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.





**NƏHMƏTOV VÜSAL BAYRƏM OĞLU**

1984-cü il aprelin 15-də Yardımlı rayonunun Mişkireyin kəndində anadan olmuşdur.

2001-ci ildə Mişkireyin kənd orta məktəbini bitirmişdir.

2002–2004-cü illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin noyabr ayından Vətən müharibəsində iştirak etmişdir.



**NOVRUZOV SÜLEYMAN RÖVŞƏN OĞLU**

2000-ci il aprelin 14-də Gəncə şəhərində anadan olmuşdur. 2018-ci ildə 3 nömrəli Gəncə Peşə liseyini bitirmişdir.

2018–2020-ci illərdə Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

2020-ci ilin noyabr ayından Vətən müharibəsində iştirak etmişdir.



## AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİ BÜTÖVLÜYÜNÜN MÜDAFİƏSİ İLƏ ƏLAQƏDAR YARALANANLARIN VƏ ŞƏHİD AİLƏLƏRİNİN TƏMİNATINA DƏSTƏK FONDUNUN ("YAŞAT" FONDU) YARADILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# FƏRMANI

Azərbaycan Respublikasının Silahlı Qüvvələri ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərin azad edilməsi uğrunda aparılan döyüşlərdə əsl qəhrəmanlıq nümunəsi, misilsiz şücaət və rəşadət göstərmişlər. Xalqımızın bir sıra igid övladları işğalçı düşmənə qarşı həyata keçirilən əməliyyatlar zamanı şəhid olmuş, sağlamlığını itirmişlər.

Azərbaycan Respublikasında hərbi qulluqçuların və şəhid ailələrinin sosial müdafiəsi və onların rifahının yaxşılaşdırılması daim dövlət siyasətinin əsas tərkib hissəsi olmuşdur. Bu istiqamətdə geniş dövlət dəstəyi mexanizmləri formalaşdırılmış, onlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşlar.

Bununla yanaşı, şəhid ailələrinin və Vətənin müdafiəsində iştirak edən şəxslərin maddi-sosial vəziyyətinin yaxşılaşdırılması daim vətəndaş cəmiyyətinin də diqqət mərkəzindədir. Azərbaycan xalqı xeyirxahlıq, fədakarlıq və humanizm prinsiplərini rəhbər tutaraq, təmənnasız kömək ənənələrini davam etdirir, vətəndaşlarımız, xarici ölkələrdə yaşayan soydaşlarımız, sahibkarlar, humanitar və digər təşkilatlar şəhid ailələrinin və hərbi əməliyyat iştirakçılarının zəruri ehtiyaclarının təmin edilməsinə, maddi, tibbi və digər sosial xərclərinin ödənilməsinə yardım sahəsində həmrəylik nümayiş etdirirlər.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platformanın yaradılması, bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsi məqsədilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu – "YAŞAT" Fondu (*bundan sonra* – Fond) yaradılsın.

**2.** "Fondun vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə Qaydası" təsdiq edilsin (əlavə olunur).

**3.** Müəyyən edilsin ki:

**3.1.** Fond aşağıdakı şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi (maliyyə yardımlarının göstərilməsi və digər dəstək tədbirlərinin həyata keçirilməsi) üçün şəffaf, effektiv və əlçatan platformanın formalaşdırılması məqsədilə yaradılır:

**3.1.1.** Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara və şəhid olmuş şəxslərin ailələrinin üzvlərinə;

**3.1.2.** işğaldan azad edilmiş ərazilərdə xidməti vəzifələrini yerinə yetirərkən, habelə hərbi əməliyyatlar bitdikdən sonra onun nəticələrinin aradan qaldırılmasında iştirak etməsi nəticəsində əlilliyi müəyyən olunmuş dövlət orqanlarının (qurumlarının) əməkdaşlarına və ya həlak olmuş əməkdaşların ailə üzvlərinə;

**3.2.** Fondun vəsaiti Azərbaycan Respublikası vətəndaşlarının, xarici ölkələrdə yaşayan soydaşlarımızın, digər fiziki və hüquqi şəxslərin könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımlar (ianələr), habelə qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşdırılır;

**3.3.** Fondun vəsaitinin sərəncamçısı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyidir (*bundan sonra* – Dövlət Agentliyi);

**3.4.** Fondun vəsaitinin formalaşdırılmasına və idarə olunmasına ümumi nəzarəti Azərbaycan Respublikası Prezidentinin yaratdığı Himayəçilik Şurası həyata keçirir.

**4.** Himayəçilik Şurası:

**4.1.** Fondun vəsaitinin formalaşdırılmasına və xərclənməsinə nəzarəti həyata keçirir;

**4.2.** Fondun vəsaitinin formalaşdırılması və xərclənməsi istiqamətlərinə dair müzakirələr aparır, habelə daxil olan vəsaitin məbləği nəzərə alınmaqla, onun xərc istiqamətlərini müəyyən edir;



TARİX YAZAN QƏHRƏMANLAR

**4.3.** Fondun vəsaitinin idarə edilməsi ilə bağlı kənar auditor yoxlamalarının keçirilməsinə dair tədbirlər görür;

**4.4.** Fondun vəsaitinin idarə edilməsi ilə bağlı digər məsələləri həll edir.

**5.** Fondun vəsaitlərinin idarə edilməsinin təmini üçün Dövlət Agentliyinin işçilərinin say həddi 20 ştat vahidi artırılsın.

**6.** Dövlət Agentliyi:

**6.1.** bu Fərmanın 3.1-ci bəndində nəzərdə tutulmuş şəxslərin müraciətlərinin qəbulunu və onlara baxılmanı təmin etsin;

**6.2.** fiziki və hüquqi şəxslərin Fonduna könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımların (ianələrin) bank və ya poçt vasitəsilə, eləcə də elektron qaydada qəbulunu təşkil etsin;

**6.3.** Fondun vəsaitlərinin idarə edilməsini və əlavə dəstək tədbirlərinin həyata keçirilməsini təmin edən informasiya sistemini formalaşdırsın;

**6.4.** Fondun vəsaitlərinin idarə olunması ilə bağlı elektron hesabatlılığı, habelə daxil olan və xərclənən vəsaitin məbləği və istiqamətləri ilə bağlı məlumatların Fondun rəsmi internet səhifəsində yerləşdirilməsini və daim yenilənməsini təmin etsin;

**6.5.** Fond vasitəsilə həyata keçirilən tədbirlərə könüllüləri cəlb etsin;

**6.6.** Fondun vəsaitindən istifadəyə dair Himayəçilik Şurasına təkliflər versin;

**6.7.** Fondun vəsaitinin idarə edilməsinə dair yarımillik və illik hesabatları, habelə digər zəruri məlumatları Himayəçilik Şurasına təqdim etsin.

**7.** Dövlət Agentliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Fərmanın 3.1-ci bəndində nəzərdə tutulmuş şəxslərə Fond vasitəsilə göstərilən dəstək tədbirlərinin həmin şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərlə uzlaşdırılmasını, habelə bu sahədə informasiya mübadiləsini təmin etmək üçün müvafiq informasiya sistemlərinin inteqrasiyasını təşkil etsinlər.

**8.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 8 dekabr 2020-ci il**

# XOŞBƏXT ADAMAM Kİ, ATA VƏSİYYƏTİNİ YERİNƏ YETİRDİM!



Virtual keçid

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, MÜZƏFFƏR ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEVİN XALQA MÜRACİƏTİ

08.11.2021

– Əziz həmvətənlər, əziz bacılar və qardaşlar!

Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.

28 il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu bizim şanlı qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox. Mən dəfələrlə demişəm, bütün bəyanatlara rəğmən ki, bu münaqişənin – Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolları da vardır və bu gün biz bunu döyüş meydanında sübut edirik. 30 ilə yaxın mənasız danışıqlar bizi heç bir nəticəyə yaxınlaşdırmadı. Əzəli tarixi torpaqlarımız 30 ilə yaxın işğal altında qaldı. Danışıqlar prosesində Ermənistan tərəfi, sadəcə olaraq, vaxt udmaq istəyirdi, sadəcə olaraq, status-kvonu möhkəmləndirmək, əbədi etmək istəyirdi. Bu illər ərzində dəfələrlə Azərbaycana müxtəlif güc mərkəzlərindən göndərilən siqnallar bizi vəziyyətlə barışmağa sövq edib. Ancaq biz qətiyyət, cəsarət, siyasi iradə göstərərək Azərbaycan xalqının maraqlarına cavab verməyən heç bir razılaşmaya getmədik. Mən dəfələrlə bütün beynəlxalq kürsülərdən bəyan etmişdim ki, torpaqlarımızın, ərazi bütövlüyümüzün bərpa edilməsi bizim əsas vəzifəmizdir və biz bu vəzifəni icra edirik. Danışıqlar heç bir nəticə vermədi. Sadəcə olaraq, bizim başımızı aldadırdılar, sadəcə olaraq, məsələni dondurmaq istəyi müşahidə olunurdu. Biz bu Qələbəni döyüş meydanında qazandıq, şəhidlər verərək bu Qələbəni qazandıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Həm Birinci Qarabağ, həm İkinci Qarabağ – Vətən müharibəsi adlandırdığımız müharibədə şəhid olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, onların yaxınlarına səbir diləyirəm. Yaralı soydaşlarımıza Allahdan şəfa diləyirəm. Biz xalqımızın, əsgərlərimizin, zabitlərimizin canı, qanı bahasına torpaqlarımızı işğalçılardan azad edirik. İşğalçıları torpaqlarımızdan qovuruq və qovacağıq!

Şuşa 28 il yarım işğal altında idi. Şuşanın Azərbaycan tarixində xüsusi yeri vardır. Bu bizim qədim, tarixi şəhərimizdir. Əsrlər boyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi dağıtdı, bizim məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik, bütün məscidləri bərpa edəcəyik, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir. Bir neçə il bundan əvvəl – 2016-cı ilin Aprel döyüşlərindən sonra işğaldan azad edilmiş Cocuq Mərcanlı qəsəbəsində mənim göstərişimlə tikilmiş məscidin

açılışında bəyan etmişdim ki, bu məscid Şuşa məscidinin bənzəridir, ölçülərinə, memarlıq üslubuna görə eynidir. Demişdim ki, gün gələcək, biz Şuşa şəhərində erməni vandalları tərəfindən dağıdılmış məscidlərimizi bərpa edəcəyik və bu gün gəlir. Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır. Bu gün bütün Azərbaycan xalqı qürur hissi ilə bu xoş xəbəri qarşılayır.

Biz güc toplayırıq, məqsədyönlü şəkildə, yorulmadan, bütün təzyiqlərə baxmayaraq, güc toplayırıq və toplamışıq. İqtisadi güc. Əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək mümkün olmazdı. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi və təmin edildi. Bu gün Azərbaycan iqtisadi cəhətdən heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. Müstəqilik və bu bizə imkan verdi ki, ölkəmizi inkişaf etdirək, eyni zamanda ordumuzu gücləndirək. Biz ordumuz üçün lazım olan bütün hərbi texnikanı, silahları xarici bazarlardan alırıq. Əgər bizim iqtisadi imkanlarımız olmasaydı, biz bunları necə əldə edə bilərdik? Biz ölkə daxilində uğurlu siyasət apararaq, hesab edirəm ki, ölkəmizdə dünya üçün çox nadir inkişaf modelini yaratdıq. Daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşməyimiz bizə əlavə güc verdi, imkan vermədi ki, bəzi mənfur xarici dairələr öz çirkin planlarını Azərbaycanda həyata keçirsinlər. Halbuki belə planlar var idi, belə cəhdlər var idi. Biz siyasi iradə göstərərək, birlik göstərərək bu cəhdləri dəf etdik, xalq olaraq, millət olaraq öz qürurumuzu müdafiə etdik, öz müstəqil seçimimizi müdafiə etdik və sübut etdik ki, heç kim bizim işimizə qarışmasın və qarışa bilməz. Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Bu illər ərzində bizə qarşı aparılan qara piar kampaniyası, qarayaxma, şər-böhtan kampaniyasının da əsas məqsədi o idi ki, bizi əsas vəzifəmizdən uzaqlaşdırsınlar, biz uzaqlaşaq, daxili problemlər içində boğulaq və işğal edilmiş torpaqlar işğalçıların əlində əbədi qalsın. Güclü siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi.

Qələbəmizin üçüncü əsas amili beynəlxalq səviyyədəki uğurlarımızdır. Biz bütün dünyaya sübut etdik ki, Qarabağ əzəli Azərbaycan torpağıdır. Sübut etdik ki, əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb. Sübut etdik ki, erməni əhalisi bu torpaqlara 200 il bundan əvvəl köçürülübdür, necə köçürülübdür, hansı məqsədlərlə köçürülübdür, hamısını biz dünya ictimaiyyətinə təqdim etdik, sübutlarla – faktlarla. Biz sübut etdik ki, Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır və bu məsələ beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Dünyanın bütün aparıcı təşkilatları, bütün beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli qətnamələr, qərarlar qəbul edibdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının qətnamələri, Qoşulmama Hərəkatının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatının qətnamələri, Avropa Parlamentinin qətnamələri və digər beynəlxalq təşkilatların qərar və qətnamələri birmənalı şəkildə Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdı. Bu bizə əlavə güc verdi. Əgər biz bunu etməsəydik, bu gün münaqişənin ətrafında cərəyan edən proseslər bizə böyük problemlər yarada bilərdi. Biz bu illər ərzində bir çox ölkə-







lərlə səmimi, işgüzar, qarşılıqlı hörmət əsasında münasibətlər qura bildik, bir çox ölkələr Azərbaycanı strateji tərəfdaş hesab edir və artıq bu ifadə beynəlxalq sənədlərdə öz əksini tapır. Biz bütün qonşu ölkələrlə səmimi dostluq əsasında münasibətlər qura bildik, qarşılıqlı hörmət, qarşılıqlı inam əsasında. Əgər biz bunu etməsəydik, bu gün münaqişə ətrafında tam başqa proseslər gedə bilərdi.

Şuşa işğal altına düşəndə bizim əsas problemlərimiz həm o idi ki, ordumuz yox idi, rəhbərlik öz vəzifə borcunu yerinə yetirə bilmirdi. Beynəlxalq müstəvidə Azərbaycan, demək olar ki, bütün ölkələrlə münasibətləri gərginləşdirmişdi. Biz, demək olar ki, təcrid edilmiş vəziyyətdə idik. Ancaq bu gün biz Ermənistanı təcrid edilmiş vəziyyətə saldıq. Bizim transmilli layihələrimiz regionda tamamilə yeni mənzərə yaratdı. Biz regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdik. Bizim təşəbbüsümüzlə reallaşan layihələr təkcə bizim xalqımızın maraqlarını təmin etmir, bir çox ölkələrin maraqlarını təmin edir, o cümlədən region ölkələrinin. Qonşu ölkələrlə bizim həm ikitərəfli, həm üçtərəfli əməkdaşlıq formatlarımız vardır. Bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunu böyük dərəcədə gücləndirdi. Əgər bu nailiyyətlər olmasaydı, problem dondurulmuş vəziyyətdə qala bilərdi.

Nəhayət və ilk növbədə, ordu quruculuğu. Bu 17 il ərzində mənim işimin əsas hissəsi ordu quruculuğuna həsr edilmişdir ki, biz ordumuzu necə gücləndirək, ordumuzu ən müasir silahlarla təchiz edək. O da asan məsələ deyildi. O silahları almaq üçün təkcə maddi vəsait kifayət etmir. Eyni zamanda diplomatik, siyasi səylər göstərilməlidir və biz buna da nail olduq. Bu gün Azərbaycan öz hərbi təchizatını bir çox ölkələrdən təmin edir. Eyni zamanda mənim təşəbbüsümlə Azərbaycanda müdafiə sənayesi yaradıldı. Biz ordumuzun tələbatını böyük dərəcədə daxili istehsal hesabına təmin edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir, o cümlədən ən müasir məhsullar. Budur bizim fəaliyyətimiz. Ordu quruculuğu, hərbçilərin maddi-məişət problemlərinin həlli, təqaüdə çıxmış hərbçilərin məişət problemlərinin dövlət tərəfindən həll olunması, onlara mənzillərin verilməsi, hərbçilərimizin iş şəraitinin yaxşılaşdırılması. Biz, demək olar ki, bütün hərbi şəhərciklərimizi, hərbi bazalarımızı yenidən qurduq və onlar ən yüksək standartlara cavab verir. Əlbəttə, ilk növbədə, döyüş qabiliyyəti. Döyüş qabiliyyəti artdı. Azadlıq meydanında dəfələrlə keçirilmiş hərbi paradlar bütün dünyaya bizim gücümüzü göstərdi.

Döyüş qabiliyyətinin artırılması ordu quruculuğu sahəsində əsas amildir. Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik. Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir. Eşq olsun bizim əsgərlərimizə!

Bax belə ordu yaratmışıq biz! Deyirdik işğalçılara, deyirdik, düz yola gəlin, işğala son qoyun, hələ ki gec deyil. Ona görə bizim bütün dövrlərdəki siyasətimiz birmənalı olub. Demişik ki, əgər məsələ sülh yolu ilə öz həllini tapmasa, hərbi yolla məsələni həll edəcəyik. Mən bunu dəfələrlə demişəm. Buna görə də tənqid olunmuşam bəzi ölkələr tərəfindən. Mən demişəm ki, bəs bizim torpaqlarımız məgər hərbi yolla zəbt edilməyibmi? Ermənistan





bizim torpaqlarımızı sülh yolu iləmi zəbt edib? Hər bir ölkənin özünümüdafiə hüququ var. Bu hüququ bizə BMT Nizamnaməsi verir. Mən demişdim, əgər görsəm ki, danışıqlar artıq tamamilə səmərəsizdir, bizim başqa yolumuz qalmayacaq. Bunu hamı bilsin – düşmən, onun havadarları və bu məsələ ilə məşğul olan vasitəçilər. Həmişə sözümün üstündə durmuşam. Azərbaycan xalqına nə demişəmsə, onu da etmişəm. Bu məsələdə də sözümün üstündə durdum və artıq biz qələbəni qeyd edirik.

Sentyabrın 27-dən bu günə qədər 200-dən çox şəhər, kənd, qəsəbə işğaldan azad edildi. O cümlədən Füzuli şəhəri, tamamilə darmadağın edilmiş, bir dənə də salamat bina qoymayıb mənfur düşmən. Cəbrayıl tamamilə dağıdılmış. Qubadlı, Zəngilan tamamilə dağıdılmış. Kəndlər, şəhərlər, Hadrut qəsəbəsi, Suqovuşan qəsəbəsi və bu gün Şuşa şəhəri.

Bizim zəfər yürüşümüz davam edir. Hələ də işğal altında torpaqlar var, hələ də döyüşlər gedir. Əgər Ermənistan rəhbərliyi mənim tələblərimə cavab verməsə, sona qədər gedəcəyik. Heç kim bizi dayandıra bilməz. Dünyada elə qüvvə yoxdur ki, bizi dayandıra bilsin. Ermənistan artıq öz acı məğlubiyyətini etiraf edib, özünü alçalda-alçalda, xalqını təhqir edə-edə. Ermənistan rəhbərliyi indi dünya ölkələrindən yardım istəyir, hərbi yardım istəyir, silah, texnika istəyir. Bəs hanı sənin yenilməz ordun? Məhv etmişik onu. Onların bütün sözləri, onların bütün bəyanatları mif idi, yalan idi. Yenilməz ordu Azərbaycan Ordusudur! Bunu döyüş meydanında göstərir, düşməni torpaqlardan təkbaşına qovur. Otuz il ərzində milyardlarla dollar xərclənib oraya, istehkamlar qurulub, mühəndislik qurğuları inşa edilib. Amma hamısını vurub dağıtmışıq – mənəvi ruh, güc hesabına, birlik hesabına!

Bir daha demək istəyirəm ki, bizim zəfər yürüşümüz davam edir. İşğal edilmiş bütün torpaqlardan düşmən qüvvələri çıxarılmalıdır. Bu bizim tələbimizdir. Beynəlxalq norma və prinsiplər, beynəlxalq təşkilatların qərar, qətnamələri bunu tələb edir.

Əziz bacılar və qardaşlar, bu gün bu müjdəni mən burada – Şəhidlər xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu, təbiidir. Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm. Bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının, Xocalı qurbanlarının qanı yerdə qalmır. İntiqamımızı döyüş meydanında aldıq. Biz mülki vətəndaşlara qarşı heç vaxt müharibə aparmamışıq, bu dəfə də aparmamışıq. Baxmayaraq ki mənfur düşmən 93 mülki şəxsi namərd atəşlə öldürüb, 400-dən çox mülki şəxs yaralanıb. Amma mən dedim, yox, biz azərbaycanlıyıq! Biz intiqamımızı döyüş meydanında alacağıq və alırıq! Onların ordusunu məhv etmişik, texnikasını məhv etmişik, məhv edirik və edəcəyik. Düşməni qovuruq və qovacağıq!

Mən bu gün eyni zamanda Ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!

Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyifsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər

böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!

Bu günlərdə dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim, yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə-belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda bu yumruq birliyimizin rəmzidir. Bax bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində – 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu mənə güc verir. Bu mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam.

Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda, bəlkə də, ən xoşbəxt günlərimdən biridir.

**Əziz Şuşa, sən azadsan!**

**Əziz Şuşa, biz qayıtmışıq!**

**Əziz Şuşa, biz səni dirçəldəcəyik!**

**Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi "Twitter" səhifəsindən**



İlham Aliyev @azpresident · Nov 8

Mən xoşbəxt insanam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik!
Bu, böyük Qələbədir!
Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır!
Gözün aydın olsun, Azərbaycan!




Koronavirus
COVID-19







# İŞĞALDAN AZAD EDİLMİŞ ŞƏHƏR, QƏSƏBƏ VƏ KƏNDLƏRİMİZ

Ordumuzun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 10-dək Azərbaycanın 300-ə yaxın yaşayış məntəqəsi işğaldan azad edilmişdir.

Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəkliyi, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik düşməndən təmizlənmişdir.

27 sentyabr 2020-ci il

- Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər

3 oktyabr 2020-ci il

- Tərtər rayonunun Suqovuşan və Talış kəndləri

4 oktyabr 2020-ci il

- Cəbrayıl şəhəri

9 oktyabr 2020-ci il

- Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi

17 oktyabr 2020-ci il

- Füzuli şəhəri

18 oktyabr 2020-ci il

- Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı.

20 oktyabr 2020-ci il

- Zəngilan şəhəri

25 oktyabr 2020-ci il

- Qubadlı şəhəri

8 noyabr 2020-ci il

- Şuşa şəhəri

10 noyabr 2020-ci il

- Noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalayıblar. Bəyanata əsasən, 2020-ci il dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonları Azərbaycana qaytarılmalıdır.

20 noyabr 2020-ci il

- Üçtərəfli bəyanata əsasən, Ağdam rayonu Azərbaycana qaytarılıb.

25 noyabr 2020-ci il

- Üçtərəfli bəyanata əsasən, Kəlbəcər rayonu Azərbaycana qaytarılıb.

1 dekabr 2020-ci il

- Üçtərəfli bəyanata əsasən, Laçın rayonu Azərbaycana qaytarılıb.





# BİZ BİRLİK, İRADƏ, ƏZMKARLIQ, MİLLİ RUH GÖSTƏRƏRƏK TARİXİ MİSSİYAMIZI YERİNƏ YETİRDİK!



Virtual keçid

2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan paradda iştirak etmişlər.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİN ALİ BAŞ KOMANDANI İLHAM ƏLİYEVİN PARADDA ÇIXIŞI

– Hörmətli Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan!

Əziz hərbçilər!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

İlk növbədə, xahiş edirəm ki, Vətən müharibəsində həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilsin.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Bu gün tarixi bir gündür. Bu gün Azadlıq meydanında Zəfər paradı keçirilir. Mən çox şadam ki, bu paradda mənim dəvətimi qəbul edərək Türkiyə Cümhuriyyətinin Cümhurbaşqanı, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan iştirak edir. Eyni zamanda Türkiyədən gəlmiş böyük nümayəndə heyəti, türk əsgər və zabitləri iştirak edirlər. Bu bir daha bizim birliyimizi, dostluğumuzu və qardaşlığımızı göstərir.

Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda bütün dünyaya göstəririk.

Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq.

Azərbaycan əraziləri 30 ilə yaxın işğal altında idi. 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti torpaqlarımızın işğal altına düşməsinə səbəb olmuşdu. Əslində, Ermənistanın təcavüzkar siyasəti hələ 1980-ci illərin sonlarından başlamışdı. O vaxt indiki Ermənistan Respublikasında yaşamış yüz minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salındı. Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır. Bizim xalqımız bu torpaqlarda əsrlər boyu yaşayıb, ancaq Ermənistan rəhbərliyi o vaxt yüz minlərlə azərbaycanlını öz doğma torpaqlarından didərgin salmışdır. Ondan



sonra Dağlıq Qarabağda eyni mənzərə müşahidə olunurdu, Ermənistan tərəfi zor gücü ilə Azərbaycanın dinc əhalisinə qarşı hərbi cinayət törətmişdir, Xocalı soyqırımını törətmişdir. Ondan sonra 1992-ci ilin may ayında Şuşa şəhərinin və Laçın şəhərinin işğala məruz qalması Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdı. 1993-cü ilin aprel ayında Kəlbəcər rayonunun işğal altına düşməsi bizim vəziyyətimizi daha da ağırlaşdırdı və faktiki olaraq, sonrakı işğalçılıq siyasətinin davam etdirilməsinə səbəb oldu.

Biz uzun illər bütün beynəlxalq tədbirlərdə bu məsələ ilə bağlı həqiqətləri çatdırırdıq, böyük iş aparılmışdır və bu işin səmərəsi oldu. Baxmayaraq ki biz ərazi bütövlüyümüzü döyüş meydanında qazandıq, hesab edirəm ki, son illər ərzində apardığımız siyasi və diplomatik səylər öz bəhrəsini verdi, bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıdı və bunu dəstəklədi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti və digər təşkilatlar Azərbaycanın haqq işini dəstəklədi. Beləliklə, münaqişənin həlli üçün hüquqi zəmin yaradılmışdır. Eyni zamanda bizim məqsədyönlü səylərimiz nəticəsində münaqişə ilə bağlı, Qarabağın tarixi ilə bağlı dünya ictimaiyyətinə dolğun məlumat çatdırıldı, Ermənistanın yalançı təbliğatına son qoyuldu və bütün dünya gördü ki, Qarabağ





bizim əzəli, tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, qurub-yaradıb, eyni zamanda bütün dünya görüb ki, beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

Biz bu illər ərzində güc toplayırdıq, həm siyasi müstəvidə, beynəlxalq təşkilatlar çərçivəsində, həm də ölkə daxilində iqtisadiyyatımızı gücləndirirdik, biz ordumuzu gücləndirirdik. Bunun nəticəsində Azərbaycan son illər ərzində çox uğurlu inkişaf yolu keçmişdir və ildən-ilə bizim üstünlüyümüz özünü daha qabarıq şəkildə büruzə verirdi. Ermənistan bizimlə rəqabət apara bilmədi. Mən son 17 il ərzində dəfələrlə demişdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan işğalçı qüvvələrini çıxarmasa, biz bu məsələni hərbi yollarla həll edəcəyik. Mən 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs Qurani-Kərimə əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi.

Biz dünyada gedən prosesləri diqqətlə izləyirdik və görürdük ki, son illərdə beynəlxalq hüquq və prinsiplər kobudcasına pozulur. Bəzi ölkələr güc tətbiq edərək öz məqsədlərinə çatırlar, beynəlxalq hüquq kağızda qalır, BMT Təhlükəsizlik Şurasının qətnamələri kağızda

qalır. Belə olan halda münaqişənin hərbi yollarla həll edilməsi qaçılmaz idi. Bundan əlavə, son illər ərzində, xüsusilə son 2 il ərzində Ermənistanın təxribatçı addımları, bəyanatları, hərəkətləri müharibəni qaçılmaz etmişdi. Ermənistan rəhbərliyinin çox zərərli və təhlükəli bəyanatları, demək olar ki, danışıqlara son qoymuşdu. "Qarabağ Ermənistandır" deməklə Ermənistan rəhbərliyi danışıqlara son qoymuşdu. Bizim tarixi torpaqlarımızda xaricdən gətirilmiş erməniləri məskunlaşdırmaq hərbi cinayətdir, beynəlxalq konvensiyalara ziddir. Bu, faktiki olaraq, danışıqlara son qoyurdu, danışıqları mənasız edirdi və biz bunu görürdük, hiss edirdik və öz sözümüzü beynəlxalq kürsülərdən dünya ictimaiyyətinə çatdırırdıq. Bu ilin sentyabr ayında, müharibəyə 3 gün qalmış mən BMT Baş Assambleyasının kürsüsündən demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır. Belə də oldu və bu il bizə qarşı 3 dəfə hərbi təxribat törədildi. İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədində hərbi təxribat törədildi və Ermənistan bizim torpaqlarımızı işğal etmək istədi. Amma biz layiqli cavab verərək onları yerinə oturtduq. Avqust ayında Azərbaycana diversiya qrupu göndərildi. O diversiya qrupu da zərərsizləşdirildi. Nəhayət, sentyabrın 27-də bizim kəndlərimiz, hərbi mövqelərimiz artilleriya atəşinə məruz qalmışdır, mülki şəxslər, hərbçilər arasında itkilər olmuşdur. Biz dedik, yetər artıq, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Mən Ali Baş Komandan kimi əmr verdim ki, Azərbaycan əsgəri, irəli, torpağımızı azad etməliyik, işğala son qoymalıyıq, işğalçını cəzalandırmalıyıq və belə də oldu. Azərbaycan 44 gün ərzində istədiyinə nail oldu, ədaləti bərpa etdi.

Bu 44 günün hər günü bizim şanlı tariximizdir, hər gün Azərbaycan irəli gedirdi. Bu 44 gün ərzində bir gün də olmamışdır ki, biz geri çəkiləк. Biz Ermənistanın 30 ilə yaxın müddət ərzində qurduğu istehkamları yararaq keçmişik. Bu istehkamlar elə qurulmuşdu ki, Azərbaycan oradan keçə bilməsin, əsgərimiz oradan keçə bilməsin. Eyni zamanda Dağlıq Qarabağ ərazisinin coğrafi relyefi də Ermənistan tərəfi üçün daha əlverişli idi. Azərbaycan əsgər və zabitləri böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi və öz doğma torpaqlarını işğalçılardan azad etdi. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, eyni zamanda Suqovuşan qəsəbəsi, Hadrut qəsəbəsi, Xocalı rayonunun bir hissəsi, Kəlbəcər rayonunun bir hissəsi, Murovdağ silsiləsi, Laçın rayonunun cənub hissəsi, strateji yüksəkliklər döyüş meydanında düşməndən azad edildi, orada Azərbaycan bayrağı qaldırıldı. Şanlı müharibəmizə Şuşa şəhərində yekun vuruldu. Noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi tarixi nailiyyətimizdir. Şuşa işğal altına düşmüş birinci şəhərimiz idi və işğaldan azad edilən sonuncu şəhər oldu. Şuşa işğaldan azad ediləndən sonra düşmənin beli qırıldı, düşmən təslim olmağa məcbur qaldı. Şuşanın azad edilməsi tarixi hadisədir. Bizim Ordumuz, qəhrəman övladlarımız dağlardan, dərələrdən, meşələrdən, cığırlardan keçərək, sıldırım qayaları qət edərək, qayalara dırmaşa-dırmaşa Şuşaya qalxaraq orada əlbəyaxa döyüşdə düşməni məhv etdi, Azərbaycan bayrağını Şuşada qaldırdı. Ondan bir gün sonra daha 70 kənd işğalçılardan azad edildi və Ermənistan artıq təslim oldu, ağ bayraq qaldırdı,





diz çökdü, öz layiqli cəzasını aldı və imdad dilədi. Biz Ermənistanı döyüş meydanında məhv etdik. Biz ermənilərin uzun illər yaratdıqları mifi darmadağın etdik. Onlar öz ordusu haqqında yalan məlumat ötürərək mif yaratmışdılar, guya Ermənistan ordusu yenilməz ordudur. Cəmi 44 gün ərzində Ermənistan ordusu məhv edildi, hərbi texnikası məhv edildi, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü, öz qüdrətini göstərdi.

Mən demişəm ki, biz güc toplayırıq və bu gücü toplamışıq. Biz bu qələbəni həm peşəkarlıq, qəhrəmanlıq hesabına, eyni zamanda milli ruh hesabına qazanmışıq. Biz haqlı idik, haqq-ədalət bizim tərəfimizdə idi. Bizim əsgər və zabitlərimiz hücuma keçəndə bir amalla yaşayırdı ki, öz doğma torpaqlarını işğalçılardan azad etsinlər. Noyabrın 10-da Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb. Bu kapitulyasiya aktına görə, bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonları Azərbaycana qaytarıldı, Azərbaycan bayrağı orada qaldırıldı. Bu onu göstərir ki, biz müharibəni həm döyüş meydanında, həm siyasi müstəvidə qazanmışıq. Halbuki bir çoxları, xüsusilə bu məsələ ilə məşğul olan vasitəçilər dəfələrlə demişdilər ki, münaqişənin hərbi həlli yoxdur. Amma biz sübut etdik ki, münaqişənin hərbi həlli var. Əks təqdirdə, bu nə hərb, nə sülh vəziyyəti bundan sonra da 30 il davam edə bilərdi. Biz buna nə qədər dözə bilərdik? Biz nə qədər səbir göstərə bilərdik? Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqının səbri tükənib və əgər Ermənistan işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmasa, biz onları oradan qovacağıq, onlar rədd olmalıdırlar bizim torpaqlarımızdan! Mən bunu müharibədən əvvəl və müharibə dövründə demişəm, xalqa müraciətlərimdə demişəm, xarici mətbu orqanlara verdiyim müsahibələrdə demişəm. Demişəm ki, Ermənistan bizim torpaqlarımızdan öz xoşu ilə rədd olmalıdır, etiraf etməlidir və çıxmalıdır. Əks təqdirdə, sona qədər gedəcəyik və sona qədər getdik. Ona görə biz döyüş meydanında qələbə qazandıq. Ondan sonra siyasi müstəvidə qələbə qazandıq, düşməni məcbur etdik ki, Kəlbəcər, Laçın və Ağdam rayonlarını azad etsin və bizim torpaqlarımızı tərk etsin.

Bu zəfər tarixi zəfərdir. Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu, demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq.

İndi isə bizim üçün yeni dövr başlayır – quruculuq dövrü. Mənfur düşmən işğal edilmiş bütün torpaqları yerlə yeksan edib. Bu məlumat artıq hər kəsdə var, videogörüntülər var.







Azad edilmiş ərazilərə mənim səfərlərim bunu göstərir. Bütün binalar, bütün tarixi abidələr, məscidlər, qəbirlər, məzarlıqlar mənfur düşmən tərəfindən dağıdılıb. Biz onların hamısını bərpa edəcəyik. Artıq bərpa işləri başlanmışdır.

Mən bir daha Azərbaycan xalqının qəhrəmanlığını dilə gətirmək istəyirəm. Mənfur düşmən döyüş meydanında məğlubiyyətə uğrayarkən mülki əhaliyə qarşı hərbi cinayətlər törədib, bizim şəhərlərimizi ballistik raketlərlə, fosforlu bombalarla, kasetli bombalarla atəşə tutub. Bu namərd atəş nəticəsində 100-ə yaxın mülki vətəndaş, onların arasında uşaqlar, qadınlar həlak olublar. Dörd yüzdən çox mülki vətəndaş yaralanıb, beş mindən çox ev dağıdılıb, ya da ki o evlərə ziyan vurulub. Ancaq Azərbaycan vətəndaşı öz torpağından bir addım geri atmayıb. Deyirdilər ki, öldü var, döndü yoxdur, sona qədər gedəcəyik. Müharibə dövründə Ermənistan ordusunda 10 mindən çox fərari olub. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıb. Yaralı əsgər və zabitlərimiz hərbi hospitallarda, xəstəxanalarda həkimlərdən xahiş edirdilər ki, bizi tezliklə sağaldın, biz qayıdaq döyüş meydanına, biz öz missiyamızı başa vurmalıyıq. Azərbaycan xalqı öz böyüklüyünü göstərdi, yüksək mənəvi ruhunu göstərdi. Bu Qələbənin səbəbkarı da Azərbaycan xalqıdır. Biz birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik.

Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Bizim azad edilmiş torpaqlara bundan sonra həyat qayıdacaq. Mən demişəm ki, bizim hər birimiz bu işdə fəal olmalıyıq. Biz düşmən tərəfindən dağıdılmış şəhər və kəndlərimizi birlikdə bərpa edəcəyik. Bizim iradəmiz də var, imkanlarımız da var.

Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyində qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək və bu gün işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik.

Öz çıxışımı məşhur kəlamla yekunlaşdırmaq istərdim. Hər kəs bilir ki, Ermənistan rəhbərliyi bir il bundan əvvəl demişdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Mən isə demişdim ki, "Qarabağ Azərbaycandır və nida". Bu gün bütün dünya görür ki, Qarabağ Azərbaycandır!

**Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!**

**Eşq olsun Azərbaycan Ordusuna!**

**Yaşasın Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı!**

**Yaşasın Azərbaycan əsgəri!**

# TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞANIN ZƏFƏR PARADINDA ÇIXIŞI

– Hörmətli cənab Prezident, əziz Qardaşım!

Azərbaycan Silahlı Qüvvələrinin qəhrəman şəxsi heyəti!

Azərbaycanlı can qardaşlarım!

Sizləri ən səmimi hisslərimlə, məhəbbətlə, hörmətlə salamlayıram.

Bu Zəfər Gününüzdə sizlərlə birlikdə olmaqdan böyük məmnunluq duyuruq.

Qardaşım İlham Əliyevə bu yüksək dəvəti və qonaqpərvərliyi üçün təşəkkürümü bildirirəm.

Azərbaycanın 44 gün davam edən şanlı mübarizəsində şəhid olan igidlərə Uca Allahdan rəhmət, qazilərimizə tezliklə sağalmalarını arzulayıram.

Şair Bəxtiyar Vahabzadənin dediyi kimi:

Hardan sənin oldu bizim Qarabağ?
Adı sahibini demirmi aşkar?!
Xoşluqla verməzlər torpağı, ancaq
Qanla möhürləyib, zorla alarlar.

İsa bulağının zümzüməsini,
Cabbarın, Seyidin, Xanın səsini,
Dalğalı Qarabağ şikəstəsini,
Babək türbəsini necə pay verim?

Qarabağı otuz illik həsrətdən sonra Ana Vətən ilə qovuşduran Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edir, onları dualarla cəbhəyə göndərən anaların əllərindən öpürəm.

20 Yanvarda şəhidlərin məzarları üzərinə qoyulan qərənfillər müstəqilliyi necə xatırladırsa, indi də Dağlıq Qarabağ bölgəsinə xas olan Xarıbülbül Azərbaycan torpaqlarının azadlığının rəmzinə çevrilmişdir.

Azərbaycanın həm hərbi, həm də diplomatiya sahəsində əldə etdiyi bu uğurda ən böyük paylardan biri, şübhəsiz ki, əziz qardaşım cənab Prezident İlham Əliyevə aiddir. Qardaşım İlham Əliyev bununla mərhum Heydər Əliyevin ona vəsiyyət olaraq etdiyi arzusunu da yerinə yetirmişdir. Fürsətdən istifadə edərək güclü Azərbaycanın əsasını qoyan Ümummilli lider Heydər Əliyevi də burada rəhmətlə yad edirəm. Azərbaycan qardaşım İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə, inşallah, dastan yazmaqda davam edəcək.







Hörmətli Qardaşım, əziz Azərbaycan xalqı. Türkiyə Azərbaycanın apardığı mübarizəyə ilk günlərdən bütün qurum və təşkilatları ilə dəstək vermiş, bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olmuşdur. Türkiyə olaraq, Azərbaycan ilə münasibətlərimizdə özümüzə hər zaman böyük lider Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün dəqiq ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Bu anlayışla Qarabağı otuz il boyunca sinəmizdə yara etdik. Bu gün də bu yaranın sağalmasının sevincini paylaşmaq, bu şanlı zəfəri birlikdə qeyd etmək üçün aranızdayıq.

Azərbaycanın torpaqlarını işğaldan azad etməsi heç də mübarizənin başa çatması demək deyildir. Bu günə qədər siyasi və hərbi sahələrdə davam etdirilən mübarizə bundan sonra çox fərqli cəbhələrdə davam edəcəkdir. Otuz illik işğal müddətində bu bölgələrin viranəyə çevrildiyini, daş üstündə daş qalmadığını hamımız birlikdə gördük. Qardaşım İlham Əliyevin dediyi kimi, Füzuli şəhərində bayraq asmağa belə bina tapılmamışdır. Bütün şəhərlər tar-mar edilmiş, bütün kəndlər yerlə yeksan olunmuş, məzarlıqlar belə dağıdılmışdır. Məscidlər dağıdılmış, minarələr eynilə tarmar olmuşdur. Ermənilər hər şeyi məhv etdikləri kimi, tarixi və mədəni abidələri də, təbii sərvətləri də qarət etdilər. Bütün bu ziyanın hesabı verilməlidir.

Müharibə zamanı Gəncə, Tərtər, Ağdam, Bərdə, Ağcabədi kimi Azərbaycan torpaqları da hədəfə alınmışdır. Yüz məsum mülki şəxs şəhid edilib, analar balasız, uşaqlar atasız-anasız qalmışdır. Hücumlar nəticəsində 416 qardaşımız da yaralanmışdır. Müharibə qanunları kobud şəkildə pozulub, insanlıq şərəfi ayaqlar altına atılıb. Bunları görməzliyə vuranların gözləri kimi, vicdanları da kor olmuşdur. Hər məcrada bunun hesabını sormalıyıq.

İllərdir, doğulduqları yerlərdən uzaq qalaraq, yurd həsrəti ilə alışıb-yanan bir milyon qaçqın və məcburi köçkün qardaşlarımız doğulduqları torpaqlara qayıdacaqlarını səbirsizliklə gözləyir. İnşallah, bu qardaşlarımızın həsrətinin ən qısa vaxtda sona çatacağına inanırıq.

Əziz qardaşlarım, Dağlıq Qarabağa fəlakət, qətliam və göz yaşından başqa heç nə gətirməyənlər də artıq ağıllarını başlarına toplamalıdırlar. Ermənistan rəhbərləri xalqın sərvətlərini Azərbaycanın torpaqlarını işğal atında saxlamaq üçün sərf etmişlər. Halbuki bu potensial mənasız müdafiə xətlərinə, silahlara, gözlərini kin və qan tutmuş rəhbərlərin ehtiraslarına sərf edilməsəydi, bu gün mənzərə çox fərqli olardı. Erməni siyasətçilərin bunu çox yaxşı təhlil edib, sülh və sabitlik əsasında gələcəyi qurmaq məsələsində cəsarətli addımlar atmalarını arzu edirik.

Ermənistan xalqının da özlərini keçmişin yalanları ilə ovunduraraq yoxsulluğa məhkum edən diasporun əsarətindən qurtulmasını diləyirik. Qərb imperialistlərinin təhriki ilə bir yerə çatmağın mümkün olmayacağını görməli, düşmənçilik əvəzinə mehriban qonşuluğa əsaslanan əlaqələr yenidən nəzərdən keçirilməlidir. Ermənistan xalqı Qarabağda yaşananlardan dərs götürərsə, bu, bölgədə yeni bir dövrün başlanğıcı olacaqdır.





Qardaşım İlham Əliyev Azərbaycan xalqının yaşadığı bu qədər faciəyə baxmayaraq, dayanıqlı sabitlik üçün təqdirəlayiq bir mövqe ortaya qoymaqdadır. Cənab Prezidentin bu xoşniyyətli cəhdlərini biz də dəstəkləyir, həmsöhbətləri tərəfindən dəyərləndirilməsini arzu edirik.

Şəhidlərimizin fədakarlığı sayəsində Azərbaycan ərazi bütövlüyünü, şükür olsun, yenidən təmin etmişdir. Artıq Azərbaycan torpaqları illərdir həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarıbülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır.

Arazı ayırdılar,
Lil ilə doyurdular.
Mən səndən ayrılmazdım,
Zülm ilə ayırdılar.
Ay Laçın, can Laçın,
Mən sənə qurban, Laçın.

Gözəlliyinə qurban olduğumuz Laçın artıq azaddır. Laçın kimi, Şuşa kimi, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam və Kəlbəcər də artıq azaddır.

Bu gün Azərbaycanın milli şairi, böyük mücahid Əhməd Cavad bəyin ruhunun şad olduğu gündür. Bu gün Nuru paşanın, Ənvər paşanın, Qafqaz İslam Ordusunun igid əsgərlərinin ruhunun şad olduğu gündür. Bu gün Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür.

Rəbbimə bizlərə bu günləri yaşatdığı üçün sonsuz şükür edirəm. Bu gün burada bütün qəlbimlə bir daha təkrarlamaq istəyirəm: Qarabağ Azərbaycandır! Qarabağ artıq Ana Vətəninə qovuşmuş, otuz illik həsrət sona çatmışdır. Türkiyə və Azərbaycan olaraq bundan sonrakı hədəfimiz bu torpaqları daha abad, daha inkişaf etmiş, uşaqlarımızın daha yaxşı yaşayacağı bir yerə çevirmək üçün mübarizə aparmaqdır. Türkiyə və Azərbaycan kürək-kürəyə verdikcə, Allahın izni ilə, çətinliklərin öhdəsindən gəlməyə, uğurdan uğura çatmağa davam edəcəkdir. Allah köməyimiz olsun!

Bu düşüncələrlə çıxışımı yekunlaşdırarkən bütün Azərbaycan xalqını, əziz qardaşım Prezident İlham Əliyevi və şanlı Azərbaycan Ordusunu, Türk Ordusunu ürəkdən təbrik edirəm. Əziz şəhidlərimizi bir daha rəhmətlə yad edir, qazilərimizə tezliklə sağalmalarını arzu edirəm. Sağ olun, var olun, Allaha əmanət olun!




QARABAĞ
AZƏRBAYCANDIR!
8
NOYABR
ZƏFƏR
GÜNÜ








QARABAĞ AZƏRBAYCANDIR!
8
NOYABR
ZƏFƏR
GÜNÜ





# HEÇ KİM UNUDULMUR, HEÇ NƏ YADDAN ÇIXMIR!





2020-ci il sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsi Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun şanlı Qələbəsi ilə başa çatdı. Müharibədə düşmənə aman verməyən, onu diz çökdürən ordumuzun əsgər və zabitləri qəhrəmanlıq örnəyinə çevrildilər, bütün dünyaya ölkəmizin igidlər diyarı olduğunu bir daha sübut etdilər.

Vətən naminə, ölkəmizin ərazi bütövlüyü uğrunda rəşadətlə vuruşan, torpaqlarımızın azadlığı uğrunda canından keçən mərd oğul və qızlarımızın xidmətləri dövlətimiz, xalqımız tərəfindən həmişə yüksək qiymətləndirilir, qazilərə, şəhid ailələrinə daim diqqət və qayğı göstərilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə döyüşdə iştirak etmiş vətən övladları yüksək adlar və medallarla təltif olunur, müharibə iştirakçılarının, şəhid ailələrinin sosial müdafiəsi sahəsində genişmiqyaslı dövlət proqramları həyata keçirilir, onların adlarının əbədiləşdirilməsi istiqamətində müvafiq tədbirlər görülür.

Vətən müharibəsində Müdafiə Sənayesi Nazirliyi ordumuzu istehsal etdiyi silah-sursatla təmin etməklə yanaşı, müharibədə iştirak edən əməkdaşlarının cəsurluğu, vətənpərvərliyi ilə də seçilmişdir. Müharibədə Nazirliyin çoxsaylı əməkdaşı iştirak etmiş, igidlik və mərdlik göstərərək bu şanlı tarixin bir parçasına çevrilməyi bacarmışlar. Onlardan 3 nəfər torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalmış, 7 əməkdaş isə yaralanaraq qazi olmuşdur.

Şəhid olmuş əməkdaşlarının xatirəsini əbədiləşdirmək, onları hər zaman yad etmək məqsədilə 2021-ci il may ayının 7-də Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyində Birinci Qarabağ müharibəsində şəhid olmuş baş leytenant Vəli Nuruş oğlu Mahmudovun və İkinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə yüksəlmiş baş leytenant Nurlan Rəfail oğlu Zeynalovun xatirə abidəsi açılmışdır.

Məlumat üçün bildirək ki, Mahmudov Vəli Nuruş oğlu 1958-ci il iyulun 18-də Naxçıvan Muxtar Respublikası, Babək rayonunun Nehrəm kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1976–1978-ci illərdə Minsk şəhərində artilleriya ixtisası üzrə hərbi xidmət etmişdir. Hərbi xidməti başa vurduqdan sonra Azərbaycan Texniki Universitetinə qəbul olunmuş və sözügedən təhsil müəssisəsini fərqlənmə diplomu ilə bitirmişdir. Təhsildə əldə etdiyi nailiyyətlərə görə universiteti bitirdikdən sonra Kosmik Cihazqayırma zavoduna təyinat almış, burada müxtəlif vəzifələrdə işləmişdir.

Qarabağ müharibəsində ermənilərin işğal etdikləri torpaqlarımızda həyata keçirdikləri etnik təmizləmə siyasətini, xüsusilə Xocalıda azərbaycanlılara qarşı törətdikləri soyqırımını hiddətlə qarşılamış, könüllü milli ordu sıralarına daxil olaraq 1992-ci ilin fevral ayında cəbhəyə yollanmışdır.

Vəli Mahmudov 1992-ci il may ayının 24-də Füzuli rayonunun Divananılar kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.



TARİX YAZAN QƏHRƏMANLAR




ŞƏHİDLƏR ÖLMƏZ, VƏTƏN BÖLÜNMƏZ !
AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİ
MİLLİ AEROKOSMİK AGENTLİYİNİN QARABAĞ MÜHARİBƏSİ
ŞƏHİDLƏRİ VƏ İŞTİRAKÇILARI
Mahmudov Vəli
Nuruş oğlu
18.07.1958-24.05.1992






ŞƏHİDLƏR ÖLMƏZ, VƏTƏN BÖLÜNMƏZ !
AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİ
MİLLİ AEROKOSMİK AGENTLİYİNİN QARABAĞ MÜHARİBƏSİ
ŞƏHİDLƏRİ VƏ İŞTİRAKÇILARI




Virtual keçid





2021-ci il sentyabrın 27-də – Anım Günündə isə Müdafiə Sənayesi Nazirliyinin inzibati ərazisində Vətən müharibəsi şəhidlərinin xatirəsini əbədiləşdirmək məqsədilə Şəhidlər Memorial Abidə Kompleksi açılmışdır.

Tədbirdə müdafiə sənayesi naziri Mədət Quliyev, Milli Qəhrəmanlar, Nazirliyin Vətən müharibəsində iştirak etmiş əməkdaşları, şəhid olmuş işçilərin ailə üzvləri və digər rəsmi qonaqlar iştirak ediblər.

Memorial abidə kompleksinin rəsmi açılışından sonra şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Tədbirdə müdafiə sənayesi naziri Mədət Quliyev çıxış etmişdir.

Daha sonra Müdafiə Sənayesi Nazirliyinin şəhid olmuş əməkdaşı Nicat Hüseynovun anası Zümrüd Hüseynova və Müdafiə Sənayesi Nazirliyinin əməkdaşı, Vətən müharibəsi iştirakçısı Təhməz Əlizadə çıxış ediblər. Onlar torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə igid oğullarımızın göstərdikləri qəhrəmanlıqdan bəhs edərək, İkinci Qarabağ müharibəsindəki qələbəmizin tarixdə əbədi qalacağını fərəh hissi ilə vurğulayıblar. İstər 44 gün ərzində, istərsə də müharibədən sonrakı dövrdə şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğıya görə bütün şəhid və qazi ailələri adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, Birinci vitse-prezident xanım Mehriban Əliyevaya, eləcə də Müdafiə Sənayesi Nazirliyinin rəhbərliyinə minnətdarlıq ifadə olunub.


ŞƏHİDLƏR ÖLMƏZ, VƏTƏN BÖLÜNMƏZ!
HEYBƏTOV AĞAƏMİ
ELÇİN oğlu
HÜSEYNOV NİCAT
ZİYAFƏT oğlu


ŞƏHİDLƏR ÖLMƏZ, VƏTƏN BÖLÜNMƏZ!
HEYBƏTOV AĞAƏMİ
ELÇİN oğlu
TORPAQ UĞRUNDA


ŞƏHİDLƏR ÖLMƏZ, VƏTƏN BÖLÜNMƏZ!
HEYBƏTOV AĞABƏYİ
ELÇİN oğlu
HÜSEYNOV NİCAT
ZİYAFƏT oğlu
TORPAQ, UĞRUNDA ÖLƏN
VƏTƏNDİR!





# HƏR ŞEY CƏBHƏ ÜÇÜN, HƏR ŞEY QƏLƏBƏ ÜÇÜN!




## MÜDAFİƏ SƏNAYESİ NAZİRİ, AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANI, GENERAL-POLKOVNİK MƏDƏT QULİYEVİN ÇIXIŞI

– Hörmətli həmkarlar, əziz qonaqlar!

27 sentyabr 2020-ci il...

Bu tarix Azərbaycan xalqının yaddaşına əbədi həkk olundu. Məhz həmin gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev erməni təcavüzkarlarının növbəti dəfə ataşkəsi pozmalarına cavab olaraq, Azərbaycan Ordusuna “İrəli!” əmrini verdi və xalqa müraciət etdi.

Hər bir vətəndaşın ürəyi cəbhə və ordumuzla birgə döyünürdü. Azərbaycan vətəndaşları Ali Baş Komandana dəstək olaraq kütləvi müraciət edir, döyüşlərdə iştirak etmək arzularını bildirirdilər.

Müharibə başlayandan millətindən, dinindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı Səfərbərlik Xidmətinə üz tutaraq müharibədə şəxsən iştirak etmək əzmini ifadə edirdi. Xalqın bu addımı təməli Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və möhtərəm Prezident cənab İlham Əliyevin uğurla davam etdirdiyi siyasətə inamının və etibarının təntənəsi idi. Mən dünyada ikinci bir xalq tanımıram ki, belə böyük ruh yüksəkliyi ilə əlinə silah alıb müharibəyə göndərilməyə can atsın.

Bir daha qeyd etmək istərdim ki, xalqımızın bu addımı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya olan sonsuz inam və məhəbbətin təzahürü idi.

Ali Baş Komandan fasiləsiz hərbi əməliyyatlara rəhbərlik edir, vacib tapşırıqlar və göstərişlər verir, qələbənin minimum insan itkisi ilə əldə olunması üçün təxirəsalınmaz tədbirlər görürdü.

Azərbaycan, bildiyiniz kimi, nümunəvi tolerant bir ölkədir. Burada bütün xalqların rahat yaşaması və yaratması üçün hər cür şərait yaradılmışdır. Müxtəlif dillərdə məktəblər açılmış, məscidlər, kilsələr, sinaqoqlar fəaliyyət göstərir.

Təəssüf hissi ilə qeyd edirəm ki, bəzi dövlətlərin növbəti dəfə qeyri-obyektiv mövqe tutaraq, Azərbaycana qarşı ayrı-ayrı təzyiq metodlarından istifadə etmələrinin şahidi olduq. Buna cavab olaraq, möhtərəm Prezident rus, ingilis, türk dillərində dünyanın ən mötəbər kütləvi informasiya vasitələrinə geniş və dərin məzmunlu müsahibələr – izahatlar verdi və bununla da, cəbhədə olduğu kimi, informasiya məkanında da parlaq qələbə əldə etdi. Dünya ictimaiyyəti Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının 4 qətnaməsində əks olunan qanuni, tarixi torpaqlarını silah gücü ilə azad etməsi məcburiyyətində qalan dövlətimiz barədə məlumatlar aldı. Bu savaşda möhtərəm Prezident cənab İlham Əliyevin dünya liderləri arasında böyük şəxsi nüfuza və hörmətə malik olması Azərbaycan üçün həlledici rol oynadı.



Hər bir Azərbaycan vətəndaşı Ali Baş Komandan cənab İlham Əliyevlə fəxr edir, dövlətimizin gücü və qüdrətindən fərəhlənir.

Bu tarixi qələbə Azərbaycan xalqının, Azərbaycan dövlətinin düzgün tərəqqi yolunda olmasını bir daha bütün dünyaya nümayiş etdirdi.

Aparılan siyasətin məntiqi nəticəsi kimi Azərbaycan Ordusu son illərdə inkişaf edərək dünyanın 50 ən güclü orduları sırasına daxil olmuşdur. 44 günlük müharibə ərzində Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında 5-ci nəsil müharibə nailiyyətləri ilə yanaşı, Silahlı Qüvvələrimizin Vətən uğrunda apardığı savaşda zabit və əsgərlərimiz dünyada görünməmiş şücaət və qəhrəmanlıqlar da nümayiş etdirdilər. 2020-ci il oktyabrın 4-də Cəbrayıl, 9-da Xocavənd rayonunun Hadrut qəsəbəsi, 17-si Füzuli, 20-si Zəngilan, 25-i Qubadlı, noyabrın 8-i Şuşa ağır döyüşlər nəticəsində işğaldan azad edildi.

Əziz dostlar, dünyanın aparıcı hərbi ekspertləri Qarabağın, xüsusən də Şuşanın müharibə yolu ilə azad edilməsinin mümkün olmadığını rəsmi şəkildə bəyan etmişdilər. Belə bir həlledici məqamda Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə xüsusi plan hazırlandı və ordumuz kiçik bir qüvvə ilə keçilməz sıldırım qayalarla Şuşaya qalxaraq, özlərindən sayca 100 dəfə artıq olan düşmənlə əlbəyaxa döyüşlərdə alınmaz hesab edilən Şuşa qala-





sını erməni təcavüzkarlarından azad etdi. Bundan sonra erməni və ermənipərəst qüvvələr məğlubiyyətdən qaça bilməyəcəklərini anlayaraq, Rusiya Prezidenti cənab Vladimir Putinə kapitulyasiya ilə bağlı müraciət edərək, ondan vasitəçi olmasını xahiş etdilər. Nəticədə 1988-1993-cü illərdə Azərbaycan Respublikasının siyasi rəhbərliyinin səriştəsiz və xəyanətkar fəaliyyəti nəticəsində təhvil verilmiş Azərbaycan torpaqları Ali Baş Komandan cənab İlham Əliyevin səyləri nəticəsində Vətənimizə qovuşdu!

Bu an mən xalqımızın Ümummilli lideri Heydər Əliyevin iki kəlamını xatırlatmaq istərdim. O, Möhtərəm Prezident cənab İlham Əliyev barəsində demişdi: "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"; "Azərbaycan dünyaya günəş kimi doğacaq". Belə də oldu. Möhtərəm Prezident, Ali Baş Komandan cənab İlham Əliyev Ulu öndər Heydər Əliyevin və xalqımızın ümidlərini, hər vaxt olduğu kimi, növbəti dəfə də doğrultdu. Azərbaycan görünməmiş tərəqqi, inkişaf yoluna qədəm qoydu, torpaqlarımız qaytarıldı. Dünyada görünməyən qələbə əldə edildi.

Bu gün peşəkar hərbi ekspertlər Azərbaycan Ordusunun Qələbəsini müzakirə edir, dünyada nümunəsi olmayan bu taktika və strategiyanı öyrənir.

27 sentyabr tarixindən Müdafiə Sənayesi Nazirliyi də gücləndirilmiş, fasiləsiz iş rejiminə keçmişdir. Əməkdaşlarımız gecə-gündüz iş yerlərində, dəzgah arxasında, mühəndislər, mütəxəssislər səngərlərdə döyüşçülərə texniki dəstək göstərir, sıradan çıxan texnikanın təmirini təxirə salmadan elə yerindəcə başa çatdırırdılar.

Bir sözlə, Müdafiə Sənayesi Nazirliyi "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" devizini ən başlıca məqsədinə çevirərək, Azərbaycan Respublikasının müdafiə qabiliyyətinin artırılması, Silahlı Qüvvələrin maddi-texniki təminatının yüksəldilməsi üçün əlindən gələni elədi.

Bununla yanaşı, nazirliyimizin 72 əməkdaşı müharibədə iştirak etmək üçün orduya səfərbər olunmuşdur. Əməkdaşlarımız müharibədə şücaət göstərərək qəhrəmanlıq nümunəsinə çevrilmişlər. Mən hər bir zabit və əsgərimizin gözlərindən öpür, onların qarşısında baş əyirəm.

Qələbə insanların hesabına əldə olunur. Azərbaycan Vətən müharibəsində 2907 nəfər şəhid vermişdir. Bu şəhidlərin sırasında Müdafiə Sənayesi Nazirliyinin əməkdaşları Ağa Əmi Heybətov, Nurlan Zeynalov və Nicat Hüseynov torpaqlarımızın bütövlüyü uğrunda qəhrəmancasına vuruşmuş və şəhidlik zirvəsinə ucalmış, 7 əməkdaşımız ağır yaralanmışdır.

Bugünkü tədbirimizdə Müdafiə Sənayesi Nazirliyinin Vətən müharibəsində şəhid olmuş əməkdaşlarının ailə üzvləri və qazilər iştirak edirlər. Şəhidlərimizin ruhu qarşısında baş əyir, doğmalarına səbir və dözüm diləyirəm. Fürsətdən istifadə edərək onlara Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin hörmət və dərin ehtiramını çatdırıram! Müharibədə iştirak edərək Vətənin azadlığı uğrunda yaralanmış əsgər və zabitlərimizə Allahdan cansağlığı diləyirəm. Vətən müharibəsi Azərbaycanın şanlı zəfəri kimi tarixdə əbədi qalacaqdır. Xalqımızın mənəvi rahatlığa qovuşmasında Ali Baş Komandan cənab



İlham Əliyevi Müdafiə Sənayesi Nazirliyinin əməkdaşları adından qələbə münasibətilə təbrik edirəm!

Bu gün biz şəhid əməkdaşlarımızın abidəsinin açılışında iştirak edirik. Hər bir əməkdaş, gələn qonaqlar bu abidəni Nazirliyin önündə görəcək və Azərbaycanın qələbəsinin kimlərin hesabına, nəyin bahasına əldə edildiyi onların yaddaşında bir daha təzələnəcək!

Təhsil ocaqlarının şagird və tələbələri, ictimai təşkilatların və idman cəmiyyətlərinin üzvləri bura gələrkən, böyüməkdə olan nəslə Müdafiə Sənayesi Nazirliyinin qəhrəmanları barədə ətraflı məlumatlar veriləcək. Növbəti dəfə Vətənə sevgi aşılanacaq!

– Hörmətli həmkarlar!

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevi əmin edim ki, Müdafiə Sənayesi Nazirliyinin əməkdaşları hər vaxt olduğu kimi, onun əmr və göstərişlərini ən yüksək səviyyədə icra edərək etibar və etimadını doğruldacaqlar!

Fürsətdən istifadə edərək abidəni ərsəyə gətirən heykəltəraş-rəssam Cəmaləddin Rüstəmova, heykəltəraş-dizayner Novruz Musayevə və heykəltəraş Arkadi Remezova dərin təşəkkürümü bildirirəm.

Sağ olun!

27.09.2021





# ŞƏHİDLƏR VƏ MÜHARİBƏ İŞTİRAKÇILARI BİZİM QÜRUR YERİMİZ, FƏXRİMİZDİR!

Elə insanlar var ki, illər ötsə də, onların əməlləri, xalq üçün etdikləri heç zaman unudulmur, zaman-zaman xatırlanır. Vaxt ötsə, nəsillər bir-birini əvəz etsə belə, öz qanları və canları bahasına dastan yazan, xalqın şərəfini və qürurunu hər şeydən uca tutan, Vətən uğrunda ən ümdə nemət olan həyatlarından keçməklə əbədi yaşayan, tarix yazan qəhrəmanların əvəzsiz fədakarlığı, cəsarəti. rəşadəti heç vaxt yaddaşlardan silinməyəcək. Bu müqəddəs torpaq üstündə rahat, asudə, əmin-amanlıqda yaşadığımız hər an üçün onlara minnətdar və borclu olacaq, xalqımızı ucalardan uca edib Qalibiyyət zirvəsinə yüksəldənlərin misilsiz xidmətlərini heç zaman unutmayacağıq.

Vətənin, millətin yolunda şüurlu surətdə canlarını qurban edərək şəhidlik zirvəsinə yüksələnlər, eləcə də cəsurluğu, əzmi və məğrurluğu ilə canlı əfsanəyə çevrilən qazilərimiz hər zaman hörmətlə yad ediləcək və daim qəlblərdə yaşayacaqlar.

Qürur yerimiz, and yerimiz olan bu qəhrəmanlarımızın həyatı örnək mənbəyidir. Kiçikdən böyüyə qədər hər kəs – sıravi vətəndaşdan tutmuş dövlət qurum və təşkilatlarında çalışan məsul şəxslərədək – şəhidlərin ölməz xatirəsini əbədiləşdirmək, onların yaxınlarına, müharibə iştirakçılarına hörmətlə yanaşmaq, misilsiz xidmətləri təbliğ etmək üçün səfərbər olmuşlar.

Müdafiə Sənayesi Nazirliyi də müharibə iştirakçıları olan əməkdaşlarına, şəhid olmuş işçilərinin ailələrinə diqqət və qayğısını əsirgəmir, daim problemləri ilə maraqlanır, onlara və ailələrinə maddi və mənəvi dəstək göstərir. Möhtərəm Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Vətən müharibəsi iştirakçılarının işlə təmin olunması və onlara xüsusi diqqət nəticəsində cari ildə 36 nəfər Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində işlə təmin edilmişdir. Bundan başqa, Vətən müharibəsi zamanı böyük şücaət və yüksək döyüş hazırlığı göstərərək torpaqlarımızı işğaldan azad etdiklərinə və vəzifə borclarını yüksək səviyyədə yerinə yetirdiklərinə görə Nazirliyin bir qrup əməkdaşı və şəhid olmuş işçiləri Hüseynov Nicat Ziyafət oğlu, Heybətov Ağa Əmi Elçin oğlu, Zeynalov Nurlan Rəfail oğlu Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin Fəxri fərmanları ilə təltif edilmiş, onların vərəsələrinə mükafatlar verilmişdir.

Vətən müharibəsi iştirakçılarına, qazilərə, şəhid ailələrinə diqqət və qayğı bütün dövlət qurumlarında olduğu kimi, Müdafiə Sənayesi Nazirliyi üçün də hər zaman ən önəmli məsələlərdən biri olaraq qalacaq və bundan sonra da bu istiqamətdə müvafiq fəaliyyət davam etdiriləcəkdir.

Virtual keçid

# MÜNDƏRİCAT


MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİ ........ 8

QARABAĞ MÜHARİBƏSİ ........ 26

Müdafiə Sənayesi Nazirliyinin Birinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalmış əməkdaşları ........ 30

Müdafiə Sənayesi Nazirliyinin Birinci Qarabağ müharibəsində iştirak etmiş və hazırda nazirlikdə çalışan əməkdaşları ........ 32

Böyük Zəfərə gedən yol ........ 36

Bizim işimiz haqq işidir! Biz zəfər çalacağıq! ........ 40

QƏHRƏMANLARI OLAN VƏTƏNİN BAYRAĞI ENMƏZ! ........ 46

Nicat Ziyafət oğlu Hüseynov ........ 50

Ağa Əmi Elçin oğlu Heybətov ........ 62

Nurlan Rəfail oğlu Zeynalov ........ 78

Vətən müharibəsində iştirak etmiş əməkdaşlarımız ........ 95

Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........ 145

Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim! ........ 148

İşğaldan azad edilmiş şəhər, qəsəbə və kəndlərimiz ........ 158

Biz birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik! ........ 160

HEÇ KİM UNUDULMUR, HEÇ NƏ YADDAN ÇIXMIR! ........ 178

Hər şey cəbhə üçün, hər şey qələbə üçün! ........ 192

Şəhidlər və müharibə iştirakçıları bizim qürur yerimiz, fəxrimizdir! ........ 197

**Redaksiya heyəti:**

Arif Babayev
Faris Abdullayev
Elgün Bəxtiyarov
Yaşar İsakov
Rövşən Əhmədov
Kamil Cəfərli
Semyon Şalmeyev

ŞƏRQ-QƏRB

www.eastwest.az
www.fb.com/eastwest.az
info@eastwest.az

Buraxılışa məsul: Rafiq Kazımov
Dizaynerlər: Yeganə Rüstəmova
Ayaz Abdulzadə
Korrektor: İradə Musalı
Bədii redaktor: Gültəkin Cəfərova
Texniki redaktor: Sevinc Yusifova
Baş redaktor: Nərgiz Cabbarlı
Texniki direktor: Allahverdi Kərimov
Nəşriyyat direktoru: Sevil İsmayılova

Çapa imzalanmışdır: 22.11.2021. Format: 64x86 $^1/_8$.
Ofset çapı. Fiziki çap vərəqi 25. Sifariş 21265. Tiraj 5000

ŞƏRQ-QƏRB

"Şərq-Qərb" ASC-nin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43
(+99412) 374 73 84